6 aprel 2018-ci il
№12 (8778)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**“Azərbaycanı kəşf et: elmdən mədəniyyətə”** ⇨səh.4

**Təhsil müəssisəsinin idarə olunmasının keyfiyyət göstəriciləri** ⇨səh.8

**Məktəbdə yaradıcı və sağlam mühit kollektivi ruhlandırır** ⇨səh.9

**Həyat prinsipi: MÜƏLLİM OLACAĞAM!** ⇨səh.13

# Müasir hərb tarixinin zəfər səhifəsi

## Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların həyat yolu gənc nəsil üçün örnəkdir



Aprelin 4-də Təhsil Nazirliyinin qarşısında böyük izdiham var idi. Havanın küləkli, soyuq olmasına baxmayaraq, yüzlərlə insan böyük həvəslə aksiyaya hazırlaşırdı. Bir tərəfdə hərbi geyimdə olan məktəblilər, digər tərəfdə isə ali məktəb tələbələri. Yeniyetmə və gənclərin bu hazırlığının əsas məqsədi Təhsil və Müdafiə nazirliklərinin birgə təşkilatçılığı ilə 2016-cı ilin aprel ayında Azərbaycan ordusunun qazandığı tarixi qələbəyə həsr olunmuş “Aprel zəfərindən ötən hər gün üçün bir ağac əkək” devizi altında Pirəkəşkül qəsəbəsində yerləşən “N” saylı hərbi hissədə ağacəkmə kampaniyasında iştirak etmək idi. Nəhayət, hamı öz yerini tutduqdan sonra avtobuslar yola düşdü.

Hərbi hissəyə çatan iştirakçılar öncə ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri qoydular.

Sonra hərbi hissənin klubunda görüş keçirildi. Görüşdə Təhsil və Müdafiə nazirliklərinin rəsmiləri, əsgərlər, aprel döyüşlərində qəhrəmanlıq göstərərək şəhid olan zabitlərin ailələri, aprel qaziləri və KİV nümayəndələri iştirak edirdi.

⇨Ardı səh.3

# Kadr hazırlığına yeni yanaşma

Tələbələr Vergilər Nazirliyinin aparatında və strukturlarında təcrübə keçə biləcəklər. Bu imkan Təhsil və Vergilər nazirlikləri arasında aprelin 3-də imzalanan əməkdaşlıq memorandumu əsasında yaradılıb.

İndiyə qədər iki nazirlik birgə müxtəlif maraqlı layihələr həyata keçirib. Ancaq həm orta, həm də ali təhsil pilləsində geniş əməkdaşlığı nəzərdə tutan yeni memorandum iki qurum arasında əlaqələri daha da genişləndirəcək. Əməkdaşlıq memorandumu 5 illik dövrü əhatə etsə də, sonradan müddətinin uzadılacağı da istisna edilmir. İşəgötürənlərlə təhsilalanlar arasında effektiv əlaqənin qurulmasını nəzərdə tutan yeni sənədi “işəgötürənlə təhsilalan arasında səmərəli əlaqə vasitəsi” hesab edən vergilər nazirinin müavini Sahib Ələkbərovun fikrincə, bu layihənin həyata keçirilməsi ölkədə kadr hazırlığında yeni bir yanaşmanı müəyyən edəcək.

Təhsildə həyata keçirilən islahatlarda əməkdaşlıqların əhəmiyyətini önə çəkən təhsil nazirinin müavini Firudin Qurbanov Vergilər Nazirliyi ilə əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini bildirib. O, qeyd edib ki, insan kapitalını formalaşdıran ən əsas iki amil - təhsil və təcrübədir: “İnsan bilik, bacarıqlara təcrübə yolu ilə yiyələnməlidir. Əməkdaşlığımız tələbələrə məhz bu imkanı qazandıracaq. Tələbələr Vergilər Nazirliyi və onun strukturlarında təcrübə keçmək, beləliklə də, fəaliyyətini daim yeniləşdirən, təkmilləşdirən, islahatlar aparan bir sahə ilə tanışlıq imkanı qazanacaqlar”.

### Memorandum təhsilə nə verəcək?

Memoranduma əsasən, həm ali, həm də orta təhsil pilləsində bir sıra tədbirlər həyata keçiriləcək. Məsələn, ali məktəblərdə fəaliyyət göstərən müəllimlər Vergilər Nazirliyinin təşkil etdiyi treninqlərdə iştirak edəcək və bununla da vergi sistemində həyata keçirilən yeniliklərdən xəbər tutacaqlar. Vergilər Nazirliyində və bütövlükdə vergi sistemində çalışan yüksək səviyyəli mütəxəssislərin bilik və bacarıqlarından istifadə etmək imkanı yaranacaq. Memoranduma əsasən, onların da təhsil prosesində iştirakı mümkündür və bu əməkdaşlığın təhsilin keyfiyyətinə yüksək təsir göstərəcəyi şübhə doğurmur.

İki qurum arasında əməkdaşlıq elmi tədqiqat sahələri üzrə qarşılıqlı əlaqələrin inkişafını da nəzərdə tutur. S.Ələkbərov Təhsil və Vergilər nazirliklərinin əməkdaşlığındakı bu yeni həlqəni belə qiymətləndirir: “Gənclərə praktik vərdişlər aşılamaq məqsədi ilə Vergilər Nazirliyi əməkdaşlarının ali təhsil müəssisələrində, ilk növbədə SABAH qruplarında elmi-pedaqoji fəaliyyətlə məşğul olmaları, habelə onların təhsil sistemində çalışan mütəxəssislər üçün təşkil olunan treninqlərə təlimçi qismində cəlb edilmələri təmin olunacaq.

⇨Ardı səh.3

# Əsas nəticə deyil, iştirakdır

## Finlandiya məktəblərində fiziki tərbiyə dərsləri bu prinsip üzərində qurulub

Təhsildə böyük uğurlar əldə etmiş Finlandiya barədə qəzetimizdə bir neçə dəfə yazılar dərc etmişik. Finlandiya təhsil standartlarına həm dünyada, həm də bu ölkənin özündə münasibət birmənalı deyil. Tənqid də var, tərif də. Finlandiya təhsil sistemində və ümumiyyətlə, fin cəmiyyətində idman və bədən tərbiyəsinə dair qənaət isə yekdildir: finlilər dünyanın ən sağlam və fiziki baxımdan hazırlıqlı xalqlarından biridirlər.

### Məktəblilərin sevimli hobbisi

Təbii ki, bu reallıq birbaşa olaraq Finlandiya məktəblərində fiziki hazırlıq dərslərinin yüksək keyfiyyətlə və uşaqlar üçün maraq kəsb edən formada təşkilindən asılıdır. Bu ölkəni fiziki mədəniyyət və idmansız təsəvvür etmək mümkün deyil, çünki yaxşı fiziki formada olmaq sıravi finlilərin əsas məqsədlərindəndir. Avropa Komissiyasının 2010-cu ildə həyata keçirdiyi araşdırmanın nəticələrinə görə, Finlandiya insanlarının fiziki aktivliyinə görə Avropanın lider dövlətlərindən biridir. Fiziki tərbiyə üçün müxtəlif stimullar var: mübarizə ruhu, iradə möhkəmliyi, fiziki formaya dəstək və yaxud sadə dillə desək, kənardan yaxşı görünmək istəyi. Finlilərin əksəriyyəti aktiv həyat tərzi keçirirlər və hesab edirlər ki, bu onların rifah halının başlıca meyarıdır.

İdman uşaqların başlıca hobbisi, əyləncə növüdür. 18 yaşınadək uşaqların 90%-i aktiv idmanla məşğuldur. Bu prosesdə məktəb və idman klubları sıx əlaqədədirlər. Ən aktiv idman növləri futbol, bədii gimnastikanın müxtəlif formaları və təbii ki, buzüstü hokkeydir. Yaşlı əhalinin 90%-i həftədə ən azı 2 dəfə idman edir, 50%-i isə azı 4 dəfə. Orta statistik finli gün ərzində mütləq idmanla məşğul olmalıdır, ona görə də işləyən əhali əsasən iş yerinə yaxın hansısa idman klubunu seçir ki, nahar vaxtı mütləq məşğul ola bilsin. Söhbət əsas etibarilə fitness, qaçış, trenajor zalında məşqdən gedir.

Fiziki tərbiyə dərsləri üçün hər növ şəraiti (idman zalı, meydançalarla yanaşı, mütləq duş da olmalıdır) olan məktəblərdə uşaqların böyük əksəriyyəti fiziki hazırlıq dərslərinə qatılırlar. Özü də ruh yüksəkliyi ilə. İdman formasına dair ümumi tələblər yoxdur, kim necə istəyir geyinə bilər. Dərslər çox maraqlı keçir, çünki vahid qəlib, çərçivə yoxdur. Bu gün futbol oynanılacaq, gələn dərs qaçış olacaq. Qışda xizəksürmə və buzda sürüşmə idman növləri mütləq xarakter daşıyır. Finlandiya şimal ölkəsidir və burada qış idman növləri həmişə xüsusi diqqət mərkəzində olub.

⇨Ardı səh.11



# Dünyanın beynəlmiləl universitetləri

## Ali təhsildə beynəlxalq komponentlər güclənir

Səh.12

# ADNSU-nun bes ixtisası Avropa standartlarına uyğun sayılıb

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) beş ixtisası Almaniyanın və Avropanın məşhur akkreditasiya təşkilatlarından biri olan Foundation for International Business Administration Accreditation (FİBAA) tərəfindən Avropa standartlarına uyğun sayılaraq beş il müddətinə akkreditasiya olunub. ADNSU akkreditasiyadan keçmək üçün özü müstəqil şəkildə FİBAA-ya müraciət edib. ADNSU Azərbaycan universitetləri arasında müstəqil şəkildə akkreditasiyadan keçmək üçün müraciət etmiş ilk ali məktəbdir.

Proqramları tam qiymətləndirdikdən sonra FİBAA ADNSU-nun BA Proqramlarının proqramların inkişafı üçün müəyyənləşdirilmiş keyfiyyət hədəflərinin olduğu qənaətinə gəlib. Beləliklə, ADNSU-nun beş ixtisası - “İqtisadiyyat” (Business Informatics (B.Sc)), “Kompüter mühəndisliyi” (Computer Engineering (B.Sc.)), “Sənayenin təşkili və idarə olunması” (Industrial Engineering (B.Sc.)), “İdarəetmədə informasiya sistemləri” (Computer Information Systems (MBA)) və “Biznesin təşkili və idarə edilməsi” (Operations Management (MBA)) FİBAA tərəfindən Avropa standartlarına uyğun sayılaraq beş il müddətinə akkreditasiya olunub.

⇨Ardı səh.5

# 3 “məktəb xəstəliyi”ndən biri

Orta məktəbi bitirənlərin cəmi 15 faizə qədəri yetkin həyata sağlam fərdlər kimi daxil olur. Məktəblilərdə ən çox rast gələnən problemlərdən biri qamətlə bağlıdır. Araşdırmalara görə, ibtidai siniflərdə 51, orta siniflərdə 52, yuxarı siniflərdə 41 faiz təşkil edən bu problem ciddiliyinə görə artıq həyəcan təbili çalınacaq həddədir.

Problemin ciddiyyəti İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) skoliozun (onurğa əyriliyi) profilaktikasına həsr olunmuş sağlamlıq həftələri çərçivəsində həyata keçirilən müayinələr zamanı da nəzərə alınıb. Odur ki, Yevlax rayonunda fəaliyyət göstərən 33 orta ümumtəhsil məktəbində 9228 şagird müayinələrə cəlb olunub.

Müayinələrin nəticəsində 574 məktəblidə skoliozun ilkin əlamətləri aşkarlanıb və onlar ətraflı müayinə üçün ailə və ixtisas həkimlərinə yönləndirilib. Aparılan müayinələr zamanı bir sıra patologiyalar erkən aşkarlanıb. Belə ki, müayinəyə gələnlərin 567 nəfərində skolioz, 16 nəfərində kifoz, 4 nəfərdə isə onurğa deformasiyaları aşkarlanıb. Bundan əlavə, 100 nəfərdə 1-ci dərəcəli skolioz, 79 nəfərdə isə skolioza meyillilik olduğu üzə çıxıb.

Maraqlıdır, bu problem nədən qaynaqlanır? Niyə daha çox məktəblilərdə rast gəlinir? Problemdən çıxış yolu nədir?

⇨Ardı səh.11

## RƏSMİ XRONİKA




- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Bakı Konqres Mərkəzində keçirilən "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılışında iştirak edib. Ölkə başçısı İlham Əliyev açılış mərasimində nitq söyləyib.
- Aprelin 5-də Prezident İlham Əliyev Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiçin, Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Pradip Kumar Qyavalinin, Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserratın, Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri Ri Yon-honun başçılıq etdikləri nümayəndə heyətlərini, həmçinin BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul edib.
- Ölkə başçısı İlham Əliyev aprelin 4-də Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini, Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın, Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdikləri nümayəndə heyətlərini, İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini və Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkini qəbul edib.
- Aprelin 4-də Prezident İlham Əliyev Könül Kazım qızı Xasıyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.
- Ölkə başçısı İlham Əliyev aprelin 3-də Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi və Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev aprelin 3-də Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə bu vəzifəyə yenidən seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Aprelin 2-də Prezident İlham Əliyev Aşıq Şəmşirin 125 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul edib.

## Ötən ay Təhsil Nazirliyinə 8894 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglərlə və Vətəndaşların Qəbulu Mərkəzində 2018-ci ilin mart ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb.

Qeyd olunan müddət ərzində Vətəndaşlarla iş bölməsinə ümumilikdə 8894 müraciət daxil olub.

Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 6552 zəng qəbul edilib.

Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 2342 vətəndaşa xidmət göstərilib.

Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 899 sənəd (523 məktub, 325 ərizə, 51 digər sənəd) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya), ümumtəhsil məktəblərinin 1-ci sinfinə qəbul, tələbələrin yerli ali və orta ixtisas təhsil müəssisələrinə köçürülməsi və bərpası, müəllimlərin işə qəbulu ilə bağlı məsələləri əhatə edib.

Qeyd edək ki, Telefon Məlumat Mərkəzinə ötən ay ərzində ən çox həftənin cümə (1791 müraciət) və çərşənbə axşamı (1337 müraciət) günləri, əsasən, saat 10:00-dan 12:00-dək və 14:00-dan 16:00-dək müraciət olunub. Vətəndaşların Qəbulu Mərkəzinə isə ən çox həftənin cümə (652 müraciət) və bazar ertəsi (483 müraciət) günləri, əsasən, saat 10:00-dan 13:00-dək və 14:00-dan 16:00-dək müraciət edilib.

## "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsi

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsinə başlanılıb.

Ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilən təqdimat müsabiqəsi Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunur.

Müsabiqənin ölkə mərhələsində respublikanın bütün bölgələrindən olan 104 nəfər şagird iştirak edir. Şagirdlər Təhsil Nazirliyində yaradılmış İşçi qrupunun qarşısında 10 dəqiqəlik təqdimat edir, onların çıxışları əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında maksimum 10 balla qiymətləndirilir.

"Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, şagirdlər diplom, tərifnamə və qiymətli hədiyyələrlə təltif olunacaqlar.

## Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarında cəmi 776 şagird yerlik modul tipli 14 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4392000 (dörd milyon üç yüz doxsan iki min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 aprel 2018-ci il*

## Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 aprel tarixli Sərəncamına Əlavə*

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | İsmayıllı rayonu Gəndov kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 2 | İsmayıllı rayonu Girk kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 3 | İsmayıllı rayonu Uştaqlışlaq kənd 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 315 000 |
| 4 | Şamaxı rayonu Talışnuru kənd 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 330 000 |
| 5 | Şamaxı rayonu Ərciman kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Şamaxı rayonu Cıraqlı kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 7 | Şamaxı rayonu Cabanı kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 8 | Şamaxı rayonu Çağan kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 9 | Şamaxı rayonu Laləzar kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 330 000 |
| 10 | Şamaxı rayonu Sabirli kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 11 | Qobustan rayonu Şıxzərli kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 12 | Ağsu rayonu Sanqalan kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 13 | Ağsu rayonu Abasxanlı kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 14 | Ağsu rayonu Sarvan kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| | **Cəmi** | **4 392 000** |

## Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında cəmi 756 şagird yerlik modul tipli 15 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4 461 000 (dörd milyon dörd yüz altmış bir min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 aprel 2018-ci il*

## Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli Sərəncamına Əlavə*

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Tovuz rayonu Y.Alıyev adına Hacıhəsənli kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 2 | Tovuz rayonu Z.Məmmədov adına Sarıtala kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 3 | Tovuz rayonu Şamlıq kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 4 | Tovuz rayonu Qayadibi kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 5 | Tovuz rayonu Qoşa kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 6 | Tovuz rayonu Quşçu Qaralar kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 7 | Ağstafa rayonu H.Aslanov qəsəbə 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 8 | Şəmkir rayonu Talışkənd kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 9 | Gədəbəy rayonu Dördlər kənd 40 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 285 000 |
| 10 | Gədəbəy rayonu Əyrivəng kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 11 | Gədəbəy rayonu Talakənd kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 12 | Daşkəsən rayonu Almalı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 13 | Daşkəsən rayonu Daşkəsən qəsəbəsi 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 14 | Daşkəsən rayonu Gürbulaq kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 15 | Göygöl rayonu Əzgilli kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| | **Cəmi** | **4 461 000** |

# Kadr hazırlığına yeni yanaşma

## Təhsil və Vergilər nazirliklərindən təhsilalanlara dəstək

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Vergi sistemində kifayət qədər bacarıqlı, bu sahəni dərindən bilən alimlər çalışırlar və onların bu prosesdə iştirakı ümumi məqsədimizə çatmağımıza xidmət edəcək. Vergilər Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə müasir standartlara cavab verən kadr hazırlığı proqramlarının, müvafiq sahə üzrə biliyin qiymətləndirilməsinin vacib formasının, təhsil müəssisələri üçün vahid vergi proqramının tərtib edilməsi və digər sənədlərin hazırlanmasında da iştirak etmək niyyətindədir. Müəllim və tələbə heyəti Vergilər Nazirliyi tərəfindən keçirilən treninqlərə cəlb ediləcək. Mövcud səlahiyyətlər və imkanlar çərçivəsində nəinki SABAH qruplarına, Təhsil Nazirliyinin gənclər üçün həyata keçirdiyi xüsusi layihələrə də müvafiq dəstək göstərməyə çalışacaq".

F.Qurbanov əməkdaşlıq çərçivəsində tələbələrə Vergilər Nazirliyi tərəfindən verilən dəstəyin əhəmiyyətini belə izah edib: "Tələbələr istehsalat təcrübəsi dövrünü Vergilər Nazirliyində və onun strukturlarında keçəcək. Müasir standartlara cavab verən kadr hazırlığı proqramları, təhsil müəssisələri üçün vahid vergi proqramı və digər sənədlər hazırlanacaq, müəllim və tələbə heyəti bu qurum tərəfindən keçirilən təlim və seminarlara, treninqlərə cəlb ediləcəklər. Layihə elm, təhsil və təcrübənin bir-birini tamamlamasına xidmət edəcək və gələcək peşəkar kadrların yetişdirilməsinə böyük təkan olacaq".

### SABAH qruplarına dəstək

Vergilər Nazirliyinin dəstəyinin əsas ünvanı SABAH qruplarıdır.

Məlum olduğu kimi, 4 il əvvəl Təhsil Nazirliyinin təşəbbüsü ilə ali təhsil müəssisələrində SABAH qrupları təşkil edilib. Artıq 12 ali təhsil müəssisəsində 2300 tələbəni əhatə edən bu layihədə yeni və fərqli mühitdə təhsil, gənclərin savadlı, bacarıqlı və hazırlıqlı kadr kimi yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığına istiqamətlənməsi Vergilər Nazirliyinin də diqqətini cəlb edib. S.Ələkbərovun sözlərinə görə, Təhsil Nazirliyi ilə aparılan müzakirələrdən sonra SABAH qruplarında təhsilalanların inkişafı, tədris, təlim, peşə hazırlığı məqsədi ilə layihəyə start verilib: "Bu layihə məhz ali təhsil ocaqlarında xüsusi istedadlı tələbələr üçün yaradılmış SABAH qruplarında təhsil alan gənclərin gələcək hazırlığı ilə bağlıdır. Layihə gənclərin tədris dövründə inkişafını, təlim və peşə hazırlığı üzrə biliklərinin dərinləşdirilməsi və möhkəmləndirilməsini, peşəkar kadr kimi yetişdirilməsini, potensiali olan gənclərin gələcəkdə vergi xidmətində işə cəlb edilməsi üçün ilkin hazırlığını nəzərdə tutur".

Texnologiyaların yüksək sürətlə inkişaf etdiyi bir dövrdə rəqabətədavamlı kadrların hazırlanmasında SABAH qruplarının yaradılmasını və Vergilər Nazirliyinin qrupa dəstəyini xüsusi qeyd edən F.Qurbanov SABAH qruplarında əldə edilən nəticələrə diqqət çəkib: "721 nəfər SABAH məzunundan 53 faizi magistraturaya qəbul olunub. Magistraturaya qəbul olunanların 16 faizi təhsilini xaricdə davam etdirir. Məzunların 30 faizi dövlət və özəl sektorda işlə təmin olunub. Bu, çox yaxşı göstəricidir".

### "Vergi mədəniyyəti"ni öyrədən kurslar təşkil ediləcək

Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi arasında əldə edilən yeni əməkdaşlıq şərtlərinə görə, orta təhsil müəssisələrində kurslar təşkil ediləcək. Həmin kurslarda şagirdlərə "Vergi mədəniyyəti" aşılanacaq.

### Bu sənəddən Vergilər Nazirliyi nə qazanacaq?

İnsan resurslarının dövlət qurumlarının və əmək bazarının tələbi nəzərə alınmaqla savadlı, bacarıqlı və hazırlıqlı kadr kimi yetişdirilməsinə şərait yaradacaq bu sənədin imzalanmasını zərurətə çevirən səbəblər olub. Nazir müavini S.Ələkbərovun sözlərinə görə, vergi orqanlarında çalışanların yarısı gənclərdir. Rəhbər vəzifələrdə çalışanların 32 faizinin yaşı 35-dən aşağıdır. İş prosesində gənclərə üstünlük verən bir qurumun Təhsil Nazirliyi ilə imzaladığı bu memorandumu "insan resurslarının inkişafına yatırılan investisiya" adlandıran S.Ələkbərov deyib ki, nəinki ali təhsil pilləsinin ikinci kurslarında yaradılan SABAH qruplarında, ümumiyyətlə, ali təhsil alan gənclər üçün formativ tədris prosesi düzgün qurularsa, hər bir dövlət qurumu həmin gənclər arasından özünün insan resursları bazası üçün yüksək hazırlığa malik kadrlar əldə edə bilər.




### Gənclərdən nə tələb ediləcək?

Vergi orqanlarının fəaliyyəti günün tələbinə uyğun olaraq təkmilləşdirilir. Öz fəaliyyətində müasir texnoloji resurslardan geniş istifadə edən Vergilər Nazirliyi elektron hökumətin ən mühüm həlqələrindən biridir. Hazırda vergi risklərinin müəyyən olunması və yayındırılan vergilərin aşkarlanması məqsədi ilə risklərin idarə edilməsi, elektron audit kimi innovativ alətlər uğurla tətbiq edilir. Vergi bəyannamələrinin hazırlanmasından tutmuş onların göndərilməsi, vergilərin ödənilməsinə qədər bütün proseslər elektronlaşdırılıb. Vergi xidmətində çalışan əməkdaş bütün iş prosesini informasiya texnologiyaları vasitəsi ilə həyata keçirir. Bu da vergi işçisindən yüksək bilik, bacarıq və iş təcrübəsi tələb edir. İnformasiya texnologiyaları daim yenilənən bir sahədir və onunla çalışan insandan da bu yeniliklərlə ayaqlaşmaq tələb olunur. Odur ki, bu sistemdə çalışmaq niyyətində olan tələbələr bu tələblərə cavab verməlidir. Vergilər Nazirliyi işə qəbul edəcəyi şəxslər arasında müasir düşüncə sahibi, yenilikçi, öz potensialını reallaşdırmaq istəyən təşəbbüskar gənclərə üstünlük verir.

Odur ki, vergi sistemində çalışmaq istəyində olan gənclər, bu tələblərə cavab vermək üçün təhsilinizə daha məsuliyyətli yanaşın!

# Müasir hərb tarixinin zəfər səhifəsi



## Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların həyat yolu gənc nəsil üçün örnəkdir

⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

Ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyinin əməkdaşı Abdulla Qurbani Azərbaycanın müasir hərb tarixinin zəfər səhifəsi olan aprel döyüşlərinin ikinci ildönümünün qeyd edilməsi və bu məqsədlə ağacəkmə kampaniyasının təşkil olunmasının yeniyetmə və gənclərdə vətənpərvərlik ruhunun artırılmasına töhfə verilməsi məqsədi daşıdığını bildirdi.

Təhsil nazirinin müavini Firudin Qurbanov görüşdə çıxış edərək aprel döyüşlərindən söhbət açdı. F.Qurbanov Milli Ordumuzun şanlı tarixinə çevrilmiş aprel döyüşlərinin hər bir Azərbaycan vətəndaşına qürur hissi yaşatdığını, ölkə Prezidentinin yüksək qayğısı ilə Cocuq Mərcanlı kəndinin bərpası istiqamətində görülən işləri xüsusilə qeyd etdi. Bildirdi ki, aprel döyüşlərində qazanılan qələbənin ikinci ildönümünün ictimaiyyət, o cümlədən təhsil işçiləri tərəfindən də qeyd olunması xalqımızın mübarizə ruhunu və yüksək vətənpərvərlik hissini bir daha nümayiş etdirir. Nazir müavini təhsil müəssisələrinin qarşısında duran ən ümdə vəzifələrdən birinin şagirdlərdə və tələbələrdə vətənpərvərlik ruhunun aşılanması olduğunu vurğuladı.

Müdafiə Nazirliyinin Mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi, general-mayor Rasim Əliyev bildirdi ki, 2016-cı ilin aprelində Azərbaycan ordusu bir daha gücünü nümayiş etdirib, düşmənin çoxlu sayda canlı qüvvə və texnikasını məhv edib. Milli ordunun bu tarixi qələbəsi xalqımızda böyük ruh yüksəkliyi yaradıb, düşmən üzərində tezliklə qələbəmizə əminlik və nikbinlik hisslərini artırıb.

"Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş şəhid Urfan Vəlizadənin həyat yoldaşı Könül Vəlizadə, Milli Qəhrəman Murad Mirzəyevin həyat yoldaşı Fizzə Mirzəyeva, Milli Qəhrəman Samid İmanovun həyat yoldaşı Badam İmanova çıxış edərək onlara göstərilən diqqət üçün minnətdarlıqlarını bildirdilər, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların həyat yolunun gənc nəsil üçün örnək olduğunu qeyd etdilər.

Sonra iştirakçılar hərbi hissədə yaradılan şəraitlə tanış oldular. Əsgərlərlə birgə nahar etdilər. Nahardan sonra ağacəkmə kampaniyasına start verildi. Aprel döyüşlərindən keçən hər bir gün üçün bir ağac – 730 ağac hərbi hissənin həyətində əkildi.

Fürsətdən istifadə edib iştirakçıların tədbirlə bağlı təəssüratlarını öyrəndik.

### "Özümü çox qürurlu hiss edirəm"

Aprel döyüşlərində qəhrəmancasına həlak olmuş, Milli Qəhrəman Samid İmanovun həyat yoldaşı Badam İmanova bizimlə söhbətində bildirdi ki, bu kimi kampaniyalar Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ruhuna göstərilən ehtiramın təzahürüdür: "Bu ağacəkmə kampaniyasında iştirak etdiyim üçün özümü çox qürurlu hiss edirəm. Təhsil nazirinin müavini Firudin Qurbanovla birgə ağac əkdik. Zaman gələcək və bu ağaclar böyüyəcək. Bu hərbi hissədə xidmət edən hər bir zabit, əsgər bu ağacların hansı məqsədlə əkildiyini biləcək və aprel şəhidlərini ehtiramla yad edəcəklər". B.İmanova Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışaraq, ölkə başçısına dərin minnətdarlığını bildirdi.

### "Aprel döyüşlərində biz düşmənə çox ağır zərbələr endirdik"

Döyüşlərin iştirakçısı, "Şücaətə görə" medalı ilə təltif edilmiş qazi Azər Məmmədov tədbirin çox əhəmiyyətli olduğunu dedi. Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə əkilən ağacların uzun ömürlü, həmişə yaşıl olmasını arzuladı.

Azər Məmmədov həmin günləri qürurla xatırladığını söylədi: "Tərtər, Selsulan uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Aprel döyüşlərində biz düşmənə çox ağır zərbələr endirdik. Ordumuzda böyük ruh yüksəkliyi var idi. Nəzərə çatdırım ki, həmin vaxtlarda düşmən bizə hücum etmişdi və biz əks həmlə ilə onları yerində oturtduq". Azərbaycanın çox güclü ordusu olduğunu deyən A.Məmmədov torpaqlarımızın qısa zamanda azad ediləcəyinə əminlik ifadə etdi.

### "Bu gün əkdiyim ağacın taleyi həmişə məni düşündürəcək"

Azərbaycan Dillər Universitetinin tələbəsi Ayşən Məmmədova da tədbirdə iştirak etdiyi üçün çox sevincli olduğunu bildirdi. Bu günün onun həyatında xüsusi bir önəm daşıyacağını diqqətə çatdırdı: "Sözlə ifadə edilməyəcək qədər qürurluyam. Qürurluyam ona görə ki, Azərbaycanın güclü ordusu var. Qürurluyam ona görə ki, xalqımızın mərd, cəsur oğulları var. Aprel döyüşləri bunu bir daha sübut etdi. Bu gün burada əkdiyim ağacın taleyi həmişə məni düşündürəcək. Əgər icazə versələr, imkan tapdıqca bu ağaca baxmağa gələcəm. Bu ağac mənim üçün çox dəyərlidir".

### "Bir əsgər kimi xalqıma xidmət etmək üçün günlərimi sayıram"

Bakıdakı 100 nömrəli tam orta məktəbin X sinif şagirdi Elvin Qurbanlı da bizimlə öz təəssüratlarını bölüşdü. O, hər cür şəraiti olan hərbi hissə ilə yaxından tanış olduğunu, buradakı əsgərlərlə söhbətləşdiyini dedi. Torpaqlarımızın düşmən tapdağından azad olmasını arzulayan Elvin belə ağacların həmin torpaqlarda əkilməsini dilədi. "Məktəbimizdə hərbi dərslərə xüsusi önəm verilir. Biz artıq hərbin ilk sirləri ilə yaxından tanışıq. Mən həmçinin məktəbimizin "Şahin" hərbi-idman oyunu komandasının üzvüyəm. Gələcəkdə bir əsgər kimi xalqıma xidmət etmək üçün günlərimi sayıram".

### Gələcəyin layiqli əsgəri

Paytaxtın Nərimanov rayonunda yerləşən 258 nömrəli tam orta məktəbin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri, ehtiyatda olan mayor Möhtəşəm Məhərrəmov tədbirin təqdirəlayiq olduğunu qeyd etdi. Şagirdlərin birbaşa hərbi hissədə olması, zabit və əsgərlərlə təmasının onlara xüsusi motivasiya verdiyini deyən M.Məhərrəmov belə tədbirlərin şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında çox vacib amil olduğunu da bildirdi: "Ordumuz son illərdə çox böyük inkişaf mərhələsindədir. Düşünürəm ki, Azərbaycan ordusu regionda ən güclü ordulardan biridir. Aprel döyüşləri də bunu sübut etdi. Məktəbdə ordumuz və döyüşçülərimiz haqqında şagirdlərə ətraflı məlumatlar veririk. Şagirdlərimizin də tədris etdiyimiz fənnə xüsusi maraqları var. Düşünürəm ki, hər bir məktəbli oğlan gələcəyin layiqli əsgəridir".

# Elm-təhsil-istehsalat əlaqələri vahid müstəvidə inkişaf etdirilməlidir

## Bilik iqtisadiyyatının əsasını yaratmaq üçün alimlərin fəaliyyətini koordinasiya etmək lazımdır



**Ruhiyyə DAŞSALAHLI**

Aprelin 4-də Azərbaycan Texniki Universitetində (AzTU) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan Respublika Elmi-texniki konfransı keçirilib. Ölkə alimləri bir araya gələrək "Təhsil-tədqiqat-istehsalat mexanizminin qurulması"nı müzakirə edib.

Konfransda çıxış edən AzTU-nun prorektoru, professor İlham Pirməmmədov bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə bu il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib. Ulu öndər Heydər Əliyevin "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" fikrini xatırladan prorektor 1918-1920-ci illərdə əsası qoyulan, lakin təşəkkül tapa bilməyən milli strategiyalarımızın müstəqillik illərində yüksək səviyyədə həyata keçirildiyini deyib. Azərbaycanlı ziyalıların, elm adamlarının məhdud imkanlarla xaricdə ölkəmizi tanıtmaq cəhdlərini, bayrağımızın dünya ölkələrinin bayraqları arasında dalğalanması arzusunun bu gün reallaşdığını vurğulayan İ.Pirməmmədov qeyd edib ki, ölkəmizin inkişafına xidmət edən hər kəs Azərbaycan Xalq Cümhuriyyətinin, onun qurucularının tarixi missiyasını davam etdirir.

Təhsil-tədqiqat-istehsalat üçlüyünün Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün "Strateji Yol Xəritələri"ndə əsas prinsip olduğunu diqqətə çatdıran İ.Pirməmmədov Cümhuriyyətin 100 illiyi ərəfəsində bu sahənin problemlərinin müzakirə olunması və lazımi mexanizmin yaradılması təşəbbüsünün vacib amil olduğunu bildirib. Konfransa cəlb olunan elmtutumlu və qabaqcıl istehsalat müəssisələrinin prosesin sürətləndirilməsində, həmçinin daha effektiv mexanizmin təşkilində mühüm rol oynadığını deyən prorektor qeyd edib ki, iqtisadiyyatın davamlı inkişafı üçün elm-təhsil-istehsalat əlaqələri vahid müstəvidə inkişaf etdirilməlidir.

### Alimlərin yaş tərkibi

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri Anar Kazımov ölkə alimlərinin yaş tərkibinə diqqət çəkib. Onun sözlərinə görə, doktoranturalarda elmi kadr potensialının hazırlığının 46 faizi Azərbaycan Milli Elmlər Akademiyasının payına düşürsə, bu potensialın 54 faizi ali təhsil müəssisələrində hazırlanır. Bununla yanaşı, ali təhsil müəssisələrində çalışan elmi kadr potensialının tərkibinə nəzər yetirdikdə, məlum olur ki, yaşı 61-dən yuxarı olan professor və elmlər doktorları 68.7 faiz, fəlsəfə doktorları 37.8 faiz təşkil edir. Bunu nəzərə alaraq, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" həyata keçirilib. Həmin proqram çərçivəsində 3558 gənc ölkə hüdudlarından kənarda təhsil alıb. Onların 63 faizi magistrant və doktorantlardır.

### "İxracyönümlü iqtisadiyyatı onların iştirakı ilə qura bilərik"

AMEA-nın Yüksək Texnologiyalar Parkının (YTP) direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev hər dövrdə Azərbaycanın öz ixtiraları, yenilikləri ilə fərqlənən, sadəcə ölkə deyil, dünya və bir vaxtlar ittifaq miqyasında tanınan alimlərinin olduğunu bildirib: "Ancaq təbii və insan resursları, elmi potensialı olan bir ölkə kimi hələ də texnologiyaların yaradıcısı deyil, istehlakçısı olaraq qalırıq". Onun sözlərinə görə, Azərbaycan alimləri öz ixtiralarını xaricdə təqdim edir. Bilik iqtisadiyyatının əsasını yaratmaq üçün ölkəmizdə belə alimlərin də fəaliyyətini koordinasiya etmək lazımdır: "İxracyönümlü iqtisadiyyatı onların iştirakı ilə qura bilərik".

V.Babayev "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin icrasında "Dördlü HELIX" modelinin tətbiqindən danışaraq deyib ki, bu model qaçılmazdır: "Qlobal çağırışlar və ciddi dəyişikliklər astanasındayıq. Elm, təhsil, sahibkarlıq və vətəndaş cəmiyyətinin nümayəndələri olaraq bu çağırışa hazır olmalıyıq".

### Problemlərin həlli məqsədi ilə təktezlikli şəbəkə qurulacaq

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Radio televiziya yayımı və peyk rabitəsi istehsalat birliyinin texniki direktoru, Əməkdar mühəndis Mikayıl Abbasov "Azərbaycanda çoxproqramlı rəqəmli televiziyanın tətbiqi"ndən danışarkən həm uğurlara, həm də problemlərə toxunub. Rəqəmli televiziyanın tətbiqinə Qafqazda ilk dəfə ölkəmizdə başlanılıb. Həmin vaxt hətta Rusiyada belə rəqəmli televiziya tətbiq edilmirdi. 2004-cü ildən başlanan prosesdə AzTU alimləri də iştirak edib. Aparılan təcrübi işlərin nəticəsində 2009-cu ildə ilk dəfə rəqəmli televiziyanın yayımına başlanılıb və ölkənin 35 faizi yayımla təmin olunub. Ancaq analoq televiziyadan qısa müddətdə rəqəmli qəbulediciyə keçirilməsi problem yaradıb. Buna baxmayaraq, proses vaxtında başa çatdırılıb. Hətta televiziya proqramlarının yayımı beynəlxalq şirkətlərə aid peyklər üzərindən deyil, Azərbaycanın birinci telekommunikasiya peyki olan "Azərspace" üzərinə keçirilib: "2013-cü ildə reallaşan bu uğur sayəsində nəinki Azərbaycan, qonşu ölkələrin televiziya və radio proqramlarının rəqəmli yayımı da "Azərspace-1" vasitəsilə həyata keçirilir. Gələn il ikinci telekommunikasiya peykinin orbitə buraxılmasından sonra 20-dən artıq xarici ölkə "Azərspace" peykinin imkanlarından istifadə edəcək və bu, radiotexnika sahəsinin inkişafına böyük təkan olacaq".

Natiq rəqəmli televiziyanın tətbiqində problemlərin qaldığını, ancaq onların həlli məqsədi ilə təktezlikli şəbəkənin qurulmasına başlanıldığını qeyd edib.

### Növbəti texnopark AzTU-da olmalıdır

AzTU-nun professoru, Əməkdar elm xadimi Həsən Hüseynov dünyada və Azərbaycanda mövcud olan texnoparklara diqqət çəkərək bildirib ki, ölkəmizdə növbəti texnopark AzTU bazasında yaradılmalıdır. Bunun üçün universitetin bina və istehsal sahələrinin olduğunu qeyd edən alim bu ali təhsil müəssisəsinin müəllim və tələbə heyətinin layihələrdə iştirak təcrübəsini vurğulayıb. Onun sözlərinə görə, yaradılacaq texnoparkın layihəsi, hətta əsasnaməsi belə hazırdır.

### Texnoparklar müştərək istifadə edilməlidir

İ.Pirməmmədov konfrans iştirakçılarına Azərbaycan Texniki Universitetində Xüsusi Texnika və Texnologiya Fakültəsi (XTTF) haqqında məlumat verib. Onun sözlərinə görə, 5 ixtisas üzrə hazırlıq aparılan bu fakültə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın ali təhsildə kadr hazırlığı istiqamətinin tələblərinə uyğun olaraq yaradılıb. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da ali təhsil müəssisələri üçün kampuslar və müvafiq texnoparkların yaradılmasının tövsiyə olunduğunu diqqətə çatdıran prorektor bu tövsiyələrə AzTU-da ciddi əməl edildiyini vurğulayıb: "Hazırlıq aparılan həmin 5 ixtisasın hər biri Müdafiə Sənayesi Nazirliyi üçün kadr hazırlayır. Həmin ixtisas üzrə təhsil alan tələbələr təcrübələrini orada keçirir, kurs işlərini, kurs layihələrini, hətta buraxılış işlərini həmin müəssisədə yerinə yetirirlər. Təhsilini tamamlayanlar həmin Nazirliyin müəssisələrində işlə təmin olunurlar".

İ.Pirməmmədov hazırkı durumda hər ali təhsil müəssisəsində texnoparkların yaradılmasının mümkün olmadığını qeyd edərək deyib ki, AMEA-nın və ali təhsil müəssisələrinin mövcud tədqiqat laboratoriyaları başqa təhsil müəssisələrinin də üzünə açıq olmalıdır. Kiçik də olsa artıq AzTU-da da texnopark yaradılıb.

İ.Pirməmmədov konfransın qarşısında daha bir problem də qaldırıb. AzTU-da 1 elmi mərkəz və 6 laboratoriya olduğunu vurğulayan prorektor universitetin alimlərinin patentləşdirilən ixtiralarının kommersiyalaşdırılmasındakı problemlərə toxunub. Bu istiqamətdə çətinliklər səbəbindən böyük elmi yeniliklər tətbiq edilmədən kağız üzərində qalır: "Bu da alimləri həvəsdən salır".

Daha sonra tədbirdə "Ali məktəblərin elmi-tədqiqat və innovasiya fəaliyyəti", "Texniki sistemlərin idarə olunmasında informasiya və telekommunikasiya texnologiyaları və modelləşdirmə", "Elm və təhsilin iqtisadi aspektləri", "Sənaye müəssisələrində innovativ texnologiyalar", "Energetikanın müasir vəziyyəti və inkişaf tendensiyaları" və "Elm və təhsildə sosial və humanitar tədqiqatlar" olmaqla 6 bölmə üzrə müzakirələr aparılıb. Aprelin 5-də konfrans işini yekunlaşdırıb.

# Təhsil İnstitutunda seminar

## Türkiyəli mütəxəssis təhsilin bir sıra istiqamətləri üzrə maraqlı mövzulardan söz açıb

Aprelin 4-də Azərbaycan Respublikasının Təhsil İnstitutunda (ARTİ) Türkiyənin təhsil mütəxəssisi, doktor Erdem Söylemezin semineri keçirilib. Öncə qonağı salamlayan ARTİ-nin direktor müavini, Elmi-Pedaqoji Mərkəzin direktoru Faiq Şahbazlı institutun fəaliyyəti barədə məlumat verib, Elmi-Pedaqoji Mərkəzin müəllimlərin elmi sahə ilə yanaşı praktik iş fəaliyyətlərinin inkişafı yönündə gördükləri uğurlu işlərdən söz açıb.

Dəvətə görə institut rəhbərliyinə və kollektivinə təşəkkürünü bildirən doktor Erdem Söylemez Azərbaycan təhsilinin inkişafa doğru irəliləməsində institutun fəaliyyətinə, orada çalışan alimlərə və digər əməkdaşlara uğurlar arzulayıb.



Sonra türkiyəli mütəxəssis müəllim və şagird arasında ünsiyyət, idarəetmə və liderlik, XXI əsr şagirdinin təhsilində müəllimin rolu, dərs prosesində vaxtın idarəolunması, qiymətləndirmə və digər istiqamətlər üzrə maraqlı mövzulardan ibarət olan seminarına başlayıb. Tədqimatla çıxış edən doktor Erdem Söylemez ən son təhsil nailiyyətlərini özündə əks etdirən beynəlxalq araşdırmalara dair hesabatların açıqlamalarından maraqlı məqamlara toxunub . Seminarın sonunda iştirakçılar mövzu ətrafında maraqlı müzakirələr və fikir mübadiləsi aparıblar. Məktəbdaxili təşkilatçılıqda bərabərlik və ədalət, idarəetmədə və ailədə şəxsi nümunələr, müsbət inkişafa doğru uğurun qazanılması yolları, öyrənməyə açıq olmaq, bildiklərini bölüşmək və əməkdaşlıq, qarşılıqlı hörmət və s. geniş müzakirə mövzusu olub, bu zaman yaranan suallar cavablandırılıb.

Seminarda ARTİ-nin rəhbərliyi və əməkdaşlar, müəllimlər, doktorantlar iştirak ediblər. Qeyd edək ki, seminar ARTİ-nin beynəlxalq Əməkdaşlıq şöbəsinin müdiri, Əməkdar müəllim Almaz Həsrətin təşəbbüsü ilə keçirilib.

Sonda EPM-in direktoru F.Şahbazlı ARTİ-nin rəhbərliyi və kollektivi adından Təhsil İnstitutu ilə qarşılıqlı əməkdaşlığın və davamlı görüşlərin keçirilməsinin vacibliyini vurğulayaraq, maraqlı və məzmunlu seminarına görə Erdem Söylemezə təşəkkür edib.

# "Azərbaycanı kəşf et: elmdən mədəniyyətə"

## ASA Oksford Universitetində növbəti tədbirinə hazırlaşır

**Oruc MUSTAFAYEV**

Yaşadığımız dövrdə dünya elmində baş verən inqilabi dəyişikliklərin, yeni innovasiyaların, elmi-texnoloji kəşflərin ətraflı öyrənilərək daha geniş, səmərəli tətbiqi mühüm əhəmiyyət kəsb etməkdədir.

Dünya elminin müasir trendlərinin öyrənilməsi, gənclərin elmə marağının artırılması, onların müxtəlif sahələrdə elmi tədqiqat işlərinə daha fəal cəlb edilməsi zərurətini nəzərə alan Azərbaycan Elm Assosiasiyası (Azerbaijan Science Association - ASA) yarandığı gündən ölkə auditoriyası qarşısında bir sıra seminarlar, multidisiplinar konfranslar keçirib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təqaüdçüləri olan bir qrup yenilikçi və təhsildə uğur əldə etmiş azərbaycanlı gənc tərəfindən yaradılan ASA növbəti uğurlu tədbirinə hazırlaşır. Budəfəki tədbirin ölkəmizdə deyil, dünyanın ən nüfuzlu elm, təhsil, tədqiqat mərkəzlərindən biri olan Böyük Britaniyanın məşhur Oksford Universitetində nəzərdə tutulması isə ASA-nın növbəti uğuru kimi diqqətəlayiqdir. Aprelin 29-da keçiriləcək "Azərbaycanı kəşf et: elmdən mədəniyyətə" adlı tədbir haqqında məlumatlar artıq Oksford Universitetinin rəsmi saytında *(www.ox.ac.uk/event/discover-azerbaijan-science-culture)* yerləşdirilib. Məlumatda tədbirin ümumi məqsədləri, çıxış edəcək qonaqlar, baş tutacaq təqdimatlar və eləcə də tədbirin vaxtı, yeri qeyd olunub.

ASA-nın həmsədri, Böyük Britaniyanın London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin magistrantı İnqilab Şahbazovdan aldığımız məlumata görə, forumda Oksford Universitetinin tələbələrinə və akademik heyətinə ölkəmiz, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması, dünya elminə böyük töhfələr vermiş azərbaycanlı elm xadimlərinin işləri haqqında məlumat veriləcək. Elmi hissə ilə yanaşı, mədəniyyət gecəsinin də təşkil ediləcəyi tədbirdə Böyük Britaniyada akademik fəaliyyət göstərən azərbaycanlılar, Durham Universitetinin professoru Nigar Həşimzadə, Kembric Universitetinin Molekulyar Biologiya Laboratoriyasında (MBL) qrup rəhbəri olan, professor Qərib Mürşüdov, Birminhem Universitetinin əməkdaşı doktor Gülarə Quliyeva çıxış edəcəklər. İştirakçılara azərbaycanlı alimlər haqqında kitabçalar paylanılacaq. Tədbir Oksford Universitetinin Mansfield Kollecində keçiriləcək.

Qeyd edək ki, Oksford Universitetinin tərkibində 38 kollec var və universitetə qəbul olan bütün tələbələr bu kolleclərdən birinin üzvü olur. ASA-nın həmsədri, hazırda Oksford Universitetində doktorantura təhsili alan Tərlan Süleymanov da məhz Mansfield Kollecinin üzvüdür.

Azərbaycanlı gənclərin dünyanın ən qədim elm ocağı olan Oksford Universitetində belə bir tədbir keçirməsi sevindirici və qürurverici haldır.

# ADNSU-nun bes ixtisası Avropa standartlarına uyğun sayılıb

Əvvəli səh.1

## İxtisasların akkreditə olunması tələbələrə təhsillərini asanlıqla Avropada davam etdirmə imkanı yaradır

Qeyd edək ki, FİBAA ali təhsilin akkreditasiyası və ekspertizası üzrə beynəlxalq agentlikdir. 1994-cü ildə Almaniya, İsveçrə və Avstriyanın aparıcı ticarət və sənaye şirkətlərinin təsis etdiyi FİBAA Avropa və dünyanın bir sıra ölkələrində 1900 təhsil proqramını akkreditasiyadan keçirib. FİBAA Ali təhsildə keyfiyyətin təminatı üzrə Avropa Assosiasiyasının - ENQA, Akkreditasiya üzrə Avropa Konsorsiumunun - ECA, Mərkəzi və Şərqi Avropa ölkələrinin ali təhsilində keyfiyyətin təminatı üzrə Agentliklər Şəbəkəsinin - CEENQA, Ali təhsildə keyfiyyətin təminatı üzrə Beynəlxalq agentliklər şəbəkəsinin - İNQAAHE, Avropa universitetləri Assosiasiyasının - EUA və digər qurumların üzvü, bəzisinin həmtəsisçisidir. Təhsil proqramlarının akkreditasiyası üzrə prosedurlar zamanı FİBAA akademik dairələrdə yüksək dəyərləndirilən ekspert qiymətləndirməsi (“peer review”) metodundan istifadə edir. Keyfiyyətin qiymətləndirilməsi kompetensiyalı və müstəqil beynəlxalq ekspertlər tərəfindən aparılır.

Akkreditasiyadan keçmək üçün xüsusi keyfiyyət meyarları və standartlar mövcuddur. Proses zamanı akkreditasiya komissiyası təhsil müəssisəsinin maddi-texniki və normativ-hüquqi sənədlər bazası, professor-müəllim heyətinin tərkibi, tələbələrin biliyinin qiymətləndirilməsi və digər meyarlar əsasında faktları yerində araşdırır, təhsil müəssisəsinin, onun hazırladığı kadrların dövlət təhsil standartlarına uyğun olub-olmamasını müəyyənləşdirir və həmin ixtisas üzrə kadr hazırlığının davamlılığına icazə verir.

İxtisasların akkreditasiya tələblərinə uyğun tədris planları tərtib olunaraq hər fənn üçün modullar hazırlanıb, müvafiq dərsliklər çap olunub, laboratoriyalar lazımi avadanlıqla təchiz edilib, keyfiyyətə təminat və attestasiya mərkəzləri yaradılıb. Müəllimlər üçün seminarlar, treninqlər keçirilib, layihə iştirakçıları Avropa universitetlərində təcrübə keçiblər. Ekspertlər mütəmadi olaraq ADNSU-da olacaq akkreditasiya prosesi ilə bağlı tövsiyələrini veriblər. Beləliklə, bu layihə çərçivəsində yalnız universitetin şəraitinin deyil, müəllim-professor heyətinin də müasir tələblərə cavab verməsi üçün bir sıra işlər aparılıb. Akkreditasiyadan keçəcək ixtisaslara uyğun hazırlanan yeni proqramlar həmin ixtisasın müəllimlərinə tədris olunub və bu istiqamətdə müxtəlif təlimlər keçirilib.

Bu görüşlərdə müəllimlərin, işçilərin kvalifikasiyalarının beynəlxalq standartlara uyğunluğunu, tələbələrin ingilis dilində fikirlərini sərbəst ifadə etmələri, məntiqi danışıqlarını, bilik və bacarıqları, dünyagörüşü müsahibə nəticəsində yoxlanıb, eyni zamanda tələbələrin ümumi müvəffəqiyyət faizi də nəzərə alınıb.

İxtisasların akkreditə olunması tələbələrə təhsillərini asanlıqla Avropada davam etdirmə imkanı yaradır. Bu, təhsillə yanaşı gələcəkdə öz ixtisasları üzrə beynəlxalq şirkətlərdə işləmək istəyən tələbələr üçün də bu böyük fürsət olacaq. Çünki onların ixtisasları xaricdə daha rahat və problemsiz tanınacaq.

FİBAA nümayəndələri universitetin BA proqramlarının ilkin akkreditasiyası üçün 2017-ci il 24-26 oktyabr tarixlərində ADNSU-da olublar. 7 nəfərlik nümayəndə heyəti bu müddət ərzində onlara təqdim olunmuş tədris materialları, imtahan çıxışları, imtahanlar və yekun tezislər, qiymətləndirmə nəticələri, hər bir təhsil proqramı üçün nümunə tədqiqatları, təhsil proqramlarının məlumat broşuraları, illik fəaliyyət hesabatları, tələbələr və digər sənədlərlə tanış olub, yoxlamalar aparıb və həmçinin Corciya və Zigen universitetləri ilə əməkdaşlıq edən BA proqram rəhbərləri ilə bir sıra görüşlər və müzakirələr keçiriblər.

Qeyd edək ki, daha əvvəl ADNSU-da tədris olunan üç ixtisas - bakalavr səviyyəsində “Proseslərin avtomatlaşdırılması mühəndisliyi” və “Elektroenergetika mühəndisliyi”, magistratura səviyyəsində isə “Enerji menecmenti” (neft sənayesində) ixtisasları Avropa standartlarına uyğun ixtisaslar olaraq akkreditasiya olunmuşdu.

ADNSU-da bu istiqamətdə işlər və gələcəkdə daha çox ixtisasın akkreditasiya olunması üçün hazırlıqlar davam edir.

# AzTU-nun alimləri Almaniyada işgüzar səfərdə olub

## AzTU və BTU-da maşınqayırma və metallurgiya sahələri üzrə aparılan elmi-tədqiqat işlərinin geniş təqdimatı keçirilib



Azərbaycan Texniki Universitetinin “Maşınqayırma” fakültəsinin dekanı, dosent Ərəstun Məmmədov, “Maşınqayırma texnologiyası” kafedrasının müdiri, professor Nizami Yusubov, həmin kafedranın professorları Vaqif Mövlazadə və Nəriman Rəsulov, “Metallurgiya və metalşünaslıq” kafedrasının müdiri, professor Sübhan Namazov, “Xüsusi texnologiyalar və avadanlıqlar” kafedrasının dosenti Fariz Əmirov bu günlərdə Almaniyanın Brandenburq Texniki Universitetində işgüzar səfərdə olublar.

AzTU-nun nümayəndə heyəti Brandenburq Texniki Universitetinin tədqiqat və elmi inkişaf üzrə vitse-prezidenti, professor X.Hipp, həmçinin tədris və təhsil üzrə vitse-prezidenti, professor M.Koziol tərəfindən qəbul edilib.

Görüş zamanı AzTU ilə BTU arasında maşınqayırma və metallurgiya sahələri üzrə əməkdaşlığın inkişaf perspektivləri və iş planı, ikili diplom verilməsi ilə nəticələnəcək birgə bakalavr və ya magistr hazırlığı üçün tədris planının işlənməsi müzakirə edilib. Danışıqlarda təhsilin doktorantura səviyyəsində birgə mütəxəssislərin hazırlanması, AzTU, BTU, həmçinin digər partnyor universitetlərin də iştirakı ilə birgə elmi-texniki konfransların, tədris-metodiki seminarların və məktəblərinin keçirilməsi məsələlərinin vacibliyi xüsusilə vurğulanıb.

Səfər zamanı AzTU və BTU-da maşınqayırma və metallurgiya sahələri üzrə aparılan elmi-tədqiqat işlərinin geniş təqdimatı keçirilib, eyni zamanda nümayəndə heyətinin üzvləri universitetin müxtəlif kafedralarının zəngin laboratoriya bazaları, TAKRAF maşınqayırma zavodu, daş kömür mədənində istifadə olunan, uzunluğu 500 m olan və dünyanın ən iri hərəkət edən F60 qurğusu ilə tanış olublar.

AzTU nümayəndə heyətinin təşəbbüsü ilə “Maşın mühəndisliyi” ixtisasının rəhbəri, “Metalkəsən dəzgahlar” kafedrasının müdiri, professor S.Simonun dəstəyi və təşkilatçılığı ilə Xemnitç Texniki Universitetinin “Metalkəsən dəzgahlar və istehsal prosesləri” və Drezden Texniki Universitetinin “Metalkəsən dəzgahlar və idarəetmə texnikası” İnstitutlarına bir günlük tanışlıq turları təşkil edilib.

Xemnitç TU-da “Metalkəsən dəzgahlar və istehsal prosesləri” İnstitutunun icraçı direktoru, professor Andreas Hirş və Drezden TU-da “Metalkəsən dəzgahlar və idarəetmə texnikası” İnstitutunun rəhbəri, professor Steffen Ihlenfeldtin rəhbərliyi ilə AzTU-nun nümayəndə heyəti üçün kafedralarda aparılan elmi-tədqiqat işlərinin geniş təqdimatı keçirilib, həmçinin onları kafedraların bir sıra laboratoriya bazaları ilə tanış ediblər.

Görüşlər zamanı AzTU ilə Xemnitç və Drezden TU arasında əməkdaşlığın maşınqayırma və metallurgiya sahələri üzrə inkişaf perspektivləri geniş müzakirə edilib.

# Bakı Slavyan Universiteti ilə Ostrava Universiteti arasında müqavilə imzalanıb

## İki ali məktəb mübadilə üzrə doktorant hazırlayacaq

Aprelin 3-də Bakı Slavyan Universiteti ilə Çexiya Respublikasının Ostrava Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Tədbiri açan BSU-nun rektoru, professor Nurlana Əliyeva Bakı Slavyan Universitetinin slavyan ölkələri ilə sıx əməkdaşlıq etdiyini bildirib. O, bu ölkələr sırasında Çexiyanın xüsusi yeri olduğunu qeyd edib. N.Əliyeva ERASMUS PLUS çərçivəsində hələ 2012-ci ildə Ostrava Universitetinin fəlsəfə fakültəsi ilə BSU arasında müqavilə imzalandığını vurğulayıb. Həmin müqaviləyə əsasən müəllim-tələbə mübadiləsi, birgə elmi nəşrlərin hazırlanması və bir sıra digər layihələr həyata keçirilib. Yeni müqavilənin isə artıq fakültə ilə universitet arasında deyil, universitetlər arasında imzalandığını bildirən rektor bu müqavilə əsasında BSU və Ostrava universitetlərinin mübadilə üzrə doktorant hazırlanmasına başlayacaqlarını deyib.

Ostrava Universitetinin professoru, “Slavistika” kafedrasının doktoru, fəlsəfə fakültəsinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Vityezlav Vilimek isə çıxışında qeyd edib ki, təmsil etdiyi universitet gənc olmasına baxmayaraq artıq dünyanın bir çox tanınmış ali məktəbləri ilə yaxın əlaqələr qurub. Qonaq Bakı Slavyan Universiteti tərəfindən Çexiyada Azərbaycanşünaslıq Mərkəzinin açılması barədə qərardan məmnun olduğunu söyləyib. O, BSU müəllimlərinin Ostrava Universitetində Azərbaycan dilini tədris etməsinin ölkələrimiz arasında münasibətlərdə yeni mərhələ təşkil edəcəyini vurğulayıb. V.Vilmek onu da bildirib ki, Bakıda olacağı bir həftə ərzində treninqlər keçirəcək.

Qonaq daha sonra İqrar Əliyevin Çexiyada çap olunmuş “Əbədi odlar yurdu” və “Ostrava Universiteti-25” adlı kitabı BSU-ya bağışlayıb.

BSU rəhbərliyi isə Bakı Slavyan Universitetinin 70 illiyinə həsr olunmuş kitabı qonağa hədiyyə edib.

# UNEC Siegen Universiteti ilə birgə yaz məktəbinə start verib

## Magistrlər biznes planlarının nəticələrinə əsasən qiymətləndiriləcək



UNEC-də “EE-KEY-AZ Sahibkarlıq təhsili: Azərbaycanda iş yerlərinin yaradılması və məşğulluğun əsas amili kimi” layihəsi çərçivəsində təşkil olunan Yaz Məktəbinə start verilib.

Beş gün davam edəcək Yaz Məktəbi “Sahibkarlıq və KOM: Biznesin əsasları” mövzusunda olacaq. Yaz məktəbində dərslər Almaniyanın Siegen Universitetinin professoru Petra Muqun (Petra Moog) rəhbərliyilə UNEC və Siegen Universitetinin magistr tələbələrinin birgə iştirakı ilə aparılır. Mühazirəçi kimi Almaniyadan Berlin İqtisad və Hüquq Məktəbinin Sahibkarlıq, KOS və Ailə Biznesi İnstitutunun direktoru, professor Birgit Felden də dəvət olunub. Yaz Məktəbində həmçinin Azərbaycanın biznes qurumlarının rəhbər və mütəxəssisləri iştirakçılarla öz təcrübələrini bölüşəcək, ölkə iqtisadiyyatındakı son tendensiyalar haqqında mühazirələr oxuyacaqlar. Yaz məktəbi ərzində iştirakçıları ölkənin istehsal müəssisələrinin fəaliyyəti ilə tanış etmək məqsədilə ekskursiyalar təşkil olunacaq. Sonda magistrlər hazırladıqları biznes planların nəticələrinə əsasən qiymətləndiriləcək, kreditlər əldə edəcəklər.

Qeyd edək ki, UNEC ilə Almaniyanın Siegen Universitetinin birgə hazırladığı “EE-KEY-AZ Sahibkarlıq təhsili: Azərbaycanda iş yerlərinin yaradılması və məşğulluğun əsas amili kimi” (“Project EE-KEY-AZ: Entrepreneurship Education: A Key to Job Creation and Employability in Azerbaijan”) layihəsi DAAD tərəfindən maliyyələşdirilməsi üçün qəbul olunub. Layihənin müddəti 4 ildir.

# SDU tələbələri arasında sorğu keçirildi

Sumqayıt Dövlət Universiteti Avropa Komissiyası tərəfindən bu il qalib olmuş beynəlxalq ERASMUS+ layihəsinin tərəfdaşı qismində çıxış edir. Layihənin xarici partnyorları Litva Sosial Elmlər Kolleci, İspaniyanın Alikante Universiteti, İsveç Texniki Universiteti və Birləşmiş Krallıq Universitetidir. SDU-nun Bakı Biznes Universiteti ilə tərəfdaşlıq etdiyi bu nüfuzlu layihə Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişafını nəzərdə tutur. Sözügedən ERASMUS+ layihəsi çərçivəsində imzalanmış müqavilənin əsas məqsədi Azərbaycan ali təhsil müəssisələrində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişafıdır.

Layihənin uğurla həyata keçirilməsi üçün Sumqayıt Dövlət Universitetinin humanitar işlər üzrə prorektoru, dosent Ramiz Hüseynovun rəhbərliyi və layihə heyətinin üzvləri, Menecment kafedrasının müdiri, dosent Qalib Hüseynov, baş mühasibin müavini Rəvan Rzayev, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Samirə Məmmədova və Keyfiyyətə Nəzarət və Qiymətləndirmə bölməsinin əməkdaşı Sədaqət Fətullayevanın nəzarəti ilə aprelin 2-də SDU-nun tələbə heyəti arasında sosioloji sorğu keçirildi. Qeyd etmək lazımdır ki, sorğu layihənin iş planına əsasən aparıldı.

43 sualdan ibarət sorğuya universitetin 7 fakültəsindən, təhsilin bakalavr, magistratura və doktorantura pilləsində təhsil alan magistrant və doktorantlar cəlb olundu. Sorğu hər bir fakültənin kompüterlərlə təchiz olunmuş auditoriyalarında layihənin heyət üzvlərinin müşayiəti ilə keçirildi. Sorğuda tələbələrin iştirakı tamamilə obyektiv, demokratik və şəffaf prinsiplər əsasında aparıldı.

# 11 universitet virtual mübadilə proqramına qoşuldu

**Oruc MUSTAFAYEV**

## Proqram 18 onlayn-kurs təklif edir

Avropa, Asiya və Avstraliyanın 11 universiteti virtual mübadilə proqramına qoşulub. Bu universitetlərin tələbələri proqramda iştirak edən digər istənilən ali məktəblərin onlayn-kurslarını keçə və öz təhsil proqramında nəticələrini rəsmiləşdirə biləcəklər.

Hazırda proqram 18 onlayn-kurs təklif edir. Onların əksəriyyəti Niderlandın Delft Texnologiya Universiteti tərəfindən hazırlanıb və edX platformasında yerləşdirilib. Virtual mübadilənin ideyası ondan ibarətdir ki, universitetlər öz kurslarının arsenalını genişləndirir, tələbələr isə yaşadıqları yeri tərk etmədən xarici universitetdə oxuya bilərlər. Delft Texnologiya Universitetinin vitse-prezidenti Anka Madler qeyd edir ki, hər ali məktəbin tərəfdaş olduğu universitetin təklif etdiyi kursların keyfiyyətinə etibar etməsi proqram üçün xüsusi əhəmiyyət daşıyır.

# Karyera qurmaq yolunda ilk addımlar



**Nadir KƏRİMOV,**
*AzMİU-nun Təcrübə və karyera şöbəsinin müdiri*

## AzMİU tələbələrinin istehsalat təcrübəsi uğurla davam edir

2017-2018-ci tədris ilində ilk dəfə bakalavr səviyyəsində universitetlərin sonuncu kursunda təhsil alan tələbələr Təhsil Nazirliyinin baza təhsil standartına uyğun olaraq tədris ilinin ikinci semestri boyu 14 həftəlik istehsalat təcrübəsinə cəlb olunub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) bakalavr səviyyəsində 22 ixtisas üzrə təhsil alan sonuncu kurs tələbələri respublikamızın ən aparıcı müəssisələrində, şirkətlərində təcrübə keçirlər.

AzMİU rektoru, professor Gülçöhrə Məmmədovanın tapşırığı ilə universitetin tədris işləri üzrə prorektoru Akif Qasımovla birgə bu həftə tələbələrimizin təcrübə keçdiyi obyektlərə baş çəkib, onların istehsalat təcrübəsindəki fəaliyyətləri ilə maraqlandıq. "Azəriqaz" İstehsalat Birliyində təcrübə keçən 12 tələbəmiz Birliyin İdarəetmə Aparatının əsaslı tikinti şöbəsində, qalan 12 nəfəri isə Layihə Konstruktor Bürosunda təcrübə keçir. Görüşlərdə tələbələrimiz onlar üçün yaradılan şəraitdən, real layihələrə cəlb olunduqlarından danışıblar. Birliyin əsaslı tikinti üzrə direktorunun müavini Ramil İsgəndərov tələbələrin ilk gündən komanda işi ilə yaxından tanış olduqlarını, ən son avadanlıq və texnologiyalardan istifadə etməklə müəssisənin yüksək ixtisaslı və təcrübəli mütəxəssisləri ilə birlikdə müxtəlif layihələr və əməliyyatlar həyata keçirdiklərini vurğulayıb. O, istehsalat təcrübəsi keçən tələbələrin Azərbaycanın şəhər və rayonlarının qazlaşdırılması layihələrində birgə iş fəaliyyətinə cəlb olunaraq praktik biliklərə yiyələndiklərinə də toxunub.

Birliyin nümayəndələri ilə birgə müəssisəni gəzib, tələbələrin iş prosesi ilə yaxından tanış olduq. Görüş zamanı o da məlum oldu ki, ARDNŞ-in "İşçilərin əməyinin ödənilməsi haqqında" Əsasnaməsinə əsasən, tələbələrimiz əməkhaqqı da alacaqlar.

AzMİU-nun su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsində neft-qaz mühəndisliyi ixtisasında oxuyan tələbələrimiz SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun Neft-qaz mədən qurğularının diaqnostikası, Dəniz estakadaları şöbələrində təcrübə keçirlər. Görüş zamanı müəyyən olunub ki, təcrübə keçən tələbələr müəssisənin yüksək ixtisaslı əməkdaşları ilə birgə Xəzər dənizində tikilən estakadaların və platformaların qurulması ilə bağlı böyük layihələrə cəlb edilib, iş prosesi ilə yaxından tanış olublar.

"Baku Business Factory", "Kercom" MMC, "Sənaye Avtomatika" İstehsalat Birliyində istehsalat təcrübəsi keçən " Marketinq" və "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisaslarının tələbələri təcrübənin məhsuldar keçməsi üçün müəssisələrdə yaradılan şəraitdən məmnunluqlarını ifadə ediblər.

Azərbaycan İnşaat və Memarlıq Elmi - Tədqiqat və "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunda təcrübə keçən tələbələrimizin də istehsalat təcrübəsi uğurla davam edir. Azərbaycan İnşaat və Memarlıq Elmi - Tədqiqat İnstitutunda universitetin 38 tələbəsi istehsalat təcrübəsinə cəlb olunub. Onlardan 24 nəfər inşaat, 11 nəfər tikinti-iqtisad fakültələrinin tələbələridir. 1 nəfər isə memarlıq ixtisası üzrə təhsil alan əcnəbi tələbədir. Tikinti-iqtisad fakültəsinin bir qrup tələbəsi isə Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsində təcrübə keçir. Memarlıq fakültəsinin 11, inşaat fakültəsinin 6 tələbəsi isə hazırda "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunda təcrübəyə qatılıb. Memarlıq fakültəsinin dekanı Zahidə Məmmədova müəssisənin fəaliyyəti ilə yaxından tanış olub, tələbələrimizə yaradılan şəraitlə maraqlanıb, onların istehsalat təcrübəsi gündəliyinə baxış keçirib, müvafiq məsləhətlər verib.

İnşaat fakültəsinin tələbələrinin istehsalat təcrübəsi müvafiq plana uyğun olaraq ARCHİCO MMC-nin tikinti obyektlərində (Memarların yaşayış binası, Bakı Zooparkı, yaşayış binasının üzlənməsi) həyata keçirilir. İnşaat mühəndisliyi ixtisasında oxuyan 30 tələbəmiz adıçəkilən şirkətin həyata keçirdiyi layihələrdə iş prosesinə cəlb olunaraq nəzəri biliklərini təcrübədə möhkəmləndirir. İnşaat fakültəsinin inşaat konstruksiyaları kafedrasının müdiri Muxlis Hacıyev bildirib ki, təcrübə müddətində tələbələr tədrisdə, dərsdə qazandıqları bilikləri iş prosesində tətbiq etməyi öyrənir, eyni zamanda gələcək karyeralarını qurmaq yolunda ilk addımlarını atırlar. M.Hacıyev onu da vurğulayıb ki, bu müəssisə tələbələrə gördükləri işin müqabilində əməkhaqqı da ödəyir. Belə ki, günortaya qədər çalışan tələbələr 200, günün ikinci yarısına qədər işləyənlər isə 400 manat əməkhaqqı alacaq.

As İnşaat MMC və As İnşaat-N MMC-nin beton zavodlarında təcrübə keçən inşaat- texnologiya fakültəsinin bir qrup tələbəsi istehsalat təcrübələrinin səmərəli təşkil olunduğunu, dəmir-beton məmulatlarının istehsal prosesində iştirak və nəzarət etdiklərini, bu zaman ixtisasları ilə bağlı daha çox bilik əldə etdiklərini vurğulayıblar.

Ümumilikdə yoxlama keçirdiyimiz obyektlərdə istehsalat təcrübəsi keçən tələbələrimiz üçün müəssisə rəhbərlərinin yaxşı şərait yaratmasının şahidi olduq. Görünür, artıq mütəxəssis hazırlığında birgə iştirakın vacibliyini dərk edən müəssisə rəhbərləri bu məsələyə xüsusi diqqət yetirirlər.

# Tədris ilinin sonunadək görüləcək işlər müzakirə olunub

## GDU öz inkişafının yeni mərhələsinə qədəm qoyacaq



Aprelin 3-də Gəncə Dövlət Universitetində tədris prosesinin vəziyyəti və 2017-2018-ci tədris ilinin sonunadək ali təhsil müəssisəsinin kollektivi qarşısında duran vəzifələrə dair iclas keçirilib.

Əvvəlcə tədris korpusları üzrə tədrisin keyfiyyətinə nəzarət qrupu rəhbərlərinin və müvafiq monitorinq komissiyalarının hesabatları dinlənilib.

Sonra komissiyalar tərəfindən "açıq dərs"ləri dinlənilən gənc müəllimlərin ümumi qiymətləndirilməsi diqqətə çatdırılıb. Bildirilib ki, tərkibi fənlər üzrə ixtisaslı professor-müəllimlərdən, pedaqoq, psixoloq və tədrisdə texniki vasitələrin tədbiqi üzrə mütəxəssislərdən ibarət yaradılan komissiya üzvləri tərəfindən gənc müəllimlərin "açıq dərs"ləri dinlənilib, kafedralarda müvafiq təhlillər və qiymətləndirmələr aparılıb. Aparılan mühazirə, seminar və laborator məşğələlərinin təqdimatında, eləcə də tədris prosesində interaktiv metodlardan və müasir təhsil texnologiyalarının tətbiqindən geniş istifadəyə nail olan müəllimlərin dərsləri yüksək qiymətləndirilib.

Sonra universitetin rektoru, professor Yusif Yusibov 2017-2018-ci tədris ilinin sonunadək görüləcək işlər və qarşıda duran vəzifələrə dair çıxış edib.

Rektor qeyd edib ki, təhsildə keyfiyyətin əldə olunması üçün texniki heyətin optimallaşdırılması prosesinə başlanılacaq. Prosesin tətbiqində bilikli, bacarıqlı, müasir metod və üsulların tətbiqinə əsas vasitə kimi baxan texniki heyətin formalaşdırılması üçün gənc kadrlar işə cəlb ediləcək.

Son illərdə Gəncə Dövlət Universitetinin həm beynəlxalq əlaqələrinin, həm də respublika daxilində bir çox universitet, peşə təhsili müəssisələri, orta məktəblər, eləcə də istehsal və qeyri-istehsal sahələri ilə əlaqələrinin genişləndiyini bildirən Yusif Yusibov vurğulayıb ki, qarşılıqlı, ikitərəfli faydalı əməkdaşlığa əsaslanan bu cür əlaqələr bundan sonra da davam etdiriləcək.

Qeyd edilib ki, baza məktəbləri ilə əlaqələr genişləndirilməklə yanaşı yeni məktəblərlə əməkdaşlığa başlanılacaq. Yaxın vaxtlarda isə universitetin yalnız Gəncə şəhərindəki deyil, ətraf rayonların məktəbləri ilə də əlaqələri qurulacaq.

Yuxarı sinif şagirdlərinin düzgün ixtisas seçimi edə bilməsi üçün rayon məktəblərində universitetin professor-müəllim heyəti, xüsusən təcrübə və karyera şöbəsi tərəfindən təbliğat işinə başlanılacaq, məktəb məzunları ilə görüşlər keçiriləcək. Şəhər və rayon məktəblərinin universitetin ayrı-ayrı kafedraları ilə əlaqələri qurulacaq, məktəblərdə nümunəvi dərslər və pedaqoji təcrübə dərsləri, həmçinin fənn olimpiadaları təşkil olunacaq. Olimpiadalarda yüksək nəticə göstərən şagirdlər universitetin professor-müəllimləri ilə birgə laboratoriyalarda elmi tədqiqat işlərinə cəlb ediləcək.

Universitet-məktəb əlaqələrinin qurulması, eləcə də tələbələrin dərsdənkənar asudə vaxtlarının səmərəli təşkili məqsədilə Tələbə Gənclər Təşkilatına və müvafiq təşkilatlara tapşırıqlar verilib.

Universitetdə infrastrukturun yenilənməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı görülən işlər barəsində məlumat verən rektor Yusif Yusibov bildirib ki, artıq təmir-tikinti və yenidənqurma işləri başa çatmış 5-ci tədris korpusunun avadanlıqlarla və tədris vasitələri ilə təchizinə başlanılıb.

"Beşinci tədris korpusunun istifadəyə verilməsi ilə Gəncə Dövlət Universiteti öz inkişafının yeni mərhələsinə qədəm qoyacaq. Bu tədris korpusunda yaradılan şərait Prezident İlham Əliyev tərəfindən respublikamızda təhsilə, onun hərtərəfli inkişafına yaradılan şəraitin əsas göstəricilərindən biri olacaq. Çünki həmin korpusda yaradılan müasir auditoriyalar, fənn kabinetləri, müasir kitabxana, oxu və iclas zalı, eyni zamanda orada fəaliyyət göstərəcək "Aleksandr Düma adına Mərkəz", "Əlilliyi olan tələbələr üçün mərkəz", "Tələbə Ombudsman Mərkəzi" və bir sıra beynəlxalq təhsil layihələrinin icrası üçün nəzərdə tutulan mərkəz Gəncə Dövlət Universitetindəki təhsili Avropanın qabaqcıl universitetlərində yaradılan tədris mühiti ilə eyni səviyyəyə yüksəldəcək. Binanın istismara verilməsi həm də respublikamızın qərb bölgəsinin ən böyük ali təhsil müəssisəsi kimi pedaqoji kadrların hazırlanmasında uzunillik zəngin tarixi ənənəyə malik olan, bu il isə 80 illik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşan Gəncə Dövlət Universitetinin professor-müəllim və tələbə heyəti üçün böyük töhfə olacaq", - deyə rektor Y.Yusibov qeyd edib.

# Kolumbiya Universitetinin professoru BMU-da olub

## Amerikalı mütəxəssis universitetdə "Təhsil və sosial mobillik" mövzusunda seminar keçirib

Kolumbiya Universitetinin professoru Amra Sabic-El Rayess Bakı Mühəndislik Universitetində olub. Universitetin rektoru, professor Havar Məmmədov qonağa BMU haqqında ətraflı məlumat verib. Bildirib ki, universitet tam elektronlaşdırılıb. Burada yerli tələbələrlə yanaşı Peru, İndoneziya, Çin və Rusiya kimi bir çox xarici ölkələrdən tələbələr təhsil alır. Universitetdə fəaliyyət göstərən texnoparkın vasitəsi ilə Silikon Vadisindən mütəxəssislər dəvət edilərək iki günlük seminar keçirilib. Məqsəd startap layihələr həyata keçirərək sahibkar universitetə çevrilməkdir. Rektor bu istiqamətdə Kolumbiya Universiteti ilə əməkdaşlıq etməyə hazır olduqlarını bildirib.

Professor Amra Sabic-El Rayess səmimi qəbula görə təşəkkür edərək, tədqiqat sahəsi barədə məlumat verib. Qeyd edib ki, əsasən təhsil iqtisadiyyatı sahəsində tədqiqat aparır və dünyanın bir cox ölkəsindən tələbələri var. Ən fəal tələbəsinin isə azərbaycanlı olması onun bu ölkəyə olan marağını daha da artırıb. İndiyədək dünyada bir çox layihələr həyata keçirdiyini vurğulayan professor növbəti layihəsini Çində həyata keçirəcəyini, eləcə də Azərbaycan təhsili üçün üzərinə düşən işi yerinə yetirməyə hazır olduğunu qeyd edib.

Görüşdən sonra professor Amra Sabic-El Rayessin təqdimatında "Təhsil və sosial mobillik" adlı seminar keçirilib.

ABŞ-ın Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi proqram çərçivəsində keçirilən seminarda universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Qeyd edək ki, Amra Sabic-El Rayess siyasi-iqtisadi və sosial mövzularda tədqiqatlar aparır. Onun Hindistan və Çin kimi ölkələrdə peşəkar xidmətləri mövcuddur. Xanım El Rayessin tədqiqat maraqları və mövzuları çox müxtəlifdir. O, təhsilin iqtisadi inkişafa təsiri, qadınların iqtisadiyyata töhfəsi, qeyri-mühafizəkar qrupların formal və qeyri-formal təhsilə təsiri və sosial dəyərlərdəki dəyişiklikləri araşdırır.

# ADU-da "Azərbaycan-Çin təhlükəsizlik əməkdaşlığı" mövzusunda elmi seminar

## Tədbir Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 99-cu ildönümünə həsr olunub

Martın 29-da Azərbaycan Dillər Universiteti (ADU) nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunda Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 99-cu ildönümünə həsr olunan "Azərbaycan-Çin təhlükəsizlik əməkdaşlığı" mövzusunda elmi seminar keçirilib.

Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, ölkəmizdə sabitliyin və təhlükəsizliyin təmin edilməsi istiqamətində gördüyü böyük işlərdən bəhs edib. Böyük İpək Yolunun dirçəldilməsində Azərbaycanın geostrateji rolundan söz açan R.Abbasov Azərbaycan-Çin əməkdaşlığının Avro-Asiya nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi rol oynadığını vurğulayıb. O, Prezident İlham Əliyevin Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi, Kommunist Partiyası Siyasi Şurasının üzvü, Mərkəzi Komitəsinin siyasi və hüquqi məsələlər komissiyasının katibi - Təhlükəsizlik Şurasının katibi Menq Jianzun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə terrorizm, ekstremizm və separatizmə qarşı mübarizə sahəsində Azərbaycanla Çin arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladığını xatırladıb. R.Abbasov Çin və Azərbaycan arasında transmilli iqtisadi cinayətlərə, kibercinayətkarlığa qarşı mübarizə, Böyük İpək Yolu boyunca təhlükəsizliyin təmin olunmasından danışıb.

Seminarda Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasının professoru Cəlal Qasımov "Azərbaycan təhlükəsizliyi orqanlarının keçdiyi tarixi inkişaf yolu" adlı təqdimatla çıxış edib.

Çinin Azərbaycandakı səfirliyinin hərbi attaşesi Çan Cunqo Çinin milli təhlükəsizliyinin regional və beynəlxalq səviyyədə təmin edilməsi, milli maraqları və prioritetləri barədə danışıb.

Sonda qonaqlara Azərbaycan və Çin dillərində hazırlanan, 2003-2017-ci illərdə Azərbaycan və Çin arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı istiqamətində Prezident İlham Əliyevin çoxplanlı fəaliyyətlərini əks etdirən "Azərbaycan-Çin: diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümü" adlı elektron kitab təqdim olunub.

# “Uşaqlar böyüklər üçün ən yaxşı müəllimlərdir”

**Oruc MUSTAFAYEV**

Məlum olduğu kimi, martın 23-25 tarixlərində Bakıda “Ailə insan mədəniyyətinin beşiyidir” mövzusunda 3 günlük Pedaqoji oxular keçirilib. Ölkəmizin təhsil həyatında böyük maraqla qarşılanan oxuların təşəbbüskarı və müəllifi müasir humanist pedaqogikanın banisi, psixologiya elmləri doktoru, professor, Rusiya Təhsil Akademiyasının akademiki, Beynəlxalq Humanist Pedaqogika Assosiasiyasının prezidenti, yazıçı Şalva Aleksandroviç Amonaşvilidir. Konfransın sonuncu günündə akademik Şalva Amonaşvili “Azərbaycan müəllimi” qəzetinə müsahibə verdi. Akademik ilk növbədə 3 günlük oxularla bağlı dərin təəssüratlarını bizimlə bölüşdü.

## *Akademik Şalva Amonaşvili:* “Məktəb milli ruhun inkişafına xidmət edən vasitə olmalıdır”



### “Oxuların hər anının zərrəcikləri ürəklərdə uzun müddət işıq saçacaq”

- Bakıda Novruz bayramına təsadüf edən oxularla bağlı təəssüratlarımı sözlə ifadə etmək çətindir. Bunu oxularda iştirak etmək üçün digər ölkələrdən gələn iştirakçılar da deyə bilər. Oxuların hər bir günü hələ uzun müddət xatirələrdən silinməyəcək. Sayca 17-ci dəfə keçirilən oxuların hər anının zərrəcikləri ürəklərdə uzun müddət işıq saçacaq. Mən tədbirin yüksək səviyyədə təşkili üçün bütün təşkilatçılara dərin minnətdarlığımı çatdırmaq istəyirəm. İlk növbədə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorluğuna, ADPU nəzdində Pedaqoji Kollecin rəhbərliyinə, Respublika Himanist Pedaqogika Mərkəzinə, oxuların keçirildiyi günlərdə bizə dəstək olmuş bütün insanlara dərin təşəkkürlərimi çatdırıram. Onların səyləri olmadan oxuları bu cür yüksək səviyyədə keçirmək mümkün olmazdı. ADPU-nun müvafiq şöbələrinin əməkdaşları oxuların uğurla keçməsində böyük fəallıq nümayiş etdirdilər. Deyərdim ki, onlar bu işin öhdəsindən məharətlə gəldilər. Tədbirin bütün detalları, qonaqların qəbulu, iclasın keçirildiyi zal, texniki təchizat, oxuların keçirilmə prosesinin özü və digər məqamlar hərtərəflü düşünülmüşdü. Bu, əsl bayram idi.

### Əgər ailədə dəyərlər yoxdursa...

*- XVII Pedaqoji oxular çox maraqlı mövzuya həsr olunmuşdu - “Ailə insan mədəniyyətinin beşiyidir”. Dinlədiyimiz bütün çıxışlardan belə qənaətə gəlmək olar ki, ailə dəyərləri mövzusu artıq humanist pedaqogikanın gündəmində əsas plana keçir...*

- Düz buyurursunuz. Bu, artıq bizim sizinlə birgə yaşadığımız dünyanın reallığıdır. Ailə dəyərləri, ailənin mənəvi inkişafı, onun fundamental dəyərlər sisteminin qorunması bu gün bəşəriyyəti düşündürən ən qlobal məsələdir və belə də olmalıdır. Ailə tərbiyəsi, ailədə valideynlərin bir-biri ilə, valideynlər və uşaqlar arasında qarşılıqlı münasibət, sevgi, ailə dəyərlərinə sədaqət - bütün bunlar çox vacibdir. Təsəvvür edin ki, bu, sanki bir şardır, bu şarın üzərindəki hər bir nöqtə mərkəzdir. Ailə sistemində də belədir - ər-arvad, qadın-kişi, doğmalar, yaxınlar, baba-nənələr. Ailə heç də dar çərçivəli anlayış deyil. Bu, kiçik dövlət strukturudur, kiçik institutdur. Daha dəqiq desək, ailə dövlət orqanizmində bir hüceyrədir. Hüceyrələr çoxalır, ancaq hüceyrə olaraq qalır. Yəni, burada hər şey əhəmiyyət daşıyır və vacibdir. Əgər sən özün tərbiyə olunmayıbsansa, uşağı tərbiyə edə bilməzsən. Əgər ailədə dəyərlər yoxdursa, dəyərlərə əməl olunmursa, onda tərbiyə də pis olacaq. Və əksinə. Əgər valideynlər pisdirsə, tərbiyə də pis olacaq. Bu mövzu bütün ölkələr üçün eyni dərəcədə çox vacibdir. Hər yerdə artıq ailə tərbiyəsi məsələsi birinci plana keçir, çünki ailə dəyərləri zərbə altındadır.

### Ailə dəyərləri zərbə altındadır

*- Qədim dövrün müdriklərindən biri deyirdi ki, əgər ailə dağılırsa, dövlət də dağılır.*

- Tamamilə doğrudur. Bir çox ölkələrdə, xüsusən də Qərbdə, dediyim kimi, ailə dəyərləri zərbə altındadır. Bu, çox təhlükəli vəziyyətdir. Qərbdə həmcinslərlə nikaha, hətta uşaqların həmcinslərlə nikah əsasında övladlığa götürülməsinə belə, icazə verilir. Belə faktlar var. Məhz bu kimi hallar ailəni zəiflədir, onu dağıdır. Bu, guya hansısa feminizmdir. Hansı bərabərlik? Kişilərə qadın adları qoymağa başlayıblar. Budurmu bərabərlik? Bütün bunlar ailəni zəiflədir, tənəzzülə aparır. Və kimlərəsə bu lazımdır. Dərin dini mədəniyyəti olan Azərbaycan və Gürcüstan kimi ölkələrdə isə biz ailəni müqəddəs tutmalıyıq.

### Qızlar qadın, oğlanlar kişi kimi böyüdülməlidir

*- Ailədə uşaqların tərbiyəsində nələrə diqqət yetirilməlidir, məsələn, oğlan və qızların.*

- Əvvəla, qızlar qız kimi doğulduqları üçün qadın, oğlanlar isə oğlan kimi doğulduqlarından kişi kimi böyüdülməlidir. Qadın və kişi tamdır, bütövdür. Lakin tərbiyə fərqli olmalıdır. Qadın daha çox ağıllı, əxlaqlı, zərif və əlbəttə ki, gözəl olmalıdır. Həm də diplomatik olmalıdır, ərini ruhlandırmağı, həssas, ailə ocağını qoruyub saxlamağı bacaran olmalıdır. Hazırda qadının qarşısında bu öhdəliklər durur. Buna əlavə olaraq həm də ictimai fəaliyyət də var. Kişi isə ailəni saxlayır, onu təmin edir. O ümid yeridir, dayaqdır, gücdür. O, həm də ailədə qismən də olsa hökmrandır. Həm də xeyirxah hakim rolunu oynayır. Oğlanlar - gələcəyin kişiləri vətənə, ailəyə sədaqət ruhunda tərbiyə olunmalı, onlar öz ailəsini, uşaqları, namusunu qoruyub saxlamağı bacarmalı, fədakarlığa hazır olmalıdır.

*- Təhsildə mənəvi tərbiyə də aktual məsələdir. Uşaqların mənəvi tərbiyəsi özünü necə göstərməlidir?*

- Bu məsələ də çox əhəmiyyətlidir. İlk növbədə, gəlin aydınlaşdıraq: mənəvi tərbiyə nədir? Bu, inamdır. Tutaq ki, biz 70 il etiqadsız yaşamışıq. Biz nə qazandıq? Bizə bu sistemdən nə qaldı? Hansı cəmiyyəti qurduq? Biz bəşəriyyətin min illər ərzində üzərində dayandığı dayağı itirdik. Məhz bu dayaq mənəviyyatdır. İlk növbədə inam, sonra sədaqət və sevgidir. Həyat eşqidir, fədakarlıqdır. Bütün bunlar ailəni yaşadan dayaqdır. Buna görə də humanist pedaqogika mənəviyyatı tərbiyədə hər şeyin əsası kimi götürür. Uşaqları dürüstlük, vicdanlılıq, xeyirxahlıq ruhunda tərbiyə etmək lazımdır. Onları xeyirxahlığa yönləndirin, onların ətrafında xeyirxahlıq mühiti yaradın. Mənim düşüncəmə görə, uşaqların mənəvi tərbiyəsində əsas məsələ xeyirxahlıqdır. Bizim və uşaqlarımızın gələcəyi tərbiyə məsələlərindən asılıdır.

### Uşaqlıq heç də məktəb həyatı ilə məhdudlaşmır

*- İndiki təhsil mühiti fərqlidir. Uşaqlar məktəbə gedir, evdə isə onların qiymətlərini gözləyən valideynlər var?*

- İndiki uşaqlar məktəbdən başqa heç nə görmür. Deyək ki, uşaqlar məktəbə gedir. Lakin uşaqlıq heç də məktəb həyatı ilə məhdudlaşmır. Bu gün dünya hamının üzünə açıqdır. Onlara lazım olan bilikləri uşaqlar müxtəlif mənbələrdən alırlar. Bu, ilk növbədə, internetdir. Onlar informasiyanı həyətdə ünsiyyətdə olduqları uşaqlardan, televiziyadan və KİV-dən alır. Uşaqlar bir-biri ilə, ətrafdakılarla daim ünsiyyətdədir. İndi məktəb uşaqlar üçün yeganə bilik mənbəyi deyil.

Buna görə də bu gün məktəb özünü canlandırmalıdır. O, yeniləşməlidir, hətta daha çox, daha sürətlə, çevikliklə yeniləşməlidir. Lakin məktəb başqa yolla gedir. Bu bütün dünyada baş verən prosesdir. Məktəb tərbiyəni arxa plana atıb. Bir vaxtlar (xüsusən sovet dövründə, məktəb tərbiyəni tələb edirdi, baxmayaraq ki, həmişə buna nail ola bilmirdi) məktəb üçün olduqca prioritet olan tərbiyə məsələlərinə diqqət azalıb. İndi yoxlamaq, nəzarət etmək, imtahanlara hazırlaşmaq və keçirmək məktəbin əsas vəzifəsinə çevrilib. Valideynlər də təəssüf ki, bunu istəyirlər. Öz uşaqlarına yalnız buraxılış imtahanlarının nəticələrinə əsasən baxırlar. Təki imtahanlardan yüksək qiymətlər alsın. Ancaq onu deyim ki, öz övladlarını yalnız qiymət, yüksək ballar xatirinə məktəbə göndərənlər kordurlar. Uşaqlar imtahan verəcək. Hökmən verəcək! Ancaq imtahanlarda ən yüksək bal almağa hazırlanmış uşaq valideynlərini sevməsə, onda nə olacaq? Öz mədəniyyətini bilməsə, onda nə olacaq? Vətəninə sadiq qalmasa, vətənpərvər olmasa, öz ana dilini bilməsə? Sizə belə bir vətəndaş nəyə lazımdır? On ildən sonra indiki biliklərin 76 faizi yoxa çıxacaq. Biz isə tələb edirik ki, uşaqlar oxusunlar. Və bu, bizim üçün ən əsas vəzifədir. Mən sizə deyirəm, biz gələcək cəmiyyətin bu qiymətləndirmələri necə dəfn etməsinin şahidi olacağıq. Özü də bu, çox layiqli bir dəfn olacaq.

**İlk növbədə inam, sonra sədaqət və sevgidir. Həyat eşqidir, fədakarlıqdır. Bütün bunlar ailəni yaşadan dayaqdır. Buna görə də humanist pedaqogika mənəviyyatı tərbiyədə hər şeyin əsası kimi götürür. Uşaqları dürüstlük, vicdanlılıq, xeyirxahlıq ruhunda tərbiyə etmək lazımdır. Onları xeyirxahlığa yönləndirin, onların ətrafında xeyirxahlıq mühiti yaradın.**

### Məktəblə yanaşı müəllimlər də dəyişməlidir

*- Ancaq məktəbdə görmək istədiyiniz keyfiyyət dəyişiklikləri müəllimlərdə də olmalıdır...*

- Əlbəttə ki, məktəblə yanaşı müəllimlər də dəyişməlidir. Başa düşürsünüz, fərqli pedaqogikalar var. Avtoritar pedaqogika üçün əsas olan müəllimin özü deyil, texnologiyadır. Metodikalar və tədris proqramlarıdır. Guya ki, əgər tədris vəsaitləri, metodikalar, proqramlar yaxşıdırsa, texnologiyalar yüksəksəviyyəlidirsə, onda tədris baş tutacaq? Humanist pedaqogikada hər şey əksinədir. Əgər müəllim yaxşıdırsa, pis proqramı belə o, yaxşı edəcək. Əgər proqram yaxşıdırsa, pis müəllim onu daha da pis günə salacaq. Bugünkü məktəblərdə isə məhz bunlar baş verir. Bəzi müəllimlər üçün proqramlar çətin və mürəkkəb, digərləri üçün isə asandır. Bu, proqramdanmı asılıdır?

Yox, ilk növbədə, müəllimin yaradıcı ziyasından asılıdır. Məktəblərdə isə, bütün postsovet məkanı ölkələrində, bilik səviyyəsi “2” və “3” olan çox sayda müəllim var. Və onlar öz şagirdlərini “2”, “3”-lə oxuyanlar adlandırırlar. Onlar özləri dərslərini “2”yə bilir, uşaqlara da “2” yazırlar. Məgər bu məntiqlidir? Lakin müəllim məktəb sistemində əsasdır. Əgər müəllimlər üzərində islahatlar aparılmasa, yeniləşmə olmasa, məktəbdə də islahat olmayacaq, məktəb keyfiyyətcə dəyişməyəcək. İnsansevər pedaqoq olmaq üçün uşaqların həyatıyla yaşamaq lazımdır. Onlara böyüməkdə kömək olmaq üçün özünü uşaqlarda görmək lazımdır.

### Uşaqlar da müəllimdir...

*- Siz çıxışlarınızın birində demişdiniz ki, uşaqlar ən yaxşı pedaqoqdur. Uşaqlar sizə nələri öyrədib?*

- Bilirsiniz, uşaqlar dünyaya ona görə gəlmirlər ki, biz onlara yalnız tərbiyə verək. Əlbəttə, əgər biz tərbiyə olunmuşuqsa, onlar bizdən bunu gözləyirlər. Onların bizim tərbiyəmizə ehtiyacları var. Lakin onlar bizim insanlığımız üçün məhək daşıdırlar. Onlar bizim insanlığımızı yoxlayırlar. Onlar bizim necə bir valideyn, müəllimlərimizin isə necə müəllim olduğunu təhlil edirlər. Uşaqlar bizi daim yoxlayırlar. Əgər müəllim deyirsə ki, uşaq pisdir, hiperaktivdir və s. deməli, müəllim özü pisdir. Uşaqları günahlandırmaq olmaz. Kim- kimi, uşaq müəllimi, yoxsa müəllim uşağı yoxlayır? Uşaqlar böyüklər üçün ən yaxşı müəllimlərdir. Əgər onları öz müəllimləriniz kimi qəbul etsəniz, onlardan çox şeylər öyrənmək olar. Dünyada təkcə müəllimlər yoxdur, həm də şagird var. Biz sizinlə birlikdə, ola bilər ki, kimin üçünsə müəllimik, ancaq kimin üçünsə həm də şagirdik. Daha ağıllı, inkişaf etmiş müəllimin şagirdləriyik. Ola bilməz ki, ətrafınızda sizi öyrədən bir insan olmasın?..

Uşaqlar da müəllimdir. Əgər onlar ağlayırsa, deməli nəsə deyirlər. Əgər tələb edirlərsə, deməli yenə nəsə deyirlər, bəlkə bizdən nəsə gizləyirlər? Bütün bunlar bizdən ötrü tapmacadır. Bütün bunları müəllim öyrənməlidir.

Müəllimin vəzifəsi kömək etmək və öyrətməkdir. Şagirdlə dostlaşmaq, onu sevmək və onun etimadına layiq olmaqdır. Yalnız informasiya vermək deyil, həm də öz fikrini səbrlə çatdırmaq və şagirdlərinin fikirlərinə qulaq asmaqdır.

Mən anladım ki, uşaqları təkcə gözəl deyil, həm də gələcək həyatları naminə dərin məsuliyyət hissi ilə, bütün həyatınla daima sevmək lazımdır.

### Azərbaycan məktəbi azərbaycanlı ruhu tərbiyə etməlidir

*- Bugünkü təhsil sistemi qarşısında hansı kəskin problemlərin olduğunu deyə bilərsiniz?*

- Mən əlbəttə ki, təhsil sistemində olan problemlərin həlli üçün təhsili idarəetmə orqanları qarşısında məsələ qaldıra bilmərəm. Onların qayğıları kifayət qədərdir. Allah elə etsin ki, onlar öz problemlərini həll edə bilsinlər. Lakin mən məktəb administrasiyaları qarşısında uşaqlara qayğı məsələsini qoya bilərəm. Məktəbin öz həqiqəti olmalıdır. Bu həqiqət ondan ibarətdir ki, Azərbaycan məktəbi azərbaycanlı ruhu tərbiyə etməlidir. Bu ruhu çərçivəyə salmaq olmaz. Əksinə, bu çərçivəyə nəfəslik açmaq lazımdır ki, bu ruh dünyaya yayılsın. Gürcüstan məktəbi də gürcü ruhu tərbiyə etməlidir. Bu, digər ölkələr üçün düşmən ruhu demək deyil. Məsələn, tutaq ki, mən öz gürcü ruhum ilə ölkənizə gəlirəm, sizi sevindirirəm. Bu qədər insan bu gün ayrı-ayrı ölkələrdən Bakıya gəlib və azərbaycanlı qonaqpərvərliyinin şahidi olub. İnsanlar Bakıda gördüklərindən çox təəccübləndilər, həm də çox ruhlandılar. Bu, məhz ruhdur. Mənim inamım, sizin inamınız. Mənin inamım sizə inanmağı, sizi sevməyi öyrədir. Bu inam digər mədəniyyətlərə, digər inanclara sahib olanlara hörmət et, onları sev deyir. Sizin inanc da bunu deyir. Bütün bunlar məktəb, cəmiyyət qarşısında duran başlıca məsələlərdir. Məktəb milli ruhun inkişafına xidmət edən vasitə olmalıdır. Milli ruh ümumbəşəri dəyərlərin tərkib hissəsidir.

### Xoşbəxtlik tamlığa nail olmaqdır

*- Bugünkü çıxışlarda tez-tez xoşbəxt uşaq, xoşbəxt ailə ifadələrinə rast gəldik. Xoşbəxt uşaq xoşbəxt ailədə inkişaf edir. Sizin fikirlərinizi bilmək istərdik.*

- Əlbəttə, bilirsiniz, məsələ nədədir? Sizin xoşbəxtliyiniz mənə nə verir? Əsl xoşbəxtlik nədədir? Əgər xoşbəxtlik maddi nemətlər, yaxşı mənzil, avtomobil, hətta villa, zənginlik kimi başa düşülürsə, bu ailə, əlbəttə ki, əsl xoşbəxtliyi tapa bilməz. Maddi cəhətdən bu ailə yaxşı yaşayacaq. Lakin xoşbəxt həyat mümkün ola bilməz. Xoşbəxtlik nədir? Sevgi və genişüreklilik. Mən sizin qarşınızda səmimiyəm, sizi sevirəm. Eləcə də siz. Bizim aramızda ruhi ümumilik yaranır. Arzularım qismən sizin arzularınızla üst-üstə düşür. Biz daha da güclü oluruq. Belə olmasa biz ayrılıqda qapalı mühitdə olacağıq. Əgər ikilikdə olsaq biz xoşbəxt olacağıq. Əgər ailə içində olsaq daha xoşbəxt olacağıq. Əgər səylərimizi, məqsədlərimizi ümumiləşdirsək, birləşdirsək, əlbəttə ki, ailə daha xoşbəxt yaşayacaq. Ola bilsin ki, nəsə çatışmayacaq. Bir-birinə güzəştə gedəcəklər. Bir-birinə qarşı dözümlü olacaqlar. Bir-birini hirsləndirməyəcək, bütün dünyaya nifrət etməyəcək. Sonuncular heç bir fayda gətirməyəcək. Bax, xoşbəxtlik tamlığa canatmadır. Əgər ailədə bu varsa, onda xoşbəxtlik olacaq. Canatma nədir? Canatma Allahdır. Tamlığa canatma xoşbəxtliyin özüdür. Bu, heç də o demək deyil ki, kiməsə “mən səndən yaxşı yaşamışam” deyəsən.

Həyatın xoşbəxtliyi, sən hardasan? Səni mən necə tapa bilərəm? Xoşbəxtlik cavab verir: Qoy, xeyirxahlıq sənin varlığının mahiyyəti olsun. Qoy insan ruhunun qurtuluşu naminə xidmət hissi sənin qayğın olsun. Eybəcərliyi gözəlliyə yönəlt. Dostlarına, səni əhatə edən hər kəsə xeyirxahlığa çatmaqda kömək et. Qoy sənin fikirlərində Yer kürəsi insanlarının xoşbəxtliyi döyünsün. Səni ucaldan, sənin ruhunu yüksəldən həyatın xoşbəxtliyi sənə belə çatacaq.

### Sən ona yalnız böyüməkdə kömək et...

*- Şalva Aleksandroviç, geniş müsahibəyə görə çox sağ olun. Sonda valideynlərimizə hansı arzularınız var ?*

- Onlara isə hədiyyəm var *(gülür)*. Onlara 3 nəsihətimi çatdırmaq istəyirəm. Əlbəttə ki, müəllim nəsihətidir bunlar. Birinci nəsihət, öz uşağınızın hüdudsuzluğuna inanın. Ağılsız uşaqlar yoxdur. Ağıldan zəif uşaqlar da yoxdur. Uşaqlar Allahın yaratdığı varlıqlardır. Onları Allah belə yaratmaq istəyib. Buna görə də Allahın bizə hədiyyə etdiyi uşaqda bütün istedad və qabiliyyətlər cəmləşib. Uşağa inanmaq lazımdır. Ona inanın. Əgər heç nəyə inanmırsansa, onda Allaha da inanmırsan. Allahın göndərdiyi uşağa inanmırsansa, onda nəyə inanırsan? Uşağın böyüyəcək, sən ona yalnız böyüməkdə kömək et. İkincisi, özünüzün Allahın yaratdığı varlıq olduğuna inanın. Hər bir ana ilahidən anadır, hər bir ata ilahidən atadır. Hər bir müəllim ilahidən müəllimdır. Kim ki, inanır, onu Allah yaradıb, o, Tanrı övladı olacaq. Kim inanmırsa, heç vaxt Tanrı övladı olmayacaq. İşıq var, alov isə olmayacaq. Tanrı işığına inanmaq lazımdır. Üçüncüsü, nifrət, məcburetmə, güc, kin, qəzəb, nəzarət, qiymətləndirmə pedaqogikasına deyil, sevgi pedaqogikasına inanmaq lazımdır. Uşağını ürəkdən sev, ona bir az da yaxın ol. Axı, o hələ hər şeyi başa düşmür. Qulaq asmaq istəmir. Ona qulaq asmağı öyrət, ancaq qışqırma. Heç ola bilər ki, istiliyi 37 dərəcə olan xəstəyə qışqırasan ki, sən niyə xəstələnibsən? Onların şıltaqlıqlarını uşaq xəstəliyi kimi qəbul et. Və onu müdafiə et. Pedaqogikanı tətbiq et. Sevgi, xeyirxahlıq, mərhəmət, şəfqət pedaqogikasına inan. Humanist pedaqogikanın gücünə inan.

Bu gün valideynlərin əsas məsuliyyəti uşaqları informasiya çamurundan qorumaqdır. Televiziyalarda göstərilən təcavüz, qəddarlıq, zorakılıq, sadəcə, uşaq psixikasını öldürür. Bunun əvəzinə, uşaqlara onları xeyirxahlığa öyrədən kitablar oxuyun, onlarla teatra, rəsm qalereyalarına gedin. Uşağın xarakterini seçmək olmaz, amma tərbiyə etmək lazımdır. İstənilən uşaq böyük sərvətin daşıyıcısıdır, hansı ki, biz seyflərə qoyub ağzını elə bağlayırıq ki, sonra heç vaxt uşaqlar özləri aça bilməyəcəklər.

# Astara Pedaqoji Kollecində keyfiyyətli kadr hazırlığı diqqət mərkəzindədir



**Ağababa İBRAHİMOV,**
*Astara Pedaqoji Kollecinin direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru*

## Bu məqsədlə kollecdə yüksək təhsil mühiti yaradılıb

Hazırda təhsilimizin qarşısında maddi sərvətləri insan kapitalına çevirmək, ölkənin gələcək inkişafını təmin edə biləcək yüksək ixtisaslı, Vətənə sədaqətli kadrlar yetişdirmək kimi vəzifələr durur. Bu vəzifələrin yerinə yetirilməsi yolları, əsas strateji hədəfləri “Azərbaycan - 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında və “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda aydın göstərilib.

Dövlət Strategiyasında təhsilalanın səviyyəsinin təhsilverənin səviyyəsindən asılı olduğu qeyd edilir. Orada təhsil müəssisələrində çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi hədəf kimi qarşıya qoyulub. Məhz Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 avqust 2017-ci il tarixli 261 nömrəli əmri ilə 2017-2018-ci dərs ilinin “Ümumi təhsildə keyfiyyət ili” elan edilməsi təhsilin keyfiyyətinin artırılması istiqamətində bütün fəaliyyətlərin birləşdirilməsinə xidmət edir.

Bu baxımdan Astara Pedaqoji Kollecinin qarşısında duran vəzifələr də yeni keyfiyyət qazanır: təhsilin keyfiyyətini artırmaq üçün təlim-tərbiyə prosesində müasir dövrün yeni texnologiyalarından geniş və səmərəli istifadə etmək, ixtisaslar üzrə təhsil və iqtisadi sahələrdə yetərincə çalışa bilən mütəxəssis hazırlamaq.

Bu vəzifələri həyata keçirmək üçün kollecdə yüksək təhsil mühiti və hazırlıqlı müəllim kollektivi yaradılıb. Müəllimlərimizin hər birində yaradıcılıq və innovasiyalı çalışmaq səyi vardır.

Kollecdə təlim-tərbiyə, mədəni-kütləvi, quruculuq-abadlıq və idmanla bağlı müxtəlif tədbirlər həyata keçirilir. Təlim-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə intizam möhkəmləndirilib, tələbələrin dərsə davamiyyətinə nəzarət gücləndirilib. Kollecdə keyfiyyətli orta ixtisaslı kadrların hazırlanmasına diqqət daha da artırılıb.

Hazırda kollecdə 800-ə yaxın tələbə təhsil alır. Keçən tədris ilində 376 məzun kollecdə aldığı yüksək nəzəri və praktik hazırlıqla müstəqil həyata atılıb. Onlardan bir çoxu müəllimlərin işə qəbulu üzrə müsabiqədə kifayət qədər bal toplayaraq ixtisasları üzrə pedaqoji fəaliyyətə başlayıb.

Kollecə ümumi orta və tam orta təhsil bazalarından 2018-2019-cu tədris ili üçün aşağıdakı ixtisaslar üzrə tələbə qəbulu nəzərdə tutulub:

1.“Məktəbəqədər təlim və tərbiyə”. 2.“Texnologiya müəllimliyi”. 3.“Fiziki tərbiyə müəllimliyi”. 4.“Musiqi müəllimliyi”. 5.“Aqronomluq”. 6.“Meşə və meşə-park təsərrüfatı”. 7.“Mühasibat uçotu”. 8.“Turizm və onun təşkili”. 9.“Arxiv işi və kargüzarlıq”. 10.“Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə”. 11.“Bədən tərbiyəsi və idman”. 12.“Peşə təlimi”. 13.“Ailə və ev təhsili”.

Göründüyü kimi, növbəti tədris ilindən mütəxəssis hazırlığı aparılan ixtisaslar dövrün tələblərinə tam uyğundur. Bəzi ixtisaslar əhalinin tələbləri nəzərə alınmaqla plana salınıb. Ümumtəhsil məktəblərində şagirdlərin peşə meyil və maraqlarının müəyyənləşdirilməsi, gələcək peşə və ixtisaslarını seçmələrində onları maarifləndirmək üçün biz məktəb rəhbərləri ilə sıx əlaqə saxlayır, müəllimlərimizlə məktəblilərin görüşünü təşkil edirik. Eyni zamanda valideynlər də bu sahədə övladlarına məsləhət verə bilərlər. Bu baxımdan valideynlərin məlumatlandırılması da vacibdir.

Statistika göstərir ki, Azərbaycanda əmək bazarına daxil olan işçi qüvvəsinin böyük hissəsi orta ixtisas, ali təhsil və peşə təhsilindən kənardadır. Elə ixtisaslar vardır ki, hər 5-7 ildən bir əhəmiyyətini itirir. Bazarda həmin ixtisasa tələb olmur. Odur ki, tələbə qəbulu planı hazırlanarkən ixtisasın müasirliyi və stabilliyi, eləcə də tələbat nəzərə alınır. Bəzi ixtisaslara böyük maraq var. Bəziləri isə yeni olduğu üçün diqqətdən bir müddət kənarda qalır. İxtisaslar haqqında məlumatsızlıq onunla nəticələnir ki, bir neçə ixtisas daha çox yüklənir. Xidmət sahələri genişləndikcə peşə sahibi olan gənclərə ehtiyac durmadan artır. Azərbaycanda aqrar sektorun, turizmin inkişafı, xidmət sahələrinin genişləndirilməsi bu sahələrdə çalışacaq mütəxəssislərin qısa müddətdə hazırlanmasını tələb edir. Düşünürəm ki, gələcəkdə mütəxəssis hazırlığı məhz sosial sifariş əsasında həyata keçirilməlidir. Orta ixtisas təhsili ilə bağlı qanun layihəsinin hazırlanması da bu sahədə işləri yeni müstəviyə çıxara bilər.

Orta ixtisas təhsili müəssisələrində kredit sisteminin tətbiqi tələbələr üçün gözəl imkanlar açıb. Tələbələrin hüquqları daha çox qorunur. Xüsusən tələbələrə təqaüdün verilməsində dəyişikliklərin edilməsi təhsilin keyfiyyətinə nəzərəçarpacaq dərəcədə təsir göstərir. Tələbələrin təqaüdü semestr üzrə aldığı nəticələrdən asılı olur. Məhz maddi cəhətdən stimullaşdırma tələbələr arasında rəqabətin artmasına səbəb olmuşdur. Birinci yarımilin tədris göstəricilərinə görə əlaçılarımızın sayı keçən ilin müvafiq dövrünə nisbətən 25% artıb. Yaxşı oxuyanların da sayında artım nəzərə çarpandır. Onların sayı da 44 nəfərdən 139 nəfərədək artıb. Müvəffəqiyyət 55%-dən 91 faizə, keyfiyyət 5%-dən 21 faizə yüksəlib.

İmtahan sessiyasının mövcud normativ sənədlər əsasında təşkili və keçirilməsi təmin olunub. İmtahanlar bütün qruplarda yazılı formada keçirilib.

Orta ixtisas təhsilinin dövlət standartları əsasında 2017/2018-ci tədris ili ərəfəsində ixtisaslar üzrə yeni tədris planları hazırlanıb. Tələbə mobilliyi ilə əlaqədar mühüm işlər həyata keçirilib. Belə ki, Lənkəran Dövlət Humanitar Kolleci və Masallı Dövlət Regional Kolleci ilə bu sahədə əlaqələr yaradılıb.

Buraxılış kurs tələbələrinin rayonun ümumtəhsil məktəblərində təlimata uyğun şəkildə pedaqoji (istehsalat) təcrübəsinin təşkili və keçirilməsi təmin edilib. Şəhər 1, 2, 4 və 5 nömrəli tam orta məktəblərin, Lənkəran Regional Mədəniyyət və Turizm İdarəsinin Astara şöbəsinin, Astara Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasının, Astara Rayon Musiqi Məktəbinin rəhbərliyi ilə müqavilələr bağlanılıb. Həmin müqavilələrə əsasən tədris planlarında nəzərdə tutulan müddətlərdə pedaqoji (istehsalat) təcrübə həyata keçirilir. Təcrübə keçirilən məktəb və müəssisələrlə sıx əlaqə saxlanılır.

Kollecdə gənclərin milli-mənəvi, əxlaqi və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan mədəni-kütləvi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə kollec arasında sıx əlaqələr vardır. Fondun Astara rayon “Bilik” evinin iştirakı və kollec rəhbərliyinin moderatorluğu ilə akt zalında 20 Yanvar şəhidlərinin anım tədbiri keçirilib.

Kollecdə gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirilir, onların fiziki, mənəvi və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı mütəmadi olaraq idman tədbirləri keçirilir. Tələbələrdən ibarət komandamız keçən il Şirvan şəhərində keçirilən futbol üzrə respublika birinciliyində 1/8 finala qədər yüksəlib. Kollecin tələbəsi Rəşad Məmmədov Rusiya Federasiyasının Mahaçqala şəhərində “Çempion” klubunun açıq çempionatında iştirak edərək diploma layiq görülüb. “Təhsil” Respublika İdman Mərkəzinin taekvondo idman növü üzrə baş məşqçisi-müəllimi, əməkdar məşqçi Rəşad Məmmədovun uğurları bizi daim sevindirir. Digər tələbəmiz Nurəli Məmmədov isə Su İdman Sarayında üzgüçülük üzrə baş məşqçidir. Güləş üzrə yeniyetmələrin Bakı şəhər açıq birinciliyində kollecin tələbəsi Tərlan Səlimli müvəffəqiyyətlə çıxış edib. Tələbələrimiz Astara Rayon Gənclər və İdman İdarəsi tərəfindən keçirilən bütün yarışlarda həvəslə qüvvələrini sınayırlar. Bayram və xüsusi günlərə həsr olunan kollecdaxili müxtəlif idman yarışlarında da tələbələrimiz fəal iştirak edirlər.

Kollecdə vətəndaşların qəbuluna, ərizə və şikayətlərinə həssaslıqla yanaşılır və onların müraciəti operativ olaraq obyektiv həll edilir.

Cəmiyyətin inkişafı təhsilə, təhsilin inkişafı isə cəmiyyətə birbaşa təsir göstərir. Odur ki, yeniləşən cəmiyyət yeniləşən təhsil tələb edir. Astara Pedaqoji Kollecinin kollektivi də bu yeniləşən təhsil sahəsində xalqımızı öz yeni-yeni töhfələri ilə sevindirməyə çalışacaqdır.

---

# Təhsil müəssisəsinin idarə olunmasının keyfiyyət göstəriciləri



**Nazimə ZEYNALOVA,**
*Bakı şəhəri 164 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini*

## Uğur motivasiyası qarşıda qoyulan vəzifələrin həllində vacib faktordur

Təhsilin keyfiyyəti təhsil müəssisəsinin fəaliyyətini xarakterizə edən müxtəlif aspektlərin - təhsilin məzmunu, təlimin forma və metodları, insan resursları, tədris və maddi-texniki bazanın vəziyyəti və s. məcmusu ilə müəyyən olunur. Bütövlükdə bu məsələlər yeni pedaqoji təfəkkürün tərkib hissəsidir.

Yeni pedaqoji təfəkkür təlim-tərbiyənin “öyrənməyi-öyrətmək” texnologiyası əsasında qurulmasını, təhsilin fərdiləşdirilməsini, interaktiv təlim metodlarının tətbiqinin aktuallaşdırılmasını, diqqətin şagirdin intellektual inkişafına, məntiqi təfəkkürünün formalaşmasına, əqli nəticə çıxarmasına, ümumiləşdirməyə və bu kimi pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir.

Bunu nəzərə alaraq məktəbimizdə il ərzində müxtəlif müsabiqələr, olimpiadalar, ədəbi-bədii gecələr və sinifdənxaric digər tədbirlər keçirilir.

Son illər məktəblərdə yaradılmış “Kiçik Akademiya”lar da şagirdləri ilkin elmi axtarışlara qoşmaq, öz fikir və düşüncələrini ifadə etmək üçün bir vasitəyə çevrilib. Məktəbimizdə fəaliyyət göstərən “Kiçik Akademiya” bu baxımdan fərqlənir. Onun yığıncaqlarında rəhbərliyin, mütəxəssislərin, qonaqların iştirakı “Gənc alimlər”in məsuliyyətini daha da artırır.

Ədəbi-bədii tədbirlərin hazırlanması şagirdlərin bədii təfəkkürünün, bədii zövqünün formalaşmasında, nitq qabiliyyətinin inkişafında böyük rol oynayır. Məktəbimizdə müntəzəm olaraq ədəbi-bədii kompozisiyalar, “dəyirmi masa”lar, viktorinalar keçirilir. Molla Pənah Vaqifin 300 illik yubileyinə, ulu öndər Heydər Əliyevin anım gününə və Dövlət Bayraq gününə həsr olunmuş tədbirləri buna misal göstərmək olar. Kitabxanada tez-tez təşkil olunan bədii qiraət saatları, şagirdlərin bədii yaradıcılığının müzakirəsi və digər tədbirlər də müsbət nəticə verir. Sinifdənxaric, məktəbdənkənar tədbirlər dərs prosesində verilən nəzəri biliklərlə əlaqələndirilir və bu, şagirdlərin dünyagörüşünün inkişafına güclü təsir edir.

Ölkəşünaslıq işlərinin, ekskursiyaların şagirdlərin vətənpərvərlik tərbiyəsindəki mühüm rolunu nəzərə alaraq belə tədbirlərin təşkilini də diqqətdə saxlayırıq.

Təhsil müəssisəsinin inkişaf rejimində fəaliyyətin və keyfiyyətin idarə olunması məktəb rəhbərliyinin, təlim-tərbiyə prosesinin iştirakçılarının planlaşdırdıqları nəticəyə çatmaqda kömək edir. İdarəetmənin, eləcə də məktəbin bütövlükdə fəaliyyətinin keyfiyyəti və səmərəliliyi məktəb rəhbərləri arasında funksiya və vəzifə öhdəliklərinin nə dərəcədə real, konkret və məqsədəuyğun paylanmasından asılıdır.

İdarəetmə təcrübəsi göstərir ki, istənilən innovasiya fəaliyyətində uğur motivasiyası qarşıda qoyulan vəzifələrin həllində vacib faktordur.

Məktəbdə uğur motivasiyası üçün hər bir kəsin əməyinin ədalətli qiymətləndirilməsi fəaliyyətin yüksək keyfiyyətini situmullaşdıran amildir. Bu amildən məktəbimizdə geniş istifadə olunur.

Dərs ilinin sonunda “Son zəng”də il ərzində yüksək göstəriciləri ilə seçilən müəllimlər, müsabiqələrdə, idman yarışlarında, rayon və ya respublika əhəmiyyətli tədbirlərdə fərqlənən şagirdlər mükafatlandırılır.

Planlaşdırma təlim prosesinin səmərəliliyinin artırılması vasitəsi kimi çıxış etməklə, həm də təhsil müəssisəsinin idarə olunmasının keyfiyyət göstəricilərindən biridir.

Təhsilin keyfiyyətinin planlaşdırılması məktəbin keyfiyyətinin ümumi planlaşdırılmasının tərkib hissəsidir. Bu gün məktəbin fəaliyyətinin planlaşdırılmasında perspektiv məsələlər, həmin məsələlərin arzu olunan nəticələri öz əksini tapmalıdır. Həmin planlarda tədbirlərin uzlaşdırılmasına diqqət verilməli, yaradıcılıq, təşəbbüskarlıq ön plana gətirilməlidir.

Təhsil müəssisəsinin inkişaf rejimində fəaliyyətinin və keyfiyyətinin idarə olunmasında böyük əhəmiyyət kəsb edən məqamlardan biri nəzarətdir. Belə ki, nəzarət nəticəsində nəinki çatışmazlıqlar aşkar edilir, eyni zamanda müsbət təcrübə meydana çıxır və gələcəkdə bütün təşkilatın fəaliyyətində yayılır.

Müasir təhsilin innovasiya mühitində idarə olunmasında ən vacib məsələ təhsil müəssisəsinin inkişaf və inkişafetdirici rejimə keçirilməsidir. İnkişaf rejimində fəaliyyət göstərən təhsil müəssisəsində innovasiya prosesləri idarəetmə obyektinə çevrilir. Bu zaman məktəbin inkişaf rejimində fəaliyyətinin və keyfiyyətinin idarə olunmasında psixoloji yanaşma, məktəbə psixoloji xidmət mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, müasir məktəbin psixoloji xidmətə ehtiyacı böyükdür. Şagirdlərin intellektual səviyyələrinin müxtəlifliyi, çətin tərbiyə olunan uşaqların xüsusiyyətləri müəllimdən onları hərtərəfli öyrənməyi tələb edir. Bu işdə psixoloq konkret problemləri həll etmək üçün ayrı-ayrı şagirdlərlə, sinif kollektivi ilə, müəllim və valideynlərlə işləməli olur. Başqa sözlə, məktəbdə psixoloji xidmət fəaliyyətinin perspektiv istiqaməti hər bir şagirdin inkişafı, cəmiyyətdə yaradıcı həyata psixoloji hazırlığının formalaşması məqsədinin reallaşdırılmasında məktəb kollektivinin sağlam psixoloji mühitdə işləməsi üçün şəraitin yaradılmasında rəhbərliyə dəstək olmaqdır. Bu mənada müsbət psixoloji iqlim məktəbin idarə olunmasının keyfiyyət göstəricisi kimi qiymətləndirilə bilər.

Təhsil müəssisəsinin keyfiyyətli fəaliyyətinin, inkişafının mühüm amillərindən biri də təlim fəaliyyətinin məqsədyönlü təşkilidir. Bu baxımdan təhsil prosesinə mütləq yeni qaydalar gətirilməli, təhsilalanların yaradıcı və tənqidi təfəkkürünün formalaşdırılması məqsəd olmalıdır. Bu məqsədləri yerinə yetirərkən şagirdlərin baxışlarının, fikirlərinin nəzərə alınması olduqca əhəmiyyətlidir. Bunları nəzərə alaraq VIII-X siniflər arasında sosioloji sorğu keçirmişik. Sorğunun nəticələri pedaqoji şurada müzakirə olunub. İş prosesində şagirdlərin maraqlarının təmin olunması üçün tədbirlər planı hazırlanıb.

Dərs cədvəli pedaqoji kollektivin sistemli və intensiv fəaliyyət göstərməsi üçün nə qədər vacibdirsə, bir o qədər də keyfiyyətli işə şərait yaradan amildir. Dərs ilinin ilk günündən, bütün göstəricilərə və şərtlərə əməl olunmuş və təsdiq edilmiş cədvəllə işə başlamağımız fəaliyyətimizi kifayət qədər asanlaşdırır. Rəhbərliyin idarəetmədəki funksiyalarına uyğun olaraq iş bölgüsü aparmaq və buna uyğun fəaliyyət göstərmək təhsil prosesində bir operativlik yaradır.

Müəyyənləşdirilmiş məsul şəxslər tərəfindən monitorinqlər, yoxlama yazı işləri aparılır. “Açıq dərs”lər, qarşılıqlı dərsdinləmələr və s. rəhbərlik tərəfindən nəzarətlə həyata keçirilir.

İdarəetmə fəaliyyətinin vəzifələrindən biri normal şəraitin yaradılmasıdır. Yəni, təlim-tərbiyə prosesinin normal gedişi üçün maddi-texniki təchizat, kadrlara olan ehtiyacın ödənilməsi əsasdır. Müasir dövrdə bu ehtiyac əsaslı şəkildə təmin olunub.

Bu gün məktəbin idarə edilməsində kollegial idarəetmə orqanları mühüm rol oynayır. Pedaqoji şura, direktoryanı müşavirə, fənn metodbirləşmələri, sinif rəhbərlərinin metodbirləşməsi, həmkarlar komitəsi, valideyn komitələri məktəbin fəaliyyətini və pedaqoji kollektivin üzvlərini əhatə edən kollegial idarəetmə orqanıdır.

Kollegial idarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məktəb direktorunun təşkilatçılıq fəaliyyətinin tərkib hissəsini təşkil edir.

Kollegial idarəetmə orqanlarının fəaliyyətinin şəffaf olması üçün direktor pedaqoji kollektivin təcrübəli və peşəkar müəllimləri ilə məsləhətləşməli, onların fikirlərini, rəylərini əsas götürməlidir. Direktor işi elə təşkil etməlidir ki, kollegial idarəetmə orqanlarının hər bir üzvü təkcə öz vəzifə borcunu yerinə yetirməklə kifayətlənməsin, eyni zamanda təhsil islahatlarının həyata keçirilməsində fəal iştiraka səy göstərsin.

Pedaqoji şura məktəbin fəaliyyətinin təşkilində çox mühüm rol oynayır və məktəbin təlim-tərbiyə və təsərrüfat işlərinə rəhbərlik edən ali orqandır. Məktəb direktoru təlim-tərbiyə işlərinə pedaqoji şura vasitəsilə rəhbərlik edir. Məktəbdə həyata keçirilən bütün işlərin nəticəsi pedaqoji şurada müzakirə olunur və müəllimlərə çatdırılır.

Direktor bu və ya digər məsələnin həllində direktoryanı müşavirələrin imkanlarından geniş istifadə edə bilər. Məsələn, məktəbdaxili nəzarətin qrafik planına əsasən aparılan yoxlamaların nəticələrini, sinif rəhbərlərinin valideynlərlə apardığı işlər, fənn metodbirləşmələrində müzakirə olunan məsələlərin nəticələri və s. direktoryanı müşavirənin mövzusu ola bilər.

Direktorun metodbirləşmələrin işinin düzgün təşkilinə, təlimin keyfiyyətinə, müəllimin hazırlığına kömək edən tədbirlərin planlaşdırılmasında yaxından iştirak etməsi məktəbdə təlim-tərbiyə prosesinin yüksəldilməsinə, müəllimlərin müasir təlim üsullarına və metodlarına yiyələnməsinə kömək edə bilər.

Kollegial idarəetmə orqanı kimi məktəb valideyn komitələrinin müzakirə etdiyi məsələlərin hazırlanmasında pedaqoji heyətin iştirakı vacibdir. Burada da məktəb direktorunun valideyn komitəsinin işinə pedaqoji təsir göstərməsinə ehtiyac var.

Məktəbdə təlim-tərbiyə işinin səmərəliliyi təşkilatçılıq funksiyasının yerinə yetirilməsi səviyyəsindən asılıdır. Məktəb direktoru pedaqoji - təşkilatçılıq fəaliyyətini idarəetməyə verilən yeni tələblər əsasında qurmaq üçün idarəetmənin demokratik üsullarından geniş istifadə etməlidir. Məktəb direktoru şagird və müəllim kollektivinin fəaliyyətini təşkil edərkən elə bir şərait yaratmağa çalışmalıdır ki, müəllimin, hər bir məktəb işçisinin qabiliyyət və bacarığı, yaradıcılıq potensialı, peşəkarlığı formalaşsın və inkişaf etsin.

Məktəb rəhbərinin idarəetmə fəaliyyətinin səmərəliliyi onun kollektivdə tutduğu mövqe və qazandığı nüfuzla sıx əlaqədardır. O, çalışmalıdır ki, öz vəzifələri zəminində qazandığı nüfuzu, kollektivin hər bir üzvü qarşısında qazana biləcəyi şəxsi nüfuzla uzlaşdıra bilsin.

Bir sözlə, idarəetmənin mahiyyəti onun düzgün və səmərəli təşkilindədir. Məktəbdə idarəetmə qərarları kollektiv zəkanın məhsulu olduqda və onların icrasına nəzarət düzgün təşkil edildikdə uğur qazanılır.

Məktəbin idarə olunması və ona rəhbərlik məktəb direktoru, onun müavinləri vasitəsilə həyata keçirilir. Məktəb müdiriyyəti məktəbin fəaliyyətinə istiqamət verməli, qəbul edilən qərarları, söylənən rəyləri öz adından deyil, kollektivin adından söyləməlidir. Belə olduğu halda, kollektiv məktəbin inkişafında töhfə verdiyini düşünür, özünü verilmiş qərarlara görə cavabdeh hesab edir. Bu isə rəhbərliklə pedaqoji kollektivin yaxınlaşmasına, bir məqsəd uğrunda yekdil fəaliyyətinə gətirib çıxarır. Təhsil müəssisəsinin inkişaf rejimində idarə olunmasının keyfiyyət göstəricisi kimi insan resurslarının əməkdaşlığı və birgə fəaliyyəti əsas yer tutur. Təhsildə uğurun əldə edilməsi üçün rəhbər işçilərin - direktorun və müavinlərin işbirliyi zəruridir. Rəhbər işcilərin vahid rəyə gəlməsi, təlimdə və təhsildə ortaq məxrəc tutması, həmfikir olması təsiredici şərtlərdən biridir.

Təhsil müəssisəsinin idarə edilməsinin keyfiyyət göstəriciləri çoxdur. Əminliklə deyə bilərik ki, uzun illərdir tədris işləri üzrə direktor müavini işlədiyim Nəsimi rayonu 164 nömrəli tam orta məktəb qeyd etdiyim keyfiyyət göstəricilərinə bariz nümunə ola bilər.

## "Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələrinin özünəməxsusluğu haqqında qələmə aldığı məqaləni, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

# Məktəbdə yaradıcı və sağlam mühit kollektivi ruhlandırır

## Ümumi təhsil müəssisələrində münasibətlər qarşılıqlı inam üzərində qurulmalıdır



**Fayaz HÜSEYNOV,**
*60 nömrəli tam orta məktəbin direktoru*

Ümumi təhsil məktəbində yaradıcı və sağlam mühitin yaradılması əsas şərtlərdəndir. Belə mühitdə pedaqoji kollektiv işə, şagirdlər dərslərinə daha məsuliyyətlə yanaşır. Nəticədə isə məktəblilərin nailiyyətləri artır. Bu da həm ümumi təhsil müəssisəsinin kollektivini, həm də valideynləri razı salır.

Məktəbdə yaradıcı və sağlam mühitin formalaşdırılması birbaşa idarəetmənin düzgün təşkilindən asılıdır. Ümumi təhsil müəssisəsinin idarəolunması elə qurulmalıdır ki, orada hər kəs özünü rahat hiss etsin. Məktəb rəhbərliyi, müəllim, şagird və valideynlər arasında səmimi münasibət qurulsun. Şagird müəllimlərinin onu valideyni qədər sevdiyini, gələcəyi üçün çalışdığını düşünsün. Məktəbdə şagirdin yüksək bilik əldə etməsi və müasir tələblər səviyyəsində inkişafı üçün şərait yaradılsın. Şagird təhsil aldığı məktəbə həvəslə gəlsin. Yalnız belə mühitdə bilikli, dünyagörüşlü, Vətənini, torpağını, xalqını, o cümlədən, məktəbini, müəllimini və valideynini sevən şagird yetişdirmək olar.

### Göstəriciləri yüksəldən mühit

İşin yaradıcı və sağlam mühit üzərində qurulduğu məktəbimizdə idarəetmə demokratik prinsiplərə əsaslanır. Burada müəllim və şagirdlər üçün inkişafa xidmət edən əlverişli şərait yaradılıb. Bu mühit sağlam düşüncələrin təşəkkülünə, yaradıcı qabiliyyətin inkişafına, fikir və ideyaların sərbəst irəli sürülməsinə şərait yaradır, eləcə də məktəbə inamı artırır.

Məktəbdə formalaşan qarşılıqlı inam şəraitində daha yüksək nailiyyətlərin əldə edilməsi istiqamətində işlər görülür. Bütün qüvvələr göstəricilərin artırılması üçün səfərbər olunur. Şagirdlərin təlim göstəricilərinin artırılması, həmçinin, onların müsabiqə, olimpiada və yarışlarda yüksək nəticələr göstərməsi üçün konkret tədbirlər planı hazırlanır.

Bir məqamı da vurğulamaq istəyirəm ki, məktəb direktoru olaraq, daim kollektivi ruhlandırmağa çalışıram. Xüsusilə məktəbin fəaliyyəti ilə bağlı göstəriş və əmrlər verərkən bu amili əsas götürürəm. Belə yanaşma kollektivdə əmək fəaliyyətinin daha səmərəli təşkilinə, yüksək nəticə əldə edilməsinə şərait yaradır.

Ümumiyyətlə, təcrübə göstərir ki, məktəbə rəhbərlik edən hər bir şəxs fəaliyyətində demokratik prinsipləri əsas tutmalıdır. Direktor işinə mənəvi-psixoloji cəhətdən hazır, həmçinin, liderlik xüsusiyyətinə malik olmalıdır. O, həm də ünsiyyətcilliyi, tənqidə dözümü, obyektivliyi və operativliyi ilə seçilməli, əməyi və ictimai fəallığı stimullaşdırmalıdır.

Həm də qeyd edim ki, məktəb direktorunun xarakteri, əməyə münasibəti bir sıra məsələlərə təsir göstərir. Ona görə də ümumi təhsil müəssisəsinə rəhbərlik edən şəxs özünə qarşı tələbkar yanaşmalı, başqlarına nümunə olmağı bacarmalıdır. Çünki məktəb şəraitində rəhbərliyin müsbət və ya mənfi xüsusiyyətləri tədricən kollektivdə də təşəkkül tapır, əmək fəaliyyətinə təsir edir. Əlbəttə ki, müsbət xüsusiyyət kollektivdə ruh yüksəkliyinin, mənfi xüsusiyyət isə gərginliyin yaranmasına səbəb olur.

Bu baxımdan məktəbimizdə hər kəs üçün əlverişli şərait mövcuddur. Hamı məktəbə ruh yüksəkliyi ilə gəlir, gərginlik olmayan bir mühitdə fəaliyyət göstərir. Bu hal təlim göstəricilərinə müsbət təsir göstərir.

**İşin yaradıcı və sağlam mühit üzərində qurulduğu məktəbimizdə idarəetmə demokratik prinsiplərə əsaslanır. Burada müəllim və şagirdlər üçün inkişafa xidmət edən əlverişli şərait yaradılıb. Bu mühit sağlam düşüncələrin təşəkkülünə, yaradıcı qabiliyyətin inkişafına, fikir və ideyaların sərbəst irəli sürülməsinə şərait yaradır, eləcə də məktəbə inamı artırır.**

### Keyfiyyəti artırmaq üsulları

Məktəbimizdə müəllimlərin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması da xüsusi fikir verilən məsələlərdəndir. Mütəmadi olaraq, onların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə təlim və seminarlarda iştirakı təmin edilir. Bu zaman müəllimlərin İKT-dən istifadə bacarıqlarının artırılmasına, elmdə baş verən yenilikləri mənimsəməsinə diqqət yetirilir.

Məktəbimizdə müəllimlər arasında təcrübə mübadiləsi də həyata keçirilir. Gənc müəllimlərin daha təcrübəli həmkarlarından öyrənməsinə şərait yaradılır. Bu məqsədlə dərs dinləmələri təşkil olunur. Bununla yanaşı, müəllimlər arasında rəqabət mühiti formalaşdırılır. Daha təcrübəli və peşəkar müəllimlər mükafatlandırılır, nümunə göstərilir. Həmçinin, müəllimlər arasında kollektivçiliyin güclənməsinə ciddi önəm verilir.

Bütün bu tədbirlər müəllimlərin fəaliyyətinin daha da təkmilləşməsinə, peşəkarlığının yüksəlməsinə şərait yaradır ki, bu da tədrisin keyfiyyətini və şagirdlərin nailiyyətlərini artırır.

### Hərtərəfli inkişaf və gələcəyə ümid

Məktəbdə yaradılan sağlam mühit və yanaşma, kreativ fikirlərə, innovativ metodlara açıq münasibət şagirdləri daha yaradıcı olmağa həvəsləndirir, onların yeniliklərə meylini gücləndirir. Dərslərdə müasir texnologiyalara üstünlük verilməsi isə onların daha savadlı və bacarıqlı yetişməsində əhəmiyyətli rol oynayır.

Qeyd edim ki, məktəbdə şagirdlərə yüksək səviyyədə biliyin verilməsi ilə yanaşı, onların məktəbdənkənar tədbirlərə cəlb olunmasına da xüsusi diqqət yetirilir. Bu da onların yaradıcılıq imkanlarını artırır. Müxtəlif dərnəklər, idman oyunları və digər bu kimi tədbirlər həm şagirdlərin asudə vaxtını səmərəli keçirməsinə, həm də onların bilik və bacarıqlarını nümayiş etdirməsinə şərait yaradır.

Təcrübəyə əsaslanaraq deyə bilərəm ki, məktəbdənkənar tədbirlərdə fəal olan şagirdlər dərslərini də yaxşı oxuyurlar. Onlar müstəqil və kreativ fikirləri, innovativ yanaşmaları ilə seçilirlər. Həmçinin, məktəbdənkənar tədbirlər şagirdlərin vətənpərvər, dövlətini, xalqını sevən layiqli şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Sonda qeyd edim ki, məktəblinin cəmiyyətdə layiqli yer tuta biləcək hərtərəfli şəxsiyyət kimi yetişdirilməsi qarşımızda duran əsas vəzifədir. Bunun üçün isə ümumi təhsil müəssisəsində əlverişli mühitin olması vacibdir.

Əminəm ki, yaradıcı və sağlam mühitdə təlim-tərbiyə görmüş məktəbli gələcəkdə ölkəmizə böyük fayda verə bilər.



# Eksternat imtahanları keçiriləcək



Əvvəlki illərdə ümumi təhsil məktəblərində oxuyub tam orta təhsilini bitirə bilməyən şəxslər üçün 15-16 may tarixlərində eksternat qaydasında imtahanlar keçiriləcək.

Qeydiyyat və sənəd qəbulu 5-30 aprel tarixlərində (yalnız iş günləri saat 14:00-dan 17:30-dək) Bakı Şəhəri üzrə Təhsil İdarəsində aparılacaq.

Eksternat imtahanlarında uğur qazanmış şəxslər tam orta təhsil haqqında sənəd (attestat) almaq üçün Dövlət İmtahan Mərkəzi tərəfindən tam orta təhsil səviyyəsi üzrə keçirilən buraxılış imtahanlarında iştirak etmək hüququna sahib olacaqlar.

Qeyd edək ki, sərbəst (eksternat) təhsilalma formasının tətbiqi müxtəlif səbəblərdən tam orta təhsil səviyyəsini başa vura bilməyən şəxslərə buraxılış imtahanı verərək həmin səviyyə üzrə müvafiq təhsil sənədi almaq üçün şərait yaratmaq məqsədi daşıyır.

# Paytaxt məktəblərində "Eko-təqdimatlar" layihəsi

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində "Eko-təqdimatlar" layihəsi davam edir.

Layihənin əsas məqsədi şagirdlərin milli sərvətlərimiz, dəyərlərimiz və digər aktual ekoloji mövzular üzrə məlumatlandırılmasından ibarətdir.

BŞTİ və SOCAR-ın Ekologiya İdarəsi mütəxəssislərinin birgə əməkdaşlığı ilə təşkil olunan müxtəlif aktual ekoloji mühazirələrə müvafiq istiqamətlər üzrə tədqiqatlar aparan ekoloqlar və ekspertlər dəvət olunublar.

Mart ayı ərzində Nizami rayonu üzrə 210, Pirallahı rayonu üzrə 235, Sabunçu rayonu üzrə 78, Suraxanı rayonu üzrə 232 və Xəzər rayonu üzrə 323 nömrəli tam orta məktəblərdə "Sağlam həyat tərzi", "Alternativ və bərpa olunan enerjinin istifadəsi", "Azərbaycanın biomüxtəlifliyi", "Səs-küy çirklənməsi" və "Nə edək?" mövzularında maarifləndirici təqdimatlar keçirilib.

Şagirdlər üçün maraqlı olan təqdimatların keçirilməsi tədris ilinin sonunadək paytaxtın digər ümumi təhsil məktəblərində davam edəcək.

# Müəllim və valideynlərin müraciəti dinlənilib

Martın 30-da paytaxtda müəllim və valideynlərin növbəti səyyar qəbulu keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və struktur bölmə əməkdaşlarının iştirak etdiyi səyyar qəbul vəzifə funksiyalarının tələb olunan səviyyədə yerinə yetirilməsi istiqamətində müəssisə rəhbərlərinin məsuliyyətinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərdə daha sağlam və yaradıcı mühitin təmin olunması üçün sistemli iş aparmaq məqsədlərinə xidmət edir.

Bakıdakı 288 nömrəli tam orta məktəbdə paytaxtın Qaradağ, Yasamal və Səbail rayonları üzrə keçirilmiş qəbula gələn vətəndaşlar məktəblərin maddi-texniki təminatı, I sinfə qəbul, tədris resursları və digər müvafiq məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar tərəfindən qaldırılmış bütün məsələlər qeydiyyata alınıb. Bir sıra müraciətlər yerindəcə həllini tapıb, digər məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin icrasına başlanılıb.

# Yeni müsabiqəyə start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil məktəbləri və uşaq-gənclər inkişaf mərkəzlərinin şagirdləri arasında gənc bioloqların yaradıcılıq müsabiqəsinə start verilib.

Məktəblilərin biologiya elminə olan marağının daha da artırılması, onların bu sahədə nəzəri və təcrübi biliklərinin təkmilləşdirilməsi və istedadlı şagirdlərin aşkara çıxarılması məqsədilə təşkil edilən müsabiqədə IX, X, XI sinif şagirdləri iştirak edir.

Müsabiqənin məktəbdaxili mərhələsində iştirakçılar 2 akademik saat ərzində ümumi təhsil və uşaq-gənclər inkişaf mərkəzlərinin proqramlarına uyğun olaraq biologiya fənni üzrə 30 sualdan ibarət test tapşırığını və 2 məsələni yerinə yetirirlər.

Müsabiqənin I mərhələsi aprelin 23-də yekunlaşacaq. Məktəbdaxili yarışmada qalib gələn komandalar növbəti mərhələdə iştirak etmək hüququ qazanacaq.

Gənc bioloqların yaradıcılıq müsabiqəsinin II mərhələsi 25-30 aprel tarixlərində keçiriləcək. II mərhələdə hər rayon üzrə I yeri qazanmış komanda növbəti mərhələdə iştirak etmək üçün vəsiqə alacaq. Gənc bioloqların yaradıcılıq müsabiqəsinin III mərhələsi isə 2-7 may tarixlərində baş tutacaq.

# Gələcəkdən keçmişə məktub

**Esse**

**Şəms ABBASOVA,**
*Bakı şəhər 82 nömrəli məktəbin VI sinif şagirdi*

"Əziz atam, salam! Yəqin təəccüb edirsən atam sözünə. Mən sənin hələ anadan olmamış qızınam. Mən sənə bu məktubu gələcəkdən yazıram. Bilirəm, çox qəribə səslənir. Ancaq biz yaşadığımız dövrdə artıq bu mümkündür. Bizim oxuduğumuz məktəbdə hər uşağa bir şans verildi ki, keçmişə məktub yazsın. Mən də səni seçdim.

Mən sən bu dünyadan köçəndən, sən şəhid olandan sonra doğulmuşam. Sənin evində çox böyük bir şənlik var. Ağlım kəsəndən anam- atana bax, bu sənin atandır,- deyir.

Əzizim, sənə deməyə o qədər sözüm var ki...

Bilmirəm hansından başlayım. Məni görənlər deyir ki, mən sənə oxşayıram. Bilirsən, mən 2 dəfə Qarabağa getmişəm. Təəccüblənmə, axı biz torpaqlarımızı qaytarmışıq. Ərazimiz bərpa olunub, xarici turistlərin ardı-arası kəsilmir. Bütün dünyaya Qarabağın gözəlliyindən danışırlar. Şuşada Qarabağ uğrunda şəhid olan əsgərlərimizin şərəfinə əzəmətli bir abidə ucaldılıb.

Mənim əziz atam, bu məktuba ürəyimi qoya bilsəydim, sənə göndərərdim. Mən səni çox istəyirəm. Fəxr edirəm ki, şəhid övladıyam. Sənə söz verirəm ki, sən də göylərdən baxıb mənimlə fəxr edəcəksən.

Əlvida, mənim qəhrəman atam!".

Məni dönə-dönə oxudu. Sonra qatlayıb döş cibinə qoydu. Sanki sığal çəkirmiş kimi əlini bir neçə dəfə cibinə sürtdü. Anamın əlinin istisini üzümdə hiss etdim. Yatmışdım. Bunlar yuxu imiş. Nə qəribə yuxu idi. Gələcəkdən keçmişə yazılmış bir məktub idim.

Bir anlıq fikirləşdim. Görəsən, mənə belə bir şans verilsəydi, mən kimə məktub yazardım?! Aprel şəhidlərinin xatirəsinə...

## “Ölkəmizi tanıyaq” tur-aksiya iştirakçıları Gəncədə olub

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyanın növbəti mərhələsi çərçivəsində İmişli rayon ümumi təhsil məktəblərinin 9-11-ci sinif şagirdlərindən ibarət qrup Gəncə, Göygöl və Şəmkir rayonlarında səfərdə olub.

Tur-aksiyada rayonun ümumi təhsil məktəblərindən təhsili və nümunəviliyi ilə fərqlənən 40 nəfər şagird iştirak edib.

Şagirdlərin yola salınma mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, məktəb rəhbərləri, müəllimlər və valideynlər iştirak ediblər.

Mərasimdə icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Cabbarova çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin hər yerində həyata keçirilən “Ölkəmizi tanıyaq” layihəsinin əhəmiyyətindən danışıb. O, tur-aksiyanın ölkəmizin tarixinin, mədəniyyətinin və adət-ənənələrinin şagirdlər tərəfindən dərindən öyrənilməsinə xidmət edəcəyini, onlarda xoş təəssüratlar yaradacağını vurğulayaraq layihəyə qoşulan şagirdlərə xoş istirahətlər arzulayıb.

Şagirdlər əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan parkda ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Tur-aksiyanın birinci günü şagirdləri ölkəmizin ikinci böyük şəhəri olan Gəncənin Zəfər Tağı önündə Gəncə Şəhər Təhsil İdarəsinin əməkdaşları, şəhər icra hakimiyyəti aparatının və ictimaiyyətin nümayəndələri, Gəncə Şəhər Uşaq Yaradıcılıq Mərkəzinin rəqs kollektivinin üzvləri qarşılayıblar.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## Məktəblilər “Gəncə qala qapısı”nda ekskursiyada

Samux Rayon Təhsil Şöbəsinin tabeliyində fəaliyyət göstərən Zazalı kənd tam orta məktəbinin şagirdləri “Gəncə qala qapısı”nda ekskursiyada olublar.

Ekskursiyanın həyata keçirilməsində məqsəd məktəblilərdə tarix fənninə olan marağın artırılması və tarixi abidə və muzeylərlə əyani tanışlıq yaratmaq olub.

Səfər zamanı şagirdlər bələdçilər tərəfindən Gəncə şəhərinin tarixi keçmişi ilə bağlı məlumatlandırılıb, xanlıq dövründə əsgərlərin istifadə etdiyi dəmir dəbilqə, silah və geyimlər ilə tanış ediliblər.

Sonda məktəblilər xatirə şəkli çəkdiriblər.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## ADAU-da aprel döyüşlərinin ikinci ildönümünə həsr olunmuş tədbir keçirilib

ADAU-nun mətbuat xidmətindən bildirilib ki, aprel döyüşlərinin ildönümü ilə əlaqədar təhsil müəssisəsində “İctimai elmlər və multikulturalizm” kafedrasının əməkdaşları tədbir keçirib. Əvvəlcə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Tədbiri açan kafedra müdiri, professor Azad Bayramov aprelin 2-dən 5-dək davam edən döyüşlər zamanı ordumuzun qətiyyətindən, hər an torpaqlarımızı azad etmək əzmindən danışıb.

Professor deyib ki, həmin döyüşlərdə Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər düşmən qüvvələrindən tam təmizlənib. Horadiz şəhərinin erməni təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli “Lələtəpə” yüksəkliyi də bölmələrimizin nəzarətinə keçib. Eyni zamanda, Ermənistan Silahlı Qüvvələrinin işğal olunan ərazilərimizdə fəaliyyət göstərən komanda-qərargah məntəqəsi qoşunlarımızın endirdiyi dəqiq cavab atəşi ilə darmadağın edilib.

Kafedranın müəllimlərindən Ə.Kazımov, E.Aslanov, tələbələrdən A.Musayev, O.Muradzadə, H.Məmmədov və A.Novruzova millətimizə şərəf, ordumuza qürur verən döyüşün tarixi mahiyyətindən söz açıb, qələbəyə gedən yolda Prezident, Ali Baş Komandan İlham Əliyevin gördüyü işləri faktlarla auditoriyaya çatdırıblar. Bildiriblər ki, düşmən hücumlarına layiqli cavab verən igidlərimiz torpaqlarımızın sahibsiz olmadığını bir daha sübut etdilər. Ən başlıcası, aprel döyüşləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bir çox mətləblərə aydınlıq gətirdi. Gücümüz dünyaya bəyan oldu.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov toplantıya yekun vuraraq deyib ki, 4 günlük döyüşlərdə Azərbaycan ordusu 2000 hektar ərazisini işğaldan azad edib. Məlum aprel hadisələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində, sözün həqiqi mənasında, dönüş nöqtəsi oldu. Bu döyüşlər həm də tərəflərin nəyə, hansı gücə və potensiala malik olduğunu açıq şəkildə göstərdi. Aprel döyüşləri Ermənistan ordusunun çox acınacaqlı bir durumda olduğunu sübut etdi. Məlum oldu ki, düşmən ordusunun maddi-texniki bazasını, təchizatını yalnız dünyanın ən geridə qalan ölkələri ilə müqayisə etmək olar. Sevindirici haldır ki, bu gün Azərbaycan ordusu xalqımıza məxsus olan zəngin hərbi ənənələri böyük məsuliyyət və şərəflə davam etdirir. Azərbaycan ordusunun qüdrətlənməsi və inkişafı ilə bağlı ən önəmli və danılmaz fakt isə ondan ibarətdir ki, cənab Prezident İlham Əliyev ordu quruculuğuna xüsusi diqqət və qayğı ilə yanaşır.

## “Şəhidlər ölməz, Vətən bölünməz!”

Zaqatala rayonunda fəaliyyət göstərən ümumi təhsil məktəblərində aprel döyüşlərinə həsr olunmuş “Şəhidlər ölməz, Vətən bölünməz!” adlı silsilə tədbirlər keçirilib. Tədbirlərdə həlak olanların xatirəsi yad edilib və şagirdlərə tarix müəllimləri tərəfindən ətraflı məlumatlar verilib.

Texniki fənlər təmayüllü liseyin müəllim və şagird kollektivi Zaqatalada yerləşən “Ana fəryadı” abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

**Vüsalə BƏDƏLOVA,**
*Zaqatala Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Narkomaniya ümumbəşəri bəladır”

Ağstafa şəhər 3 nömrəli tam orta məktəbdə “Narkomaniya ümumbəşəri bəladır” mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə icra hakimiyyətinin, təhsil, polis şöbələrinin, gənclər və idman idarəsinin məsul şəxsləri, məktəbin pedaqoji kollektivi və şagirdlər iştirak ediblər.

Polis şöbəsinin əməkdaşları narkomaniyaya qarşı görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə geniş məruzə ilə çıxış ediblər.

Çıxış edənlər şagirdləri pis vərdişlərdən uzaq olmağa çağırıblar.

Sonda şagirdləri maraqlandıran suallara aydınlıq gətirilib və tədbir iştirakçılarına “Narkomaniyaya yox deyək!” adlı videoçarx nümayiş etdirilib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Ən yaxşı təqdimat”

Sabirabad Rayon Təhsil Şöbəsində ümumi təhsil məktəblərinin şagirdləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar “Ən yaxşı təqdimat” müsabiqəsinin rayon mərhələsi keçirilib.

Məqsəd müasir müstəqil Azərbaycanın memarı Heydər Əliyevin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsini daha da gücləndirməkdir.

IX-XI sinif şagirdlərinin iştirak etdiyi rayon mərhələsində 12 təqdimat arasında şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Tünzalə Hüseynli müsabiqənin respublika mərhələsinə vəsiqə qazanıb.

Müsabiqənin apreldə keçiriləcək ölkə mərhələsində iştirakçıların çıxışı maksimum on balla qiymətləndiriləcək.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# “Uşaqlıqdan məktəbin, müəllim peşəsinin vurğunu olmuşam”

### *Cavad Əliyev:* “Mən öz seçdiyim peşəmlə fəxr edirəm”



**Müəllimlərin İşə Qəbulu imtahanında iştirak edərək 48 bal toplayıb, Şəki rayonunun Çayqaraqoyunlu kənd tam orta məktəbinə coğrafiya müəllimi təyin edilmiş Cavad Əliyev 1993-cü ildə Sumqayıt şəhərində dünyaya göz açıb. 2000-ci ildə Sumqayıt şəhər 30 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub və 2011-ci ildə orta təhsilini başa vurub.**

**O, 2011-2015-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Quba filialında tarix-coğrafiya müəllimliyi ixtisası üzrə ali təhsil alıb.**

**Müəllimlik peşəsinə yiyələnmiş Cavad Əliyevin təəssüratlarını öyrənmək üçün onun dərs dediyi məktəbdə olduq və ona bir sıra suallarla müraciət etdik.**

*- Cavad müəllim, necə oldu ki, müəllimlik peşəsini seçdiniz?*

- Mən uşaqlıqdan məktəbin, müəllim peşəsinin vurğunu olmuşam. Artıq 7 aydır ki, sevərək seçdiyim peşəylə məşğulam.

*- İşlədiyiniz məktəb doğulub boya-başa çatdığınız Sumqayıtdan çox uzaqdadır. Gəlib-getmək sizin üçün çətinlik yaradırmı?*

-Xeyr. Müəllimlik peşəsi nə qədər çətindirsə, o qədər də şərəfli bir peşədir. Mənə sual versəydilər ki, həyata bir də gəlsəydiniz hansı peşəni seçərdiniz? Düşünmədən deyərdim ki, əlbəttə, müəllimlik peşəsini... Mən öz seçdiyim peşəmlə fəxr edirəm. Səs-küylü sinif otaqları, mehriban, güləriz iş yoldaşlarım hər şeyə dəyər.

*-Dərsdənkənar vaxtlarda nə ilə məşğul olursunuz?*

- Əmək fəaliyyətinə başlamağımdan az vaxt keçməsinə baxmayaraq, kəndin xeyir-şərindən kənarda qalmıram. Onların hər bir işini doğma işim hesab edirəm.

*- Hazırda tədris etdiyiniz fənn üzrə şagirdlərinizin bilik səviyyəsi sizi qane edirmi?*

- Doğrusu, əvvəllər şagirdlərdə oxumağa həvəs az idi. Düşünürdüm ki, belə də olmaz. Amma ilk gündən onlarla yaratdığım isti münasibət bütün problemlərin həlli üçün əsas şərt oldu.

*- Müəllim olmaq istəyənlər əvvəlki illərlə müqayisədə ildən-ilə artır. Gənc müəllim kimi onlara nə tövsiyə edirsiniz?*

- Deyərdim ki, məqsədyönlü olsunlar, qərar verməzdən əvvəl götür-qoy etsinlər, sonra da öz güclərini, potensiallarını məqsədlərinə çatmağa həsr etsinlər. Özü də heç nəyə baxmadan, yorulmadan... Bir də ki, burada çətin bir şey yoxdur. Əsas məqsəddir!

**Mahal MƏMMƏDOV,**
*Şəki Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Müəllim təcrübəsini paylaşır”

Şəmkir Gənc Müəllimlər Birliyi və Şəmkir Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə dünyada minlərlə insanın fikir platforması olan TED layihəsi formatında “Müəllim təcrübəsini paylaşır” adı altında layihə çərçivəsində ilk görüş keçirilib.

Layihənin əsas məqsədi istedadlı, bacarıqlı, öz ağlı və biliyi hesabına uğur əldə etmiş gənc müəllimlərimizə özlərini tanıtmaq, bacarıqlarını paylaşmaq imkanı qazandırmaqla təhsil sahəsində olan bilik və təcrübələrinin inkişaf etdirilməsinə nail olmaqdır.

Layihə çərçivəsində rayonun gənc bacarıqlı və istedadlı müəllimləri öz təcrübələrini həmkarları ilə paylaşıblar. Müzakirə mövzuları sırasına müəllim və şagird münasibətləri, onların cəmiyyətdəki rolu, şagirdin uğur qazanmasında müəllimin əsas funksiyası və müasir dövrün müəllim modeli daxil edilib. Müzakirələrdə iştirakçılar fəal iştirak edərək, söylənilən fikirlərə münasibət bildiriblər.

**Kənan İBRAHİMOV,**
*Şəmkir Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# 3 "məktəb xəstəliyi"ndən biri



## Onun yaranmasında məktəbdən çox, valideynlər rol oynayır

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### Onurğa əyriliyi nə vaxtdan başlayır?

Mütəxəssislər hesab edir ki, onurğa sütununun bütün fizioloji əyrilikləri uşaq artıq 5-6 yaşlarına çatanda əmələ gəlir və hələ məktəbə başlamadan insanın qaməti formalaşır. Hazırda 50-80 faiz uşaqda qamətin bu və ya digər əyrilikləri müşahidə olunur. 5-9 faiz uşaqlarda isə onurğa sütununun ən ağır formalı deformasiyalarından hesab edilən və son nəticədə hətta əlilliyə də səbəb ola bilən skolioz xəstəliyi aşkar edilir.

Onurğanın ağır formalı əyrilikləri uşağı fiziki cəhətdən eybəcərləşdirir, onurğa sütununun donqarına və əlilliyə də gətirib çıxara bilir. Bundan başqa, onurğanın ağır formalı əyrilikləri bir çox orqan və sistemlərin fəaliyyətinə də mənfi təsir göstərir. Bu səbəbdən də profilaktik olaraq uşağı ildə 1 dəfə həkim-ortopedə göstərmək lazımdır.

Maraqlıdır ki, onurğa sütununun əyriliyinə səbəb olan müxtəlif amillər arasında hətta hamiləlik zamanı ananın düzgün qidalanmaması, yeni doğulmuş körpəyə 2 yaşına qədər ana südü verilməməsi də göstərilir. Üstəlik, bu, başlıca amillər siyahısında yer alır. Bundan başqa, onurğa əyriliyinin əmələ gəlməsi səbəbləri arasında anadangəlmə skelet anomaliyaları da mühüm rol oynayır.

### Niyə məktəblilər?

Məktəbyaşlı uşaqlarda bu problemə daha çox rast gəlinməsi isə düzgün oturma bacarığının olmamasıyla, həmçinin məktəbli çantalarının həddən artıq ağırlığı ilə əlaqələndirilir.

Yuxarıdakı faiz göstəricilərindən də göründüyü kimi, uşaqların əksəriyyəti məktəbə gələndə artıq bu problem yaranmış olur. Məktəb həmin problemi ya inkişaf etdirə, ya da ləngidə bilər. Müəllim şagirdlərin parta arxasında oturmağına nəzarət edə, dərs sırasında şagirdlərin müxtəlif hərəkətlər etməsini təmin edə bilər. Məktəblərdə səhər dərs başlamadan hər bir uşağın idman etməsi təşkil edilə bilər. Bu tədbirlər onurğa sütununun yaranmaqda olan problemlərinin qarşısını alar, yaxud ləngidər. Həmin hərəkətlər bədənin müxtəlif əzələ qruplarının kifayət qədər möhkəmlənməsinə və qamətin düz olmasına kömək edir.

### Valideyn bilməlidir ki...

Hökməli Tibb Məntəqəsinin baş həkimi, pediatr Hürü Osmanova "Azərbaycan müəllimi"nə bildirib ki, onurğa sütununun problemlərinin vaxtında aşkarlanması, qarşısının alınması, hətta heç başlamaması üçün valideynlərin və məktəbin üzərinə çox böyük iş düşür: "Adətən, bu problemlərlə uşaqlar düzgün olmayan qidalanma, yetişdirilmə şəkli, oturma vərdişi ilə bağlı olaraq qarşılaşırlar. Sakit dayanması üçün uşağın saatlarla telefonla oynamasına mane olmayan valideyn bilməlidir ki, körpənin boynu əyri formalaşacaq. Uşaqda vaxtında aşkarlanan bu tip problemlərin sonradan qarşısını almaq mümkündür. Əsas odur ki, valideyn uşağına qarşı diqqətli olmalıdır. Çiyninin duruşuna, yerişinə fikir verməlidir. Mütəmadi müayinələrə gətirilən uşaqlarda bu problemi vaxtında aşkarlamaq mümkün olur. Müxtəlif səbəblərdən müayinələrə vaxtında gələ bilməyənlər isə diqqətli olmalıdırlar. Hər zaman valideynlərə tövsiyə olaraq uşağa masaj və idman hərəkətlərinin etdirilməsinin çox vacib olduğunu deyirəm. Qida rasionunda sümüyün inkişafına kömək edən süd və süd məhsulları mütləq olmalıdır. Bu problemlə qarşılaşıblarsa, uşaqların üzgüçülüklə məşğul olması təmin edilməlidir. Hətta problem olmadan da, üzgüçülük uşağın ümumi inkişafında, qamətinin formalaşmasında olduğu qədər əhəmiyyətlidir".

### 3 "məktəb xəstəliyi"

Milli Təhsil Texnologiyaları Mərkəzi İctimai Birliyinin sədri Şamil Süleymanlının fikrincə, şagirdlər arasında psixoloji, fiziki sağlamlıq və inkişaf problemlərinin olması Təhsil Nazirliyinin həyata keçirdiyi layihə çərçivəsində ortaya çıxıb. Layihə çərçivəsində aparılan tibbi monitorinqlər 3 "məktəb xəstəliyi"nin geniş yayıldığını göstərib: normal fiziki inkişafın pozulması problemləri, qamət problemləri, görmə qabiliyyətinin pozulması. 2014-cü ildən başlayaraq 2500 uşaq Azərbaycan Tibb Universitetinin həkimləri tərəfindən müayinələrə cəlb edilib. Müəyyən olunub ki, görmə problemləri ibtidai (I-IV) siniflərdə 29 faiz, orta (V-IX) siniflərdə 25 faiz, yuxarı (X-XI) siniflərdə 45 faiz təşkil edir. Fiziki inkişafdan qalanlar (oğlanlar arasında) I sinifdə 19 faiz, V sinifdə 33 faiz, XI sinifdə 40 faizdir.

Uşaqların arasında piylənmə, boy kiçikliyi, cılızlaşma müşahidə olunub.

Qapalı, hərəkətsiz, zəif işıqlandırılan, gigiyenik tələblərə cavab verməyən siniflərdə şagirdlərin bu cür problemlərinin inkişaf etməməsi mümkün deyil: "Uşaqlar günün, yəni oyaq vaxtının 25 faizini sinifdə keçirir. Biz çalışırıq ki, uşaq vaxtının həmin 25 faizini doğru mühitdə olsun. Qalan 75 faizi valideynin, icra hakimiyyətlərinin və başqalarının üzərinə düşür. Məktəbin payına düşən zaman kəsiyində bu problemlər yaranmasın, mövcuddursa, inkişaf etməsin. Bu məqsədlə sağlam siniflər qurduq. Artıq 38 məktəbdə 168 sinfimiz var".

### "Sağlam təhsil-sağlam millət"

Məktəbdə şagirdləri yüksək intellektli insanlar kimi formalaşdırmaqla yanaşı, onları fiziki-psixoloji baxımdan da təkmil insan kimi yetişdirilməsi məqsədi ilə Təhsil Nazirliyi "Sağlam təhsil-sağlam millət" layihəsini davam etdirir. Layihə məktəblərdə sağlamlıq mərkəzlərinin açılması, imkansız ailələrin uşaqlarının həmin mərkəzlərdə vaxtaşırı müayinədən keçirilməsi, sinif kurikulumları planlaşdırılarkən sağlam həyat tərzini təbliğ edən mövzulara genis yer verilməsi, siniflərin tərtibat və təchizatında dəyişiklik etməklə yanaşı, oturacaqlı masaların ayaqüstü iş masalarıyla əvəz edilməsini nəzərdə tutub. Ş.Süleymanlı bildirib ki, adi siniflərdən fərqli olaraq, sağlam siniflər daha çox maliyyə vəsaiti tələb edir. İbtidai siniflər üçün belə siniflərin qurulması 950 manat, V-IX siniflər üçün isə 550 manat təşkil edir. Bundan başqa, təlim yükünün minimuma endirilməsi, uşaqların psixoloji təzyiqlərdən qorunması da vacib sayılan məsələlərdəndir.

Azərbaycan Tibb Universiteti Tədris-Terapevtik Klinikasının direktoru Hüseyn Qabulov "Azərbaycan müəllimi"nə açıqlamasında deyib ki, "Sağlam təhsil" siniflərində təhsil alan məktəblilərin sağlamlığına davamlı nəzarət bir sıra qanunauyğunluqları üzə çıxarıb. İlk sağlamlıq monitorinqləri göstərib ki, tədrisə yeni başlayan uşaqlarda artıq bir sıra sağlamlıq problemləri - xüsusilə də, qamət və görmə ilə əlaqədar problemlər yaşanır. Belə ki, 2014-cü il oktyabr ayında müayinə edilən tədrisə yeni başlayan ənənəvi sinif şagirdlərinin 16,7 faizində qamət pozulması aşkar edilib. 2016-cı ilin mayında (2-ci tədris ilinin sonu) ənənəvi siniflərdə uşaqlar arasında qamət pozğunluğu 2 dəfə artaraq 34 faizə qalxıb. 2017-ci ilin mayında (3-cü tədris ilinin sonu) bu rəqəm 37 faizə çatıb. "Sağlam təhsil" siniflərində isə cüzi dəyişiklik nəzərə çarpır: 2014-cü ilin oktyabrında 22,4 faiz, 2016-cı ilin mayında - 25,1 faiz, 2017-ci ilin mayında isə 24,7 faiz təşkil edib.

H.Qabulovun sözlərinə görə, sadəcə qamət deyil, şagirdlərin görmə qabiliyyəti ilə bağlı da maraqlı müşahidələr ortaya çıxıb. Onun sözlərinə görə, "Sağlam təhsil" siniflərində yaradılan şəraitin və tədrisin səmərəli təşkilinin görmə funksiyasına təsirini öyrənmək məqsədilə 2014-cü ildən başlayaraq həm "Sağlam təhsil" sinifləri, həm də paralel ənənəvi sinif şagirdləri oftalmoloji müayinədən keçirilir: "Görmə orqanının funksional inkişafı uşaq doğulan andan başlayaraq 12-14 yaşına qədər davam edir. Lakin normal inkişaf üçün mənfi təsir göstərən amillər olmamalı, əlverişli mühit yaradılmalıdır. Bununla yanaşı (təbii və süni işıqlanma səviyyəsi, boya müvafiq partalar və s.), şagirdlər boyun və göz hərəkətləri də həyata keçirir. 3 il ərzində aparılan monitorinqlərin nəticələri göstərib ki, "Sağlam təhsil" sinfinin şagirdlərində tədris müddətində görmə qabiliyyəti yaxşılaşıb. Belə ki, təhsilə yeni başlayan "Sağlam təhsil" sinfi şagirdlərinin 2014-cü ilin oktyabrında aparılan müayinələr zamanı yalnız 52,4 faizində normal uzaqdangörmə itiliyi qeyd edilirsə, 2016-cı ilin mayında belə uşaqların sayı 75,3 faiz, 2017-ci ilin mayında isə 76,2 faiz təşkil edir. "Sağlam təhsil" siniflərindən fərqli olaraq ənənəvi siniflərdə 2-ci tədris ilinin sonuna belə uşaqların sayı bir qədər artsa da, 2014-cü ilin oktyabrında 63 faiz; 2016-cı ilin mayında 71,7 faiz, 2017-ci ilin mayında, yəni 3-cü sinfin sonunda azalaraq 68,5 faiz təşkil edib".

### Məktəb xəstəliyi, yoxsa məktəbdə üzə çıxan xəstəliklər?

Müayinə nəticələrinin təhlili birmənalı olaraq göstərir ki, "Sağlam təhsil" siniflərində təşkil eidlmiş tədris şəraiti təhsilalanların sağlamlığının qorunması üçün daha əlverişlidir, bir sıra sağlamlıq problemlərinin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Lakin bu rəqəmlər həm də onu deməyə əsas verir ki, bir problem məktəbyaşlı uşaqlarda ortaya çıxırsa, bunun günahkarı sadəcə məktəb deyil. H.Qabulovun da qeyd etdiyi kimi, görmə qabiliyyətinin hətta adi siniflərdə belə yaxşılaşma göstəricisi artıbsa, deməli, o problemi yaradan məktəb deyil. "Məktəb xəstəliyi" deyə xarakterizə olunan qamət və görmə problemlərinin məktəbə qədər keçdiyi bir yol olmasa, bu problem ibtidai siniflərdə deyil, 5-9-cu siniflərdə üzə çıxar.

Bütün bunlara baxmayaraq, Təhsil Nazirliyi vaxtının 25 faizini məktəbdə keçirən yeni nəsil qarşısında məsuliyyətini dərk edir və onun sağlam yetişməsi üçün tədbirlər görür. Məktəbdə üzə çıxan həmin problemlərin inkişaf sürətinin ləngidilməsi, xəstəliklərin aradan qaldırılması üçün lazım olan şəraiti yaratmağa çalışır.



# Əsas nəticə deyil, iştirakdır

## Finlandiya məktəblərində fiziki tərbiyə dərsləri bu prinsip üzərində qurulub

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Finlandiya məktəblərində il ərzində ən azı 5-6 dərs su hovuzunda keçirilir.

Finlandiyada idman malları satış mərkəzlərində bahalıqdır. Ancaq orta dolanışığı olan ailələr uşaqlarına işlənmiş xizək ala bilərlər və bu, heç bir kompleksə səbəb olmur. Əsas məqsəd uşağın aktiv fiziki həyatıdır, qalanları isə təfərrüatdır.

Bu məqam isə xüsusi diqqətəlayiqdir. Qəzetimizin sadiq oxucuları xatırlayarlar ki, Finlandiya təhsil sitemi özünün loyallığı, "yumşaqlığı" ilə seçilir. Şagirdlərə qiymət qoyulmur, proqramdan geri qalan uşağın digərlərinin səviyyəsinə çatdırılması üçün məktəb dəridən-qabıqdan çıxır. Bütün fənlərdə olduğu kimi, fiziki tərbiyə dərslərində də belədir: qiymətləndirmə uşağın göstərdiyi nəticəyə görə deyil, onun idmanla məşğul olmaq istəyinə əsasən tətbiq edilir. Yəni tutaq ki, uşaq qaçış yarışlarında sonuncu nəticəni əldə edib, ancaq qaçmaq üçün çox səy göstərib. Bax, qiymətləndirilən də elə bu səydir.

Finlandiyada məktəbin əsas məqsədi zorla savad öyrətmək deyil, sadəcə, uşaqları normativə yaxınlaşdırmaqdır. Bu tezisi rahatlıqla fiziki tərbiyə dərslərinə münasibətdə də işlətmək olar. Finlilər deyirlər: Bizim məqsədimiz mütləq idmançı yetişdirmək deyil. Niyyət fiziki cəhətdən sağlam nəsildir.

### Könüllülər ordusu

"Bu Finlandiyadır" saytının verdiyi məlumata görə, ölkədə 9000-dən çox idman klubu fəaliyyət göstərir. Prinsipcə, burada qeyri-adi heç nə yoxdur. Elə ölkələr var, idman klublarının sayı daha çoxdur. Maraqlı məqam başqadır: bu klubların hamısına rəhbərliyi könüllülər edir. Klublara gələnlərin əksəriyyətinin uşaqlar və yeniyetmələr olduğunu nəzərə alsaq, belə çıxır ki, hər bir finli könüllü şəkildə yeni nəslin sağlam böyüməsinə öz töhfəsini vermiş olur. Klubların əksəriyyəti qeyri-kommersiya strukturlarıdır, onlara üzv olmaq yetərlidir. Bu klubların hamısı milli idman assosiasiyalarının regional filiallarına üzvdürlər.

İndi isə daha bir maraqlı məqam - idmanın maliyyə qaynaqları. Bu problemi həll etmək üçün finlilər çox orijinal yol tapıblar. Belə ki, ölkədə lotoreya oyunları bir monopolist şirkət - "Veykkaus" milli lotoreyasının nəzarətindədir. Bu şirkət gəlirlərinin 25%-ni idmanın inkişafına xərcləyir. Proses, yəni maliyyə axını və maliyyələşdirmə Təhsil və Mədəniyyət Nazirliyi vasitəsilə həyata keçirilir. Bu yolla müxtəlif idman təşkilatları və klublarına qrantlar vasitəsilə pullar ayrılır. Klublar eyni zamanda məşhur idmançılar tərəfindən də maliyyələşdirilə bilərlər. İdman klublarının infrastrukturunun işlək vəziyyətdə saxlanılmasına isə bələdiyyələr cavabdehdirlər.

Finlandiyada gənc nəslin fiziki hazırlığı və idmanla məşğul olma prosesini fərqləndirən xüsusi tərəf könüllülərin fəaliyyətidir. 5,4 milyonluq əhalinin təqribən 600 min nəfəri bu sahədədir. Ümumi əhalinin təqribən 10%-i. Hesablamalara görə, könüllülərin il ərzində gördükləri işin pulla ekvivalenti haradasa 1,5 milyard dollar təşkil edir.

Fiziki hazırlıq amili şəhərsalma orqanlarının da diqqətindən yayınmır. Şəhərlərdə hər yerdə idman qurğuları fəaliyyətdədir, yolların çəkilişində, yeraltı keçidlərdə mütləq velosiped sürənlərin ehtiyacları nəzərə alınır. Hər bələdiyyənin balansında ən müxtəlif idman növləri üçün qurğular mövcuddur - su hovuzundan tutmuş futbol meydançalarınadək.

Finlandiyada fiziki tərbiyə sferası ilə məşğul olan 13 institut fəaliyyət göstərir. Burada idman sahəsinin peşəkarları yetişdirilir, bu sahədə onlara orta və ali savad verilir. Belə institutlarda idman texnologiyaları və müxtəlif testləşdirmə üzrə aparıcı mütəxəssislər çalışır. Yuveskül Universiteti və Olimpiya İdman Növləri Araşdırmaları İnstitutunda idman elm sahələri tədqiq edilir. Ümumiyyətlə, idman sahəsində finlandiyalı elm adamları bütün dünyada məşhurdurlar. Bir sıra fin şirkətləri idman sahəsində innovativ dizayn və proqramlara görə dünyada ad qazanıblar. Onların məhsullarının dünyada satılması üçün xüsusi proqram fəaliyyət göstərir: "Starta, diqqət, marş Finlandiya!".

### Milli qəhrəmanlar

Finlandiya əhalisinin 70%-i KİV vasitəsilə idman oyunlarını izləyir. Futbol, hokkey, qış idman növləri çox populyardır. Yeri gəlmişkən, Bakıda üçüncü dəfə keçiriləcək Formula-1 yarışları Finlandiyada da məşhurdur. Təsadüfi deyil ki, həmin yarışlara bilet alan əcnəbilərin statistikasında Finlandiya da öncül yerlərdən birini tutur.

Finlandiyada milli qəhrəmanlıq zirvəsinədək yüksəlmiş idmançılar var. Onların hamısı məktəblərdəki uğurlu fiziki tərbiyə dərsləri proqramları və könüllülərin rəhbərlik etdikləri idman klublarının məhsullarıdırlar. "Uçan fin" Paavo Nurmu uzun məsafələrə qaçış növündə 9 qızıl medalın sahibidir. 9 olimpiya qızılı və 3 gümüş medal qazanmış Nurmi 25 şəxsi və 2 qrup dünya rekordunun müəllifidir. Yuxa Kankkunen və Tomi Myakinen rallidə, Mika Hakkinen və Kimi Ryakinen Formula-1 yarışlarında çempion olublar. Teemmu Selyanne və Saku Koyvu hokkeydə, Laura Lepiste və Kiira Korpi fiqurlu konkisürmədə, Yari Litmanen, Sami Hyupia, Mikael Forssel futbolda Finlandiyanın adını dünyada məşhurlaşdırıblar. Bu məşhur idmançılar məktəblərdə fiziki tərbiyə dərslərini keçən uşaqlar üçün xüsusi stimuldurlar.

# Dünyanın beynəlmiləl universitetləri

**Oruc MUSTAFAYEV**

## Ali təhsildə beynəlxalq komponentlər güclənir

*Müasir dünyanın yeni reallıqları ali təhsil sistemindən yan ötmür. Ali təhsildə beynəlxalq komponentlərin getdikcə daha üstünlük təşkil etməsi qabarıq müşahidə olunan hallardan biridir. Əcnəbi tələbələr daha beynəlmiləl təhsil mühiti ilə seçilən, öz təhsil və karyera inkişaflarının təmin olunması üçün əlçatan təqaüdlər vəd edən universitetləri seçirlər.*

Böyük Britaniyanın "Times Higher Education" (THE) jurnalının budəfəki tədqiqatı dünyanın beynəlmiləl universitetlərinin reytinqinə (World's most international universities 2018) həsr olunub. Reytinqin tərtib edilməsi prosesində 4 göstərici - xarici tələbə və müəllimlərin faiz tərkibi, xarici alimlərlə müştərək yazılmış elmi nəşrlərin sayı, universitetin beynəlxalq nüfuzu (universiteti bəyənmiş xarici ekspertlərin səslərinin sayının yerli ekspertlərin səslərin sayına olan nisbəti) nəzərə alınıb. Ali məktəbin sözügedən tədqiqata cəlb olunması üçün universitetin THE-nin qlobal top-500-lüyünə daxil olması şərtdir. Bundan əlavə, ali məktəb sorğu çərçivəsində ekspertlərin minimum 100 səsini (öz ölkəsindən isə yerli ekspertlərin ən azı 50 səsini) əldə etməlidir.

Builki reytinqə dünyanın 30 ölkəsindən 200 universitet daxil olub. Reytinqin top-5-liyində İsveçrənin Ecole Polytechnique Federale de Lausanne (EPFL), ETH Zurich - Swiss Federal Institute of Technology Zurich, Çinin University of Hong Kong, Sinqapurun National University of Singapore, Böyük Britaniyanın Imperial College London kimi ali məktəbləri yer alıb.

Reytinqdə coğrafi mövqeyi, dövlət siyasəti və ya mədəniyyət ilə tələbələrin, əməkdaşların və ideyaların yerdəyişməsi üçün açıq olan universitetlər dominantlıq təşkil edir. THE qeyd edir ki, İsveçrənin reytinqdəki uğuru təəccüblü deyil, çünki bu ölkə beş dövlətlə həmsərhəddir və Avropanın mərkəzində yerləşib. Sıralamada birinci yeri tutan EPFL xüsusən də mühəndislik, həmçinin dinamik inkişaf edən bioloji elmlər sahəsində güclü reputasiyaya malikdir. Reytinqin ikinci sırasında yerləşən Sürix Federal Ali Texnik Məktəbində 120 ölkədən 19 min tələbə təhsil alır. 21 Nobel mükafatı laureatı yetişdirmiş bu ali məktəbin məzunları arasında dahi fizik Albert Eynşteynin adını çəkmək olar. Ali məktəb STEM fənlərinin tədrisi və elmi tədqiqatlar üzrə ixtisaslaşıb. Reytinqin 3-cü sırasında yerləşən Honkonq Universiteti öz qarşısına "Asiyanın qlobal universiteti" olmaq hədəfini qoyub. Ali məktəbdə 20 min tələbə təhsil alır ki, onlardan 8 mini əcnəbidir. Amerika universitetləri reytinqdə ötən ildəkinə (64 yer) nisbətən bu il daha az, 22 yerlə təmsil olunub. Lakin bir sıra qlobal reytinqlərdən fərqli olaraq bu cədvəldə ABŞ universitetləri ön sıralarda yer ala bilməyib. Reytinqin top-50liyinə ABŞ-ın cəmi bir ali məktəbi - Massaçusets Texnologiya İnstitutu (30-cu yer) daxil olub. Harvard Universiteti sıralamada 51-ci, Prinston 58-ci, Stenford 59-cu, Kolumbiya 67-ci, Kornell 76-cı yerdədir. Böyük Britaniya ilk 100-lükdə 17 ali məktəblə təmsil olunub. 200 universitet arasında Rusiyadan 7 ali məktəb yer alıb. Onlardan ən yaxşı nəticəni M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (131-ci yer) göstərib.

THE qeyd edir ki, qloballaşma şəraitində universitetlərin çoxu multikulturalizmə meyil göstərir. Bu, qloballaşmanın ümumi meyilləri və digər ölkələrdən mümkün qədər çox sayda tələbə və müəllimlərin elm və təhsilə cəlb olunmasına əsaslanır. Xaricdə təhsil almaq arzusunda olanlar üçün bu göstərici çox vacibdir. Əgər universitet "Diversity" şüarı altında addımlayırsa, əcnəbi tələbənin bu ali məktəbə qəbulu asanlaşır. Tədqiqatdan görünür ki, dünyanın ən beynəlmiləl universitetlərində oxumağı arzulayan gənclər ilk növbədə İsveçrə, Honkonq, Sinqapur, Böyük Britaniya və Avstraliyanı diqqətdə saxlamalıdırlar. Universitetlər öz mahiyyətlərinə görə qlobal ali məktəblərdir. Bir qayda olaraq, onlar, tələbə icmaları və bütün dünyadan olan alimlər üçün elmi məkandır və tədqiqatlar vasitəsilə ən qlobal problemlərin həlli ilə məşğul olurlar. 2018-ci ilin reytinq cədvəli göstərir ki, sıralamanın önündə olan 5 ölkədə dünya üzrə 10 ən beynəlmiləl universitet cəmləşib. Bütün bu müəssisələr xarici tələbələrin və müəllimlərin əhəmiyyətli pay hissəsinə sahibdir, onlar bütün dünyadan olan alimlərlə tədqiqatlar sahəsində əməkdaşlıq edir və yaxşı qlobal reputasiyaya malikdir. "Times Higher Education"nun yeni reytinqi ilə daha ətraflı *www.timeshighereducation.com/student/best-universities/most-international-universities-world-2018* səhifəsindən tanış olmaq olar.

| Beynəlmiləl reytinq 2018 | Dünya reytinqi 2018 | Ali məktəbin adı | Ölkə |
|---|---|---|---|
| 1. | =38 | École Polytechnique Fédérale de Lausanne | İsveçrə |
| 2. | =10 | ETH Zurich – Swiss Federal Institute of Technology Zurich | İsveçrə |
| 3. | 40 | University of Hong Kong | Honkonq |
| 4. | =22 | National University of Singapore | Sinqapur |
| 5. | 8 | Imperial College London | Böyük Britaniya |
| =6. | 52 | Nanyang Technological University | Sinqapur |
| =6. | =130 | University of Geneva | İsveçrə |
| 8. | 1 | University of Oxford | Böyük Britaniya |
| 9. | 2 | University of Cambridge | Böyük Britaniya |
| 10. | 48 | Australian National University | Avstraliya |
| 11. | =25 | London School of Economics and Political Science | Böyük Britaniya |
| 12. | 16 | UCL | Böyük Britaniya |
| 13. | =153 | Technical University of Denmark | Danimarka |
| 14. | 36 | King's College London | Böyük Britaniya |
| 15. | =165 | University of Vienna | Avstriya |
| 16. | 32 | University of Melbourne | Avstraliya |
| 17. | 201–250 | Copenhagen Business School | Danimarka |
| 18. | 63 | Delft University of Technology | Niderland |
| 19. | 91 | University of Warwick | Böyük Britaniya |
| 20. | =27 | University of Edinburgh | Böyük Britaniya |
| 21. | =143 | University of St Andrews | Böyük Britaniya |
| 22. | 136 | University of Zurich | İsveçrə |
| 23. | 85 | University of New South Wales | Avstraliya |
| 24. | =34 | University of British Columbia | Kanada |
| 25. | 65 | University of Queensland | Avstraliya |
| 26. | =54 | University of Manchester | Böyük Britaniya |
| 27. | =117 | Trinity College Dublin | İrlandiya Respublikası |
| 28. | 115 | École Polytechnique | Fransa |
| 29. | 58 | Chinese University of Hong Kong | Honkonq |
| 30. | 5 | Massachusetts Institute of Technology | ABŞ |
| 31. | 97 | Durham University | Böyük Britaniya |
| 32. | =80 | University of Glasgow | Böyük Britaniya |
| 33. | 44 | Hong Kong University of Science and Technology | Honkonq |
| =34. | =173 | KTH Royal Institute of Technology | İsveç |
| =34. | 42 | McGill University | Kanada |
| =36. | 192 | University of Auckland | Yeni Zelandiya |
| =36. | 61 | University of Sydney | Avstraliya |
| =38. | =119 | City University of Hong Kong | Honkonq |
| =38. | =80 | Monash University | Avstraliya |
| 40. | =119 | University of Alberta | Kanada |
| 41. | =147 | University of Nottingham | Böyük Britaniya |
| =42. | =72 | Erasmus University Rotterdam | Niderland |
| =42. | 104 | University of Sheffield | Böyük Britaniya |
| 44. | 108 | University of Montreal | Kanada |
| 45. | =109 | University of Copenhagen | Danimarka |
| 46. | 76 | University of Bristol | Böyük Britaniya |
| 47. | 139 | University of Leeds | Böyük Britaniya |
| 48. | =130 | University of Exeter | Böyük Britaniya |
| 49. | =182 | Hong Kong Polytechnic University | Honkonq |
| 50. | =22 | University of Toronto | Kanada |
| =51. | 6 | Harvard University | ABŞ |
| =51. | 129 | Université Catholique de Louvain | Belçika |
| 53. | 93 | Lund University | İsveç |
| 54. | 78 | McMaster University | Kanada |
| =55. | 190 | Aalto University | Finlandiya |
| =55. | =109 | Aarhus University | Danimarka |
| =57. | 24 | Carnegie Mellon University | ABŞ |
| =57. | 7 | Princeton University | ABŞ |
| 59. | =3 | Stanford University | ABŞ |
| =60 | 171 | University of Cape Town | Cənubi Afrika Respublikası |
| =60. | 201–250 | University of Waterloo | Kanada |
| 62. | 59 | University of Amsterdam | Niderland |
| =63. | =38 | Karolinska Institute | İsveç |
| =63. | 146 | University of Oslo | Norveç |
| =65. | =134 | Stockholm University | İsveç |
| =65. | =83 | University of Groningen | Niderland |
| 67. | 14 | Columbia University | ABŞ |
| =68. | 67 | Leiden University | Niderland |
| =68. | =86 | Uppsala University | İsveç |
| 70. | =72 | Paris Sciences et Lettres – PSL Research University Paris | Fransa |
| 71. | 33 | Georgia Institute of Technology | ABŞ |
| 72. | 88 | Free University of Berlin | Almaniya |
| 73. | 47 | KU Leuven | Belçika |
| 74. | 60 | Purdue University | ABŞ |
| 75. | 13 | Johns Hopkins University | ABŞ |
| 76. | 19 | Cornell University | ABŞ |
| 77. | 45 | Heidelberg University | Almaniya |
| 78. | 9 | University of Chicago | ABŞ |
| 79. | 62 | Humboldt University of Berlin | Almaniya |
| 80. | =86 | Rice University | ABŞ |
| 81.. | 18 | University of California, Berkeley | ABŞ |
| 82. | =54 | University of California, Davis | ABŞ |
| 83. | 41 | Technical University of Munich | Almaniya |
| 84. | 53 | University of California, Santa Barbara | ABŞ |
| =85. | 68 | Utrecht University | Niderland |
| =85 | 12 | Yale University | ABŞ |
| 87. | =34 | LMU Munich | Almaniya |
| 88. | 99 | University of California, Irvine | ABŞ |
| 89. | 107 | Ghent University | Belçika |
| 90. | 133 | Karlsruhe Institute of Technology | Almaniya |
| 91. | 140 | Pompeu Fabra University | İspaniya |
| =92. | =147 | Autonomous University of Barcelona | İspaniya |
| =92. | =3 | California Institute of Technology | ABŞ |
| =92. | 196 | Paris-Sorbonne University – Paris 4 | Fransa |
| 95. | =70 | Boston University | ABŞ |
| =96. | 201–250 | Hebrew University of Jerusalem | İsrail |
| =96. | =123 | Pierre and Marie Curie University | Fransa |
| 98. | 94 | University of Tübingen | Almaniya |
| 99. | 66 | University of Southern California | ABŞ |
| =100. | =83 | Michigan State University | ABŞ |


*Lozanna Federal Politexnik Məktəbi*


*İsveçrə Federal Texnologiya İnstitutu*


*Honkonq Universiteti*



*Sinqapur Milli Universiteti*


*London İmperial Kolleci*

# Həyat prinsipi: MÜƏLLİM OLACAĞAM!

## Nailə Cəlilova: "İşinizlə məşğul ola-ola zamanınızı səbrlə gözləyin"

**Jalə MÜTƏLLİMOVA**

1950-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. 132 nömrəli məktəbdə təhsil alıb. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirib. Deyir Şərq dilləri, xüsusən də ərəb dili üzrə mütəxəssis olmaq uşaqlıq arzusu olub. Bu üzdən ali məktəbə məhz arzuladığı fakültəyə qəbul olanda sevincinin hədd-hüdudu olmayıb...

Beləliklə, "Məktəb illəri"nin qonağı 267 nömrəli məktəbdə ərəb dilini tədris edən Əməkdar müəllim Nailə Cəlilovadır. Ona ilk sualımız məktəbdə işlərin necə getməsi ilə bağlı oldu.

– Hər şey qaydası ilə gedir hələlik. Düzü, bir şikayətim yoxdur.

*– Nailə xanım, sovet dönəminin məktəblisi və ərəb dili, hansı tərəfdən baxılsa qəribə mənzərədir. Hardan yaranmışdı ərəb dilinə maraq sizdə?*

– Orta məktəbdə oxuyanda bizə ərəb dili keçilirdi. Bilmirəm niyə, baxmayaraq ki, çox mürəkkəb dildir, son dərəcə həvəsli idim. Başqa uşaqlar qiymət almaq xatirinə öyrənirdilər. Mən dərinliklərinə getməyə çalışırdım. Bəzən müəllimlərə də təəccüblü gəlirdi ərəb dilinə olan bu sevgim. Amma yəqin ki, istiqamətim bu yönə olacaqmış deyə, bu maraq var idi.

*– Universitetə necə gedib çıxmağınıza qayıdacağıq. Amma uşaqlıq illəri, ailənizi xatırlamağınızı istərdik. Hansı ailədə böyümüsünüz, kim idi valideynləriniz?*

– Həkim ailəsində dünyaya gəlmişəm. Atam Cəfər Bağırov indiki Respublika Xəstəxanasında baş həkimin müavini kimi çalışıb. Anam isə rentgenoloq idi. Əmi, dayı, bibi, xala hamı həkimdir. Atam ərəb dili ilə məşğul olmaq istəyimi eşidəndə, necə deyərlər, "daş atıb, başını tutdu". Heç istəmirdi bu istiqamətə gedim. Ailə peşəsini davam etdirməyimi istəyirdi. Hətta bəzən olurdu Şərqşünaslıq fakültəsini gözümdən salmağa cəhd edirdi. Deyirdi sən ora heç girə də bilməyəcəksən. Çünki cəmi altı yer var, imtahanları da ağır. Kəsiləcəksən deyib durmuşdu. Elə bil ona inad edirdim. O, getmə dedikcə, daha çox oxuyurdum. Deməli, adamın alın yazısının olması gerçək bir şeydir. Yəni BDU-nun Şərqşünaslıq fakültəsi həm də mənim alın yazım idi.

*– Bəs siz qəbul olanda nə reaksiya verdi atanız?*

– Heç nə, susdu, gülümsədi və hamı kimi o da razılaşdı, təbrik elədi məni.

*– Deyilənə görə, siz həm də zadəgan ailəsinin qızısınız. Babalarınız kim olub?*

– O qədər də məşhur milyonçulardan sayılmaz mənim babam. Amma dövrünün yaxşı kişilərindən biri olub. Bunu o zamanlar danışmaq qorxulu idi. İnsanları belə keçmişlərinə görə həbs edib, sürgünə göndərirdilər. İndi hamı danışır. Bizim ailədə də belə bir qol var. Babam Hidayət Quliyev Bakı kəndlərində nüfuzlu kişilərdən idi. Çoxlu mülkü olub, dövründə tanınan sahibkarlardan imiş. Ana babamdır. Repressiya illərində babamı sürgünə yollayıblar. Bu barədə biz həmişə danışmağa qorxmuşuq. Bizi başa salıblar ki, əgər kiməsə danışsaq, valideynlərimizə pis olacaq. Təbii ki, illər öncə belə idi. Amma illər sonra bir gün qapımız döyüldü. Dedilər biz rəsmi dövlət qurumundanıq, sizin babanıza bəraət verilib. Hamı bir-birinə baxdı və heç nə demədi.

*– İndiki dillə soruşsaq babanız hansı biznes fəaliyyəti ilə məşğul imiş?*

– Siz demiş, müasir dillə desək, nəqliyyat sektorunda fəaliyyət göstərib. Nəqliyyat şirkəti olub. Yəni çoxlu sayda faytona sahib imiş. Tikinti işi ilə məşğul olub həm də.

*– Bəraətdən sonra nə baş verdi?*

– Anamgil üç bacı, bir qardaş idi. Dövlət qurumundan gələn nümayəndələr dedilər ki, sizin üçün nə edilməsini istəyirsinizsə, edək. Yəni, babamdan qalan mal-mülkdən nəyi geri almaq istəsəydilər, ala bilərdilər. Hər halda belə dedilər.

*– Bəs nəticə nə oldu?*

– Yəqin ki, çoxları Buzovnadakı məşhur sanatoriyanı tanıyır. Ora mənim babamın evi olub. Yəni anamgil həmin evdə dünyaya gəlib, böyüyüblər. Şəxsi mülkiyyəti imiş babamın. Bizim ailə qərara gəldi ki, baba mülkümüzü geri istəsinlər. Uşaqlıq illəri və atalarından qalan yadigar kimi. Sağ olsun dövlətimiz, babamızın mülkünü bizə qaytardı. İndi sanatoriyanın sənədləri bizdədir. Yəni, biz o binanın rəsmi sahibləriyik. Babamızın evini əvvəlki halına gətirib bərpa edə bilmirik, çünki böyük vəsait tələb edir. Ev də, ərazisi də yetərincə böyükdür. Amma bizim olduğunu dəqiq bilirik. Bu, adama mənəvi rahatlıq gətirir.

*– İndi kimsə yaşayırmı orada?*

– Heç kim. Amma hərdən ailəlikcə yığışıb gedirik, təmizlik aparırıq, həyətini sulayırıq, elə bil adamın ruhu yenilənir, başqa cür oluruq hamımız. Bilirsən ki, bura sənin ulu nənə-babanın, ailə üzvlərinin ruhları dolaşan yerdir.

*– Qayıdaq universitetə qəbul olduğunuz illərə...*

– Bizim fakültəni bitirənlər adətən tərcüməçi olur. Mən istədim pedaqoq olum. Yəni, orta məktəbdə şagirdlərə ərəb dilini öyrədim.

*– Siz ali təhsilinizi bitirdiyiniz illər hələ də belə məktəblər qalırdımı?*

– Var idi, amma artıq son dərəcə azalmışdı dərs saatları.

*– Bəs sizin plan necə oldu?*

– Düzünə qalsa, əslində, heç bir plan yox idi. Sadəcə, araşdırmağa başladım. Haradasa yetmişinci illərin əvvəlləri idi, Bakıda Xarici Ölkələrlə Əlaqələr üzrə Dostluq Cəmiyyəti var idi. Müəllim kimi yerləşənə qədər həmin cəmiyyətdə tərcüməçi olaraq işə düzəldim. Sonra ailə qurdum. Elə ailə vəziyyətimizlə əlaqədər Liviyaya köçəsi olduq. Yəni müəllimlik arzum baş tutmadı. Köçməyə həyat yoldaşımla birgə qərar versək də, bir narazılığım var idi içimdə. Axı ərəb dili müəllimliyi arzum reallaşmamışdı. Onu reallaşdıra bilmirdim deyə, çox təəssüflənirdim. Eyni zamanda getməyə də bilmirdim. Başqa yol yox idi, qərar verilmişdi, getdik. Beləcə, peşə fəaliyyətimin Liviya hissəsi başladı. SSRİ-nin Liviyadakı səfirliyinin ictimaiyyətlə əlaqələr bölməsində həm redaktor, həm də tərcüməçi kimi işlədim. İş çox, maaş yaxşı idi, amma məni qane eləmirdi. Biz 1978-ci ildə getmişdik, 1988-ci ildə Bakıya qayıtdıq. Yenə də araşdırmağa başladım, görüm hansı məktəblərdə ərəb dili fənni tədris olunur. Narahat idim, düşünürdüm bəlkə, ümumiyyətlə, yığışdırılıb.

*– Tərcüməçi kimi fəaliyyətinizi də davam etdirə bilərdiniz...*

– Yox, ailə ilə uyğun gəlmirdi tərcüməçilik. Həm də illərdir əlçatmaz arzum var idi. Müəllim olmalıydım, mütləq! Tərcümə işinə gəlincə, çətin işdir. Kimisə tərcümə etmək yox, iş qrafiki ağırdır. Yəni tərcüməçinin gecəsi-gündüzü olmur. Tutalım bir xarici qonaqla işləyirsən. Bir də görürsən axşam saatlarına qədər çəkir tədbirlər, müzakirələr. Ailə və azyaşlı uşaqla bu mümkün olmurdu. O üzdən heç tərcüməçi kimi işləməyi ailədə də istəmədilər. Dedilər müəllim kimi işlə. Bu da öz arzum idi axı. Beləcə, bir gün qarşıma elan çıxdı. Baxdım 267 nömrəli məktəbdə ərəb dilinin tədrisi üçün mütəxəssis, müəllim axtarırlar. Qəzetdə rast gəldiyim bu elan elə bildim nəfəs almaq üçün yeni bir pəncərə oldu. İllər öncəki arzumun bir addımlığındayam. Getdim məktəbə. Dili harada öyrəndiyim, indiyə qədər harada çalışdığım, niyə müəllim olmaq istədiyimi soruşdular. Bütün suallara cavab verdim, sonda da dedim ki, orta məktəbdə oxuduğum illərdəki arzumdur müəllim olmaq, mənə dərs saatı verin, sizi yanıltmaram. O vaxtdan bu məktəbdəyəm, 267 nömrəli məktəbdə. Sağ olsunlar, iş verildi, indiyə qədər də işləyirəm.

*– Bu gün ingilis və rus dilləri prioritetdir. Bəlkə dəbdədir də demək olar. Ərəb dilinə necə, maraq göstərən varmı?*

– İlk başladığım ildə ərəb dili ancaq məktəbin Azərbaycan bölməsində tədris olunurdu. Ancaq sonra rus bölməsində də tədrisə başladıq. İki bölmədə keçirdik və çox maraqlı idi. Elə indi də bu cür davam edir.

*– Çox az məktəbdə xarici dilin tədrisində Şərq dillərinə, xüsusən də ərəb dilinə rast gəlinə bilər. Sizcə bunu niyə ediblər?*

– Düşünürəm BDU-nun Şərqşünaslıq fakültəsinin olmasına və bir də Şərq ölkələrindəki diplomatik nümayəndəliklərdə çalışacaq, bu dili öyrənəcək gənclərdə dilin bazasını formalaşdırmaqdır məqsəd.

*– Hərənin həyatında rol oynayan bir müəllimi olur. Sizin həyat müəlliminiz kim olub?*

– Azərbaycan dili və ədəbiyyatı müəllimim vardı, Billurə xanım. Əfrasiyab müəllim vardı, Bibixanım müəllim var idi. Riyaziyyat müəllimimi xatırlayıram, Zeynəb xanımı. Amma biri var idi, onu xüsusi xatırlayıram, mənim ərəb dili müəllimim. Əvvəllər Əlcəzairdə tərcüməçi kimi işləmişdi. Sonradan orta məktəb müəllimi kimi fəaliyyət göstərirdi. Bəlkə də o, həyatımın bu formalaşmasında rolu olan ikiüç insandan biridir.

*– Çoxu üçün müəllimlik növbəti vəzifəyə tramplindir. Kimisi üçün bəhanədir. O mənada ki, hə, mən də qızımı, oğlumu oxutdum. Sizin yanaşmanız necədir?*

– Müəllimlik tək diplomla həll olunacaq iş deyil. İnsan müəllim olmaq üçün doğulmalıdır. Bu peşəni, səmimiyyətimə inanın, çox nadir halda oxumaqla qazanmaq olar. Sizin sadaladığınız halları görəndə həm təəssüf edirəm, həm də istəmirəm belə yanaşmalar olsun. Çünki insan yetişdirəcək peşəyə dırnaqarası yanaşma cəmiyyətin faciəsi olar. Müəllimlik səbr tələb edən peşədir. Bəzən deyirlər, uşaq pisdir. Mən deyirəm ki, pis uşaq yoxdur. O uşağın dilini tapa bilməyən müəllim var. İşləmək, o uşaqdan kimsə düzəltmək istəyən müəllim olmalıdır. Uşağa qalsa, heç kim olmaz. Uşaqlarla işləmək ilk baxışdan asan görünə bilər, amma çox ciddi və məsuliyyətli işdir. İradəsi olmayan, cəldliyi və səbri çatmayan adamdan müəllim olmaz. Nə qədər savadlı olur-olsun, alınmaz. Müəllimlik yaxşı mənada tanrıdan gələn istedaddır.

*– Mərhələyə bölsək, müəllim uşağın tərbiyəsində neçənci yerdədir?*

– Birinci yerdə mütləq ailədir. İkinci yerdə mühit. Sonra damarında axan qan və cəmiyyət. Amma bir şey var, istənilən halda müəllim nümunə olmalıdır, yaxşı nümunə. Geyimində, mədəniyyətində, savadında, tərbiyəsində. Belə olsa mütləq sinfin ən dəcəl uşağı da istəyəcək o müəllimdən nəsə öyrənib, götürsün.

*– Siz necə müəllimsiniz? Yəni, özünüzə kənardan baxa bilirsinizmi?*

– Baxıram, əlbəttə. Təəssüratlarımı bölüşmək istəmirəm amma. Sadəcə deyə bilərəm ki, peşəmdən, onun mənə gətirdiyi hörmətdən, uşaqların, valideynlərin münasibətindən çox razıyam. Yaxşı ki, mən müəllim oldum. Başqa heç bir sahədə bu qədər işim uğurlu alınmazdı.










*– Əməkdar müəllimsiniz. Bu bir müəllimə veriləcək ən böyük dəyər, hörmətdir dövləti tərəfindən. O adı aldığınızı öyrəndiyiniz anı necə xatırlayırsınız?*

– Ən yaxşı müəllim müsabiqəsi keçirilirdi. O müsabiqəyə qatıldım. Müsabiqə üç mərhələdən ibarət idi. Birinci mərhələdə müəllimin pedaqogikaya aid yazıları çap olunmalı idi. Burdan keçdim. Sonra müsabihə mərhələsində iştirak etdim. Üçüncü mərhələdə tanımadığım bir məktəbdə, dərsin mövzusunu bilmədən sinfə girməli, dərs soruşub, yeni dərs keçməli idin. Dərsə girdim və on uşaqla qrup formatında dərs keçdim. Uşaqlardan çox razı qaldım. Deyəsən, onlar da məndən razı idilər. Ancaq bu son mərhələnin nəticəsini bilmədim. Evə gəldim, narahat idim. Axşam bir tanışımız sevincək zəng elədi ki, bəs müsabiqənin nəticələri dərc olunub. Xahiş etdim mənim də adımı yoxlasın. Bir də gördüm sevinə-sevinə geri zəng vurub, dedi qaliblərdənsən. Yüz müəllimdən biri olmuşdum. Bu məni çox sevindirirdi. Yadımdadır, o vaxt evdəkilər məndən çox sevinmişdilər. Həmin gün böyük ailə tədbiri də keçirdik. Nəyə görə sualınıza cavabı bu qədər uzaqdan başladım? Qoyun, bunu da deyim. Məni Əməkdar müəllim olmağa aparan yolun birinci mərhələsi bu idi. Sonra elə bil bu qalibiyyət mənə daha çox işləmək həvəsi verdi. Başladım dərsliklər üzərində çalışmağa. Beş sinif üzrə ərəb dili dərslik komplektinin müəllifiyəm. Bundan sonra Əməkdar müəllim fəxri adına təqdimatım oldu. Sağ olsun bu təqdimatı edənlər. O cümlədən müəllim əməyinə qiymət verən cənab Prezidentə təşəkkür edirəm. Mən adımı rəsmi sənədlərdə Əməkdar müəllim kimi görəndə, inana bilmirdim. Evdə ailə üzvlərim də dedilər, nəhayət, sənin də dəyərin verildi. Bu, çox ayrı və xoş bir hissdir. Yaşamadan izah edilə bilməz.

*– Sizcə, həyat həmişə bələdirmi? Yəni, bütün çəkilən zəhmətlərin qarşılığı varmı?*

– Mütləq var. Buna adım qədər əminəm. Əgər hesab edirsənsə zəhmət çəkmisən, amma bəhrəsi yoxdur, deməli, haradasa səhvlərə yol vermisən. Bu, mütləq belədir. Başqa cür mümkün deyil. Mən buna çox inanıram. Olar ki, bir az gec, bir az çətin dəyərlənər zəhmətin. Amma gec-tez dəyərlənər. Bu üzdən əziyyətinə dəyər verilmədiyini düşünən insanlara bir məsləhətim olub həmişə: sənətinizi sevin, daim axtarışda olun, mübarizə aparın, həm də işinizlə məşğul ola-ola zamanınızı səbrlə gözləyin. Mütləq nəticə olacaq.

*– Yaxşı müəllim olmağın formulu nədir? Kimdir yaxşı müəllim?*

– Müəllim işıqlı sima, səbrli insan, savadlı adam, müdrik, təcrübəli biri olmalıdır. Hər an gözlənilməzliyə hazırlıqlı olmalıdır. Müəllim əldən tutmağı bacarmalıdır. Uşağı söz-söz, sətir-sətir öyrədib, insan etməlidir. Müəllimi başqa cür təsəvvür edə bilmirəm.

## Qalereyada "Açıq qapı" günü

1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin Təsviri Sənət Qalereyasında "Açıq qapı" günü keçirilib. "Açıq qapı" gününün keçirilməsində əsas məqsəd uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili, estetik zövqünün formalaşdırılması, onların istedadının aşkara çıxarılması, təsviri və tətbiqi imkanlarının daha da inkişaf etdirilməsindən ibarət olub. İştirakçılara 8 saat ərzində qalereyanın dərnək rəhbərləri tərəfindən 28 ustad dərs təqdim edilib. Dərslərdə 330 nəfərə yaxın 3-16 yaşlı uşaq və gənclər iştirak ediblər. Qalereyanın sərgi zallarında dərnək üzvlərinin "Novruz" və "Yaz" mövzularında 300-ə yaxın rəsm və əl işləri nümayiş olunub, həmin mövzuları əhatə edən dekorasiya hazırlanıb.

Ustad dərslər arasında ebru, yun sap və plastilinlə iş, rəsm, rəngkarlıq, aplikasiya, konstruksiya, dekorativ fəaliyyət və digər məşğələ növləri təqdim edilib.

Mərkəzin dərnək üzvləri rəhbərlik tərəfindən təşəkkürnamə ilə təltif edilib.

## Məktəblərarası intellektual oyun

Məktəb komandaları arasında breyn-rinq intellektual oyunu təşkil olunub.

"Vətəni tanı!" adlı yarışda Suraxanı rayonu üzrə ümumi təhsil məktəblərinin şagirdləri iştirak ediblər.

İntellektual oyunun keçirilməsində əsas məqsəd məktəbliləri Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri barədə daha ətraflı məlumatlandırmaq, həmçinin, onların bilik, bacarıq və dünyagörüşünü artırmaqdan ibarətdir.

Yarışın nəticələrinə əsasən, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 278, 226 və 140 nömrəli tam orta məktəblərin komandaları müvafiq olaraq I, II, III yerlərə layiq görülüb.

Qalib komandalar müvafiq dərəcəli diplomla təltif edilib.

# Yol polisinin 9 yaşlı köməkçisi




## *Ağa Şeydayev:* Təlimçi kimi telekanallarda iştirak etmişəm”

**Sifai SƏFƏROVA**

Paytaxt uşaqlarının ən çox sevdikləri məkandır A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı. Burada izlədikləri maraqlı tamaşalar onlarda həmişə xoş ovqat yaradır. Sevindirici haldır ki, bu xoş ovqatı onlarda yaradanlar da elə həmyaşıdları olan kiçikyaşlı aktyorlardır. Uşaqların könlünü ovsunlamaqla bərabər onlar öz istedadlarını da həvəslə nümayiş etdirirlər. Qəzetimizin növbəti nömrəsi üçün yazı hazırlamaq məqsədilə teatrın “Oyuq” studiyasına baş çəkdim və haqqında çox eşitdiyim balaca istedadlı aktyorlardan biri ilə - Ağa Şeydayevlə görüşüb həmsöhbət oldum.

### Bildiklərimi dostlarımla bölüşür və dostlarımı maarifləndirirdim

Mən, Ağa Şeydayev 2009-cu ildə Bakı şəhərində anadan olmuşam. Bakı Avropa Liseyinin şagirdiyəm. Riyaziyyat və ana dili fənlərini çox sevirəm. Paytaxtdakı I nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin yol hərəkəti qaydaları dərnəyinin üzvüyəm. Hər il mərkəzdə yol qəzaları qurbanlarının anım gününə həsr olunmuş tədbir keçirilir. Məqsədimiz yol qəzalarında həlak olanları yad etmək və yol hərəkəti qaydalarını uşaqlara çatdırmaqdır. Yol hərəkəti qaydalarını daha yaxşı öyrəndikdən sonra üzərimə yeni bir missiya düşürdü: bildiklərimi öz dostlarımla bölüşmək və dostlarımı maarifləndirmək.

### Özüm də elə “Mən böyümüşəm”də böyümüşəm

İlk dəfə 2012-ci ildə AzTV-nin “Biləyən” verilişində çıxış etdim. Çəkilişdə Səməd Vurğun küçəsində yolda hərəkət edən piyadalara yol hərəkəti qaydalarını izah edirdim. Sonra dəfələrlə Space TV-nin “Mən böyümüşəm” verilişində iştirak etmişəm. Demək olar ki, özüm də elə “Mən böyümüşəm”də böyümüşəm. Bu verilişlərdə yol polisinin gənc köməkçiləri komandasının digər üzvləri də, yəni gənc polis dostlarım da iştirak edirdilər. İştirak etdiyim verilişlər maarifləndirici xarakter daşıyırdı.

### “Uşaqlar yol qəzalarına yox dedilər!”

2013-cü ilin aprelində “Buta” uşaq bağçasında yol hərəkəti qaydalarına aid keçirilən tədbirdə “Buta”-nın uşaqları, Bakı Şəhər Dövlət Yol Polis İdarəsinin şöbə müdiri Vaqif Əsədov, müəllimim Fəridə Süleymanova, mərkəzin üzvləri və mən də iştirak edirdim. Həm bağça uşaqları, həm də yol polisinin gənc köməkçiləri komandası kiçik səhnəciklərlə yol hərəkəti qaydalarını izah edirdik. “Uşaqlar yol qəzalarına yox dedilər!” şüarı altında 2013-cü ildə “Park Bulvarda” Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzində, dövlət yol polisi işçiləri və mərkəzin üzvləri ilə birlikdə keçirilən tədbirdə də iştirak etdim. 2014-cü ilin mayında Qızıl Xaç və Qızıl Aypara Hərəkatında fəal iştirakıma görə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən tərifnamə və diplomla təltif olunmuşam.

### “Yol nişanları əlifbasını birlikdə öyrənək!”

İlk olaraq 2016-cı ilin aprelində uşaqlar və yol təhlükəsizliyi layihəsinə uyğun olaraq “Yol nişanları əlifbasını birlikdə öyrənək!” maarifləndirici seminarımı mərkəzdə böyük auditoriya qarşısında keçirdim. Bu seminarda sinif yoldaşlarım, dostlarım, bir çox məktəb şagirdləri iştirak edirdilər. Sonralar isə müxtəlif məktəblərdə - 157 nömrəli tam orta məktəbdə, Bakı Oksford məktəbində, təhsil aldığım liseyin ayrı-ayrı siniflərində keçirdim. Təlimçi kimi - AzTV, Xəzər, ATV, Lider, Space, İctimai telekanallarında, ARB-nin “Günəş” verilişində iştirak etmişəm. “Uşaqlar və yol təhlükəsizliyi layihəsi” adlı tədbirlərdə daim iştirakçı oluram. Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən mənə fəxri fərman verilib. Yaşımın az olmasına baxmayaraq Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin məsul işçisi, polkovnik Vaqif Əsədovun həm dostu, həm də köməkçisiyəm.

### Azərbaycan və Avropa xalq nağıllarını oxumaq hobbimdir

5 yaşımdan Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının üzvüyəm. Azərbaycan və Avropa xalq nağıllarını, Erdal Çakırcıoğlunun, Qrim qardaşlarının nağıllarını, Jül Vernin “15 yaşlı kapitan”, “Kapitan Nemo”, “Sirli ada”, Ceyms Fenimor Kuperin “Sonuncu mogikan”, A.Sent Ekzüperin “Balaca şahzadə” və sair kitabları oxumuşam.

### “Diqqət, uşaqlar!”

2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş tədbirdə “Nağıl və debat” dərnəyinin üzvləri ilə birlikdə çıxış etmişəm və diplomla mükafatlandırılmışam. 2014-cü ilin oktyabrında 32 nömrəli tam orta məktəbdə “Həyat” Beynəlxalq Humanitar Təşkilatı tərəfindən “Diqqət, uşaqlar!” devizi altında keçirilən tədbirdə iştirak etdim. Fəal iştirakıma görə təşəkkürnamə və diplomla təltif olundum. Həmin məktəbin şagirdləri mənim maarifləndirici çıxışımı çox diqqətlə dinlədilər, öyrənib və əməl edəcəklərinə söz verdilər.

### Şahmatla da məşğul oluram

İdmanı da çox sevirəm. I saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbində şahmatla da məşğul oluram. 2016-cı ilin martında Respublika Şahmat Mərkəzində keçirilən “Bahar kuboku” turnirində 9 oyuna 6,5 xalla IV dərəcəmi aldım və hazırda mən də güclülər sırasındayam.

### Teatr studiyasının həm aktyoru, həm də aparıcısıyam

2017-ci ilin sentyabrında isə “Oyuq” teatr studiyasına müsabiqə yolu ilə daxil olmuşam. Teatr studiyasının həm aktyoru, həm də aparıcısıyam. Burada mənə aktyorluğun bütün sirlərini öyrədirlər. Nitqin inkişaf etdirilməsi, səhnə hərəkətləri və başqa aktyorluq dərsləri öyrədilir. Məşqlər o qədər əyləncəli və maraqlı keçir ki, yorulmaq bilmirik. 2016-cı ilin noyabrında “Oyaq gözəl” tamaşasında Cırtdan obrazında rol aldım. Ən çox sevdiyim personaj Cırtdan obrazıdır, bəlkə də ilk rolum olduğuna görədir. Səidə müəllimin mənim üçün yazdığı Cırtdana aid monoloqu hətta müxtəlif tədbir və verilişlərdə də məharətlə ifa edirdim. “Şahın xudpəsənd oğlu” tamaşasında Ələddin obrazı yaddaqalan rollarımdan biridir.

### İfa etdiyim mahnı Prezidentimizin xoşuna gəldi

Teatr studiyamızda xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə ərsəyə gətirilən “Sehrli dünya” adlı tamaşa-konsert oldu. Bu tamaşada Məlikməmməd obrazında idim, ilk dəfə idi ki, xüsusi qayğıya ehtiyacı olan bir dostla səhnəyə çıxırdım. Çox həyəcanlı idim. Amma dostum Rüfət çox sevinirdi. 2017-ci ilin aprelində Heydər Əliyev Mərkəzinin önündə “Oxu günü” adlı tədbir keçirilirdi, mən də “oyuq”çu dostlarımla tədbirdə iştirak etdik və gözəl bir mahnı səsləndirdik. Baku shoping festivalında müxtəlif yerlərdə, İçərişəhərdə, 28 Mallda, Gənclik Mallda, Park Bulvarda konsertlərdə çıxış edirdim. Sinif müəllimim Aytəkin xanımın ilk tamaşamda mənə “Oskar” mükafatı suvenirini verməsi unudulmazdır. Prezidentimiz İlham Əliyev və xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın iştirak etdiyi Novruz şənliyi tədbirində istedadımı nümayiş etdirmişəm. Mənim “oyuq”çularla birlikdə ifa etdiyim mahnı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanımın çox xoşuna gəldi, hətta onlar bizimlə şəkil də çəkdirdilər.

### “Oyuq”çu dostlarımla çox mehribanıq

“Oyuq” teatr studiyası bir oyuq ailəsidir, ailə başçısı kimi Səidə müəllimi çox sevirəm, çünki o, çətin məşqlərdə, tədbirlərdə bizim qayğımıza qalır, hətta bizi ekskursiyalara, əyləncə mərkəzlərinə gəzintiyə aparır. “Oyuq”çu dostlarımla da çox mehribanıq. Onlarla beynəlxalq festivallarda iştirak edir, bir-birimizin uğurlarına sevinirik. Hazırda 2 serialda baş rolda iştirak edirəm. İlk serialım “Ürək ağrısı”, digəri “Kabusun gəlişi”. Klip və reklam çəkilişlərinə dəvət alıram. Çəkiliş zamanı gülməli və maraqlı hadisələr də olur. Məsələn, bir səhnənin çəkilişi zamanı texniki səbəblərə görə dublların sayı bir az çox oldu və mən “Ana, narahat olma, atam indi gələr” cümləsini o qədər təkrarladım ki, bir dublda da ana əvəzinə ata dedim, çox gülməli alındı. Əvvəllər bir təlimçi kimi telekanallarda verilişlərə çıxırdımsa, indi isə aktyor və aparıcı kimi verilişlərə dəvət alıram. 2017-ci ilin sentyabrından 26 nömrəli M.Maqamayev adına musiqi məktəbində kislofon-zərb alətləri ixtisası ilə də məşğul oluram.

### Onun güclü yaddaşı, sərbəst, səlist nitqi var

*Fəridə Süleymanova:* Mən Ağanı gözəl siması və düşüncəli baxışına görə seçmişdim, ancaq zaman keçdikcə başqa qabiliyyətlərini də kəşf etdim. Onun güclü yaddaşı, səlist, sərbəst nitqi məni valeh edir. Rast gəldiyi hadisələri çox maraqlı, bədii təsvirlərlə danışır, özünəməxsus araşdırmalar aparır. Dəstəmizə yeni qoşulan uşaqlarla elə mehriban rəftar edir ki, sanki əvvəlcədən bunları tanıyırmış. Ağada həm də yumor hissi var. O, yol polisi gənc köməkçilər komandasına lap uşaq vaxtlarından qoşulub. Onun iştirakı ilə maarifləndirici verilişlər hazırlanıb. Ağada olan öyrənmək, öyrətmək qabiliyyətini xüsusilə qeyd edərdim. O, 3 ildir ki, təlimçi kimi yaşıdlarına yol hərəkəti qaydalarını öyrədir. Onun bu fəaliyyəti Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalov tərəfindən fəxri fərmanla qiymətləndirilib. Təhlükəsizliyin təmin edilməsi, yol nəqliyyat hadisələrinin sayının azaldılması məqsədilə təbliğat xarakterli verilişlərin hazırlanmasında Ağanın xüsusi əməyi var.

### Ağa kimi fəal bir köməkçim var

*Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polkovnik Vaqif Əsədov:* - Ağa Şeydayev haqqında söz demək, fikir söyləmək lap ürəyimcədir. O, öz çalışqanlığı ilə hamıda qürur hissi yaradır. Təbii ki, yol hərəkəti qaydalarına dair bilik və bacarığı, qabiliyyəti ilə hətta özündən yaşca böyük olan uşaqlardan belə fərqlənən Ağanın bu sahə üzrə müəllimi kimi onun haqqında çox danışa bilərəm. Əslində bu gün Ağa Bakı şəhəri Dövlət Yol Polisinin təbligat bölməsinin dostudur və azyaşlılar arasında təbliğat işinin aparılmasında yeganə şagirdlərdən biridir. Həmçinin telekanallarda canlı olaraq çıxışları ilə o, böyük nümunədir. Bakı şəhər məktəblərində maarifləndirici seminarların təşkil edilməsində Ağanın çox böyük əməyi olub. Mən onunla fəxr edirəm və sevinirəm ki, Ağa kimi olduqca fəal bir köməkçim var.

# “Özümü heç vaxt başqa sahənin adamı kimi təsəvvür edə bilmərəm”




## *Məhəmməd Musayev:* “Müsyö Jordan obrazı xarakterimi tamamilə dəyişdi”

**Gülnarə İLHAM**

Məhəmməd kənardan dalğın, fikirli, bir az da özünəqapanıq insan təəssüratı yaradır. Heç aktyor ərköyünlüyü, çılğınlığı hiss olunmur onda. Sanki özü üçün hər küncündə rahatlıq tapdığı bir dünya yaradıb, içində var-gəl edir.

Beləliklə, ADMİU SABAH qrupu Aktyor sənəti 4-cü kurs tələbələri ilə tanışlığımız davam edir. Budəfəki müsahibimiz Məhəmməd Musayevdir. Şəmkir rayonunun Seyfəli kəndində doğulub. Söhbətimizdə onunla bağlı düşüncələrimdə yanılmadığımı dedi.

*- Məhəmməd, sanki illərini dopdolu yaşayan müdrik, qocaman insan yaşındasınız. Yoxsa, düşünürsünüz yaradıcı adam məhz belə olmalıdır?*

- *(Gülümsəyir)* Əlbəttə yox. Sadəcə, ətrafımda çox adamın olması məni darıxdırır. Ünsiyyəti çox sevmirəm. Səhnədə danışmaq bəs edir mənə.

*- Gəlin bu günlük qaydaları pozaq. Müsahibə üçün danışmaq lazım gələcək.*

- Söhbət maraqlı olanda, saatlarla susmamaq bacarığım da var. Əslində, uşaqlıqdan özümlə daha çox danışıram. 7-ci sinifdə bir qızdan xoşum gəlirdi. Ona söz deməyə utanırdım. Bir də baxdım ki, dəftər səhifələrini şeirlə doldurmuşam. O zamandan bəri yazmaq gündəlik daxili ehtiyacıma çevrildi. Artıq sinif yoldaşlarım mənə şair deyə müraciət edirdilər. Hətta çoxu gəlib məndən onlar üçün də şeir yazmağımı istəyirdilər.

*- Əzbərdən bildiyiniz varsa, dinləmək maraqlı olardı.*

- Bir-iki bənd deyə bilərəm.

“Həsrətindəyəm” şeiri

Gecələr ürəyim fəğan eyləyir<br>
Bu canım solmuş bir gül tək titrəyir.<br>
Ruhum sən olmasan eşqi neyləyir<br>
Hardasan, sevgilim, həsrətindəyəm.

Sənin xəyalınla hər gün baş-başa<br>
Gözlərim öyrəşib kədərə, yasa.<br>
Sənsizilik qəlbimdə dönübdür daşa<br>
Sənə çatmır əlim, həsrətindəyəm.

*- Müasirimiz olan şairlərdən kimi oxuyursunuz?*

- Çox sevdiyim və yaradıcılığından təsirləndiyim Ramiz Rövşəndir. Gənc şairlərdən isə Rəşad Nağının şeirlərini maraqla oxuyuram.

*- Aktyor olmağa da şeir yazandan sonra qərar verdiniz?*

- İncəsənət sahəsinə yönəlməyimin səbəbkarları anam və filmlərini heyranlıqla izlədiyim xalq artisti Rasim Balayev olub. Anam rəssamdır. Çəkdiyi rəsm əsərləri, obrazların portreti məndə fərqli fikirlər formalaşdırırdı. “Babək” filmini izləyəndən sonra isə şəkildən sakit, hərəkətsiz baxan üzlərdən daha çox canlı aktyor oyunları cəlb etməyə başladı. Elə o zamandan qarşıma məqsəd qoydum ki, mən də Rasim Balayev kimi kino aktyoru olacağam.

*- Təbii, yaradıcı ailədə böyümək də şansın bir parçasıdır.*

- Bəli, ailəm mənə çox dəstək oldu. Hətta qabiliyyət imtahanlarına daha peşəkar hazırlaşmağım üçün Gəncə Dövlət Dram Teatrına kursa göndərdilər. Nəhayət, arzuladığım fakültənin tələbəsi oldum. İlk kurslarda dərslər çətin gəlirdi. Tərəddüdlərim vardı, özümə tez-tez sual verirdim. Görəsən, aktyorluğu seçməklə yanılmamışam ki. Amma elə həmin dəqiqə düşünürdüm ki, özümü heç vaxt başqa sahənin adamı kimi təsəvvür edə bilmərəm.

*-Tələbə kimi ilk rolunuz Müsyö Jordan olub, deyəsən. Təəssüratlarınız maraqlıdır (Mirzə Fətəli Axundzadənin “Hekayəti Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükuni məşhur” əsərindən).*

- Təsəvvür edirsiniz, bu obraz xarakterimi tamamilə dəyişdi. Sanki Məhəmmədin daha mükəmməl formasını kəşf etdim özümdə. Hətta bəzən gündəlik danışığımda da, yaxud şeir söyləyəndə də müəllimlərim deyir, lap Müsyö Jordan kimi danışırsan.

*- Məhəmməd, bayaq dediniz ki, universitetə kino aktyoru olmaq arzusu ilə qəbul olunmusunuz. Bu qədər maraqlı tamaşalarda peşəkar səviyyəyə yaxın oyun göstərəndən sonra fikriniz dəyişdi?*

- Düzü, gələcəkdə özümü heç bir teatr səhnəsində görmürəm. Hələlik ən böyük məqsədim xaricə gedib, orada kino sahəsinin bir parçası olmaqdır.

*- Xaricə niyə?*

- Təbii ki, bizdən asılı olmayan səbəblər var. Hər şey arzuladığım kimi olmaya da bilər. Bəli, bizdə yeni filmlər çəkilir, xeyli fərqli simalar tanıyırıq. Onlardan biri də mən ola bilərəm bəlkə. Açığını deyim, indidən məni maddi təminat da düşündürür. Bizdə aktyorların çoxu işinin çəkisi qədər qonorar almır. Ona görə aktyor fəaliyyətimi Türkiyədə davam etdirməyə çalışacağam. Deyəsən, çox iddialı danışdım *(gülür)*.

*- Əksinə, oyununuzu izləyən biri kimi deyirəm ki, arzularınız istedadınızdan böyük deyil. Uğurlar!*

- *(Gülür)*. Çox sağ olun, təşəkkür edirəm. Əsas odur, xeyli danışdım sayənizdə.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Mingəçevir Dövlət Universiteti

Aşağıdakı kafedralarda vakant olan vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| | | |
|---|---|---|
| "Humanitar fənlər" kafedrası | - müəllim | - 1 yer |
| "Xarici dillər" kafedrası | - dosent | - 1 yer |
| | - müəllim | - 2 yer |
| "Riyaziyyat" kafedrası | - dosent | - 2 yer |
| "İqtisadiyyat" kafedrası | - professor | - 1 yer |
| | - müəllim | - 1 yer |
| "Energetika" kafedrası | - müəllim | - 1 yer |

*Müsabiqə müddəti elan dərc edildikdən bir ay keçənədəkdir. Sənədləri təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə bu ünvana göndərmək lazımdır.*

**AZ-4500, Mingəçevir şəhəri, D.Əliyeva küçəsi 21.**
**Telefon: 275-32-72.**

REKTORLUQ


# "Google" 72 kubitlik kvant kompüteri yaradıb

**Yusif ƏLİYEV**




"Google" şirkətinin tədqiqatçılar qrupu ikiölçülü massivə birləşdirilmiş 72 yüksək keçirici kubitdən istifadə edilən kvant prosessoru yaradıb.

Məlumat üçün bildirək ki, kvant kompüterləri xüsusi bit tipi olan kubitlə əməliyyat aparır. Ənənəvi bitlərdən fərqli olaraq, bu məntiqi elementlər eyni zamanda həm "1", həm də "0" vəziyyətində ola bilər. Bu xüsusiyyət bəzi hallarda ənənəvi alqoritmlərdən daha məhsuldar olan yeni hesablama alqoritmləri hazırlamağa imkan verir.

**www.hitech.newsru.com** saytının məlumatına görə, çoxlu sayda kubitlərdən istifadə edən kvant kompüterlərinin yaradılmasında əsas problem informasiyanın oxunması və yazılması, hesablamalar zamanı səhvlərin yaranması ilə bağlıdır. Kvant kompüterində kubitlərin sayının artırılması ilə yanaşı, belə səhvlərin yaranması ehtimalı da artır. Lakin "Google"un mütəxəssisləri bu problemi həll edə biliblər.

Təqdim edilmiş 72 kubitlik kvant prosessoru 9 kubitlik sələfi ilə eyni sxem üzrə hazırlanıb. Lakin yeni kompüterdə kubitlər zəncirlə birləşməyib və bir-biri üzərində yerləşmiş iki kvadratlıq 6*6 massivi yaradırlar. Bu, hesablamalar zamanı yaranan səhvləri izləməyə və düzəltməyə imkan verir. Hələ ki, yeni kompüterin xarakteristikaları haqqında ətraflı məlumat verilmir.


"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4861, **Sifariş** 1018

**Məsul növbətçi:** Ş.Cəfərov


# 7 yaşlı həmyerlimiz Mina Abbasovanın növbəti qələbəsi

**Rəşad ZİYADOV**

Macarıstanın Budapeşt şəhərində 30 mart - 1 aprel tarixlərində bədii gimnastika üzrə VI Beynəlxalq "Bahar kuboku - 2018" turniri keçirilib.

Turnirdə ev sahibi Macarıstanla yanaşı, İtaliya, Rusiya, Çexiya, Kipr, Almaniya, Qazaxıstan, Qırğızıstan, Ukrayna, İsrail, Estoniya, Bosniya və Herseqovina, Polşa, Luksemburq, Moldova, Bolqarıstan və başqa dövlətlər olmaqla, ümumilikdə 17 ölkənin 43 idman klubu iştirak edib.

380 gimnastın mübarizə apardığı bu yarışmada həmyerlimiz 7 yaşlı Mina Abbasova ukraynalı rəqibindən bir pillə geridə qalaraq çoxnövçülük üzrə 2-ci yeri tutub. O, həmçinin, alətsiz və həlqə ilə hərəkətlərdə də 2-ci yerə layiq görülərək, turnirdə 3 gümüş medal qazanmağa müvəffəq olub.

Yarışın sonunda qaliblər RİO - 2016, Avropa oyunları-2015 Bakının qızıl mükafatçısı, 7 qat dünya, 4 qat Avropa çempionu Marqarita Mamun və 3 qat Asiya çempionu Elizaveta Nazarenkonun ustad dərslərinə vəsiqə qazanıblar.

Yarışlarda parlaq çıxışı ilə yaşıdlarından fərqlənən Mina Abbasova iki ildən artıqdır ki, Budapeştdə fəaliyyət göstərən "Rus RG Sport" klubunda gimnastika ilə məşğul olur. Macarıstandan başqa, Almaniya, Serbiya, Xorvatiya, İtaliya və Sloveniyada keçirilən beynəlxalq turnirlərdə də fəxri kürsünün yüksək pillələrinə qalxaraq qızıl və gümüş medallara sahib olub. Həmin yarışlarda Mina ailəsinin hazırda müvəqqəti olaraq yaşadığı ölkəni - Macarıstanı təmsil etsə də, ən böyük arzusu iştirak etdiyi bütün gimnastika turnirlərində Azərbaycan bayrağını dalğalandırmaqdır.




# Etibarsız sayılır

**Bakı Dövlət Universiteti** tərəfindən 1998-ci ildə İsmayılov Emil İsa oğluna verilmiş A-030590 nömrəli bakalavr diplomu və 2000-ci ildə verilmiş MNB-003731 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2002-ci ildə Novruzov Tural Natiq oğluna verilmiş AN-095183 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Hacıyeva Fidan Famil qızına verilmiş BB-I-022325 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əliyev Elvin Qəşəm oğluna verilmiş 654841 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 2 nömrəli texniki-humanitar elmlər liseyini 2010-cu ildə bitirmiş Əhməd Rizvan oğluna verilmiş B-682719 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 22 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Quliyev Pərviz Fətulla oğluna verilmiş B-271501 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Şilin Vadim Qeorqiyeviçə verilmiş 334382 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 7 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Heybətov Vüsal Şərayət oğluna verilmiş 661133 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayonu** İsalı kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Cəfərov Nicat Hafiz oğluna verilmiş B-536268 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2011-ci ildə bitimiş Həsənov Sabir İdris oğluna verilmiş AN-004698 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2017-ci ildə Qaraşova Minurə Ramiz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayonu** Xanabad kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Əzizov Ruslan Rövşən oğluna verilmiş B-423921 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Özənqala kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Qurbanova Sevinc Arzuman qızına verilmiş 212357 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası** Prezidentinin yanında Ali Attestasiya Komissiyası tərəfindən 2002-ci ildə Qəhrəmanova Mehriban Xosrov qızına verilmiş EN-02616 nömrəli elmlər namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti** tərəfindən 2007-ci ildə Kərimov Rüfət İslam oğluna verilmiş B-087551 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2004-cü ildə bitirmiş Osmanov Elnur Vidadiyeviçə verilmiş B-083440 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 5 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədli Gülgəz Rövşən qızına verilmiş 635953 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Cəfərov Alışan Maksim oğluna verilmiş AK-589363 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Mirzəyeva Simnarə Feyzulla qızına verilmiş 655187 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2014-cü ildə İslamzadə Güllər Azər qızına verilmiş AA-039668 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Salyan rayonu** Gəncəli kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş İbrahimov Səbuhi Nahid oğluna verilmiş B-731333 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Texnikumu** tərəfindən 2001-ci ildə Nəsirova İlhamə Rafiq qızına verilmiş AB-II-063868 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayonu** Borsunlu kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Şakirova Bəxtli Əhməd qızına verilmiş B-093297 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Yusifov Ayaz İsmayıl oğluna verilmiş B-094433 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Şahağac kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Hüseynov Natiq Elçin oğluna verilmiş A-071644 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 19 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Əliyeva Aynurə Rəşid qızına verilmiş A-089557 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Eyvazova Kamilə Kamran qızına verilmiş 429475 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 12 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hümbətova Simuzər Vahir qızına verilmiş B-510994 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 1986-cı ildə bitirmiş Qurbanova Tünzalə Ağaməd qızına verilmiş 234317 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Salmanova Könül Heydər qızına verilmiş 115786 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədəliyev Vüqar Natiq oğluna verilmiş A-028640 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** akademik Zərifə Əliyeva adına məktəb-liseyi 2007-ci ildə bitirmiş Ağayeva Lalə Azər qızına verilmiş B-455902 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya Universiteti** tərəfindən 2003-cü ildə Zeynalov Sənan Məhərrəm oğluna verilmiş A-141433 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədova Sona Elman qızına verilmiş B-661822 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Sığırlı kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Bəşirov Faiq Əlizadə oğluna verilmiş A-044105 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 75 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Aşurova Vüsalə Aslan qızına verilmiş 460 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhərində** yaşayan Məmmədova Svetlana Vladimirovnaya verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestindən MN-0114264 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Pedaqoji Qızlar Seminariyası** tərəfindən 2000-ci ildə Qarayeva Aynurə Fəxrəddin qızına verilmiş A-054964 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 111 nömrəli koçkün tam orta məktəbini 2004-cü ildə bitirmiş İbrahimova Şəhla Hüseyn qızına verilmiş B-061790 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Çaxırlı kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Kazımova Türkay Lazım qızına verilmiş B-625104 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat İnstitutu** tərəfindən 1999-cu ildə Quliyev Pərviz Oqtay oğluna verilmiş A-023648 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Möhbiyeva Nəzrin Bəybala qızına verilmiş A-510222 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 201 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Alıyeva Naibə Aftandil qızına verilmiş A-257693 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2011-ci ildə Bəkirli Çilənay Elman qızına verilmiş B-241693 nömrəli bakalavr fərqlənmə diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Masallı rayonu** Gəyəçöl kənd tam orta məktəbini 1979-cu ildə bitirmiş Eynullayeva Həqiqət Sabir qızına verilmiş A-308034 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 207 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Məmmədzadə Tural Niyazi oğluna verilmiş B-675216 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 3 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Fərəcova (Eyvazova) Tahirə Arif qızına verilmiş 548504 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi 3 nömrəli Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Elxan Cavadova qayınatası

**ƏHMƏD SÖHBƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva və idarənin kollektivi Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı

**FAİQ MÖHBALIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ADPU-nun Şamaxı filialının professor-müəllim heyəti filialın direktoru Tünzalə Yusifovaya qardaşı

**ŞAİQ VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 38 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin ibtidai sinif müəllimi Şərqiyyə Nəcəfovaya qardaşı

**XANBALA MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish



The British Library



A book from 1867 - an example of early SMS language!!



Learning more about English

## Activity 1

Match the word with a definition.

| | | |
|---|---|---|
| 1. commerce | 2. complicated | 3. flexible |
| 4. replace | 5. universal | 6. versions |

a. buying and selling things
b. different forms or types
c. difficult to understand
d. existing everywhere
e. substitute
f. that can adapt or change

## Activity 2

You are going to read a text that contains the following information. Can you guess any of the correct answers before you read?

| | | |
|---|---|---|
| A lot of people | Most | Many people |
| Almost all | Half | |

1. .................. the world may speak English by the year 2050.
2. .................. airlines now use English.
3. .................. European schoolchildren learn English as a second language.
4. .................. tweet and use social media.
5. .................. think there won't be another global language after English.

Now read the text and find out if you were correct.

## English

For the first time in history, there is a universal language – English. Perhaps half the world will speak it in the year 2050.

English is not easy to learn – most common verbs are irregular and it has a large vocabulary – at least 200,000 words. How you pronounce and write a word can also be very different.

However, verbs are less complicated than other languages and there is only one form to speak to someone directly – 'you'.

English is very flexible – there are different versions of English in Africa, Asia and the Caribbean.

Most airlines and shipping companies use a simple form of English to make communication easier.

It is also the first language of technology and education. Eighty per cent of the information on the Internet is in English. Almost all schoolchildren in Europe study it as a first foreign language.

About 25,000 new words enter the English language every year. A lot of people *tweet* or use other *social media*. But what is *m-commerce*? It's *e-commerce* on a mobile phone, of course!

What is the future of English as a global language? Will another language ever replace it? Many people think not – it is already too popular.

## Activity 3

True or false?

1. English is the first global language.
2. Half of the world speaks English.
3. English verbs are very complicated.
4. English is the same in Africa, Asia and the Caribbean.
5. There are thousands of new words in English every year.

## Activity 4

Type in a word from the text to complete the sentences.

1. English is the first universal ............................
2. Lots of common verbs in English are ............................
3. How you write English and ............................ it can be very different.
4. Pilots use English to make ............................ easier.
5. Almost all European schoolchildren study English as a ............................ language.

## Activity 5: Discussion topic

Do you like learning English? Why/why not?

**Useful links >**

This content on video: http://learnenglish.britishcouncil.org/en/britain-great

British Council – English: http://www.britishcouncil.org/english

**Answers**

Activity 1
1. a; 2. c; 3. f; 4. e; 5. d; 6. b

Activity 2
1. Half; 2. Most; 3. Almost all; 4. A lot of people; 5. Many

Activity 3
1. True (T); 2. False (F); 3. F; 4. F; 5. T

Activity 4
1. language; 2. irregular; 3. pronounce; 4. communication; 5. foreign

**To find more English language activities visit:
http://learnenglish.britishcouncil.org**

© British Council 2013

ENGLISH IS GREAT BRITAIN